Xalqın qəzeti!
# Xalq qəzeti
№ 211 (30905) 2 oktyabr 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – İtaliya: birgə ali təhsil layihəsinin ortaq hədəfləri

## İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri

### *Bakıda İtaliya–Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella oktyabrın 1-də Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışında iştirak ediblər.**

ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və İtaliya Prezidenti Sercio Mattarellaya yeni tikilmiş tədris korpusları və onların ətrafında yaradılmış park barədə məlumat verdi.

Sonra tədris korpusunda təşkil edilən Azərbaycan və İtaliya kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanışlıq oldu.

Qeyd edək ki, İtaliya-Azərbaycan Universitetinin yaradılması təşəbbüsü 2020-ci ildə Prezident İlham Əliyev tərəfindən İtaliyaya dövlət səfəri zamanı irəli sürülüb. Layihəni həyata keçirmək üçün ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Sapienza Universiteti, Turin Politexnik Universiteti, Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında 2022-ci ildə akademik əməkdaşlıq sazişləri imzalanıb. Bu əməkdaşlıq İtaliyada kiçik və orta sahibkarlığın, yaradıcı sahələrin, sənətkarlığın və texnoloji inkişafın dəstəklənməsi təcrübəsini təhsil və tədqiqat vasitəsilə Azərbaycana gətirir, iqtisadiyyatımızın strateji sahələri, xüsusilə də mühəndislik, kənd təsərrüfatı və qida sənayesi, memarlıq və dizayn üçün gələcək kadrları yetişdirmək məsələsində mühüm rol oynayır.

İtaliya-Azərbaycan Universiteti binalarının təməli 2022-ci ildə hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə Bakıda qoyulub. Universitetə tələbə qəbulu 2023-cü ildən magistr səviyyəsində həyata keçirilir. Hazırda burada tədris olunan 8 bakalavr və 2 magistr proqramında 538 tələbə bakalavr, 102-si isə magistr səviyyəsində təhsil alır. İxtisaslardan 3-ü ikili diplom proqramıdır. Tədris proqramları elektrik və elektronika mühəndisliyi, memarlıq, interyer və kommunikasiya dizaynı, şəhərsalma, kənd təsərrüfatı və qida texnologiyaları, heyvandarlıq və müxtəlif menecment ixtisaslarını əhatə edir. Bakalavr və magistr proqramlarından əlavə, peşəkarlar üçün mütəmadi ixtisasartırma və sertifikat proqramları da həyata keçirilir.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan Prezidenti “Qarabağ” futbol klubunu təbrik edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında “Qarabağ” futbol klubunun qələbəsi ilə bağlı paylaşım edib.**

Paylaşımda yazılır: “Danimarka çempionu “Kopenhagen” futbol klubu üzərində inamlı qələbə qazanması münasibətilə “Qarabağ” futbol klubunu, bütün Azərbaycan futbol ictimaiyyətini ürəkdən təbrik edirəm.

Planetin ən güclü klub turnirinin əsas mərhələsində 2 oyunda 2 parlaq qələbə əldə edən “Qarabağ” dünya futbolunun nəhəngləri ilə ilk pillələri bölüşməklə xalqımızı qürurlandırmaqda davam edir”.

## Prezident İlham Əliyevin yeni konseptual tezisləri



Səhifə ➩ 7

## Bakı “Rəqəmsal İpək yolu”nun da paytaxtıdır



Səhifə ➩ 7

## Paşinyan sükanı möhkəm saxlaya biləcəkmi?



Səhifə ➩ 4

## Tutduğunu buraxmayan siyasi korafəhm Oskanyan



Səhifə ➩ 6

## Avropa üçün nümunəvi tərəfdaşlıq modeli



**Geosiyasətin sürətlə dəyişən qlobal lövhəsində Azərbaycan–İtaliya münasibətləri Avrasiyanın enerji xəritəsinə çəkilmiş qalın cizgidir. XXI əsrin siyasi sözlüyündə “enerji təhlükəsizliyi” anlayışı dövlətlərin müstəqilliyini qoruyan strateji sipər kimi qəbul olunur. Avropa İttifaqı Rusiyanın enerji monopoliyasından qurtulmağa çalışdığı halda, Azərbaycan öz resurslarını və coğrafi üstünlüyünü qlobal siyasətdə təsir vasitəsinə çevirməyi bacarıb. Bu mənzərədə Roma ilə Bakı arasında qurulan strateji tərəfdaşlıq Avropanın enerji damarlarını Qafqazdan keçən arteriyaya bağlayır. İtaliya Azərbaycanın Avropadakı ən güclü müttəfiqlərindən biri kimi çıxış etməklə “Qoca qitə”də də öz siyasi çəkisini artırır.**

Məhz bu siyasi kontekstdə sentyabrın 30-da ölkəmizə rəsmi səfər edən İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuata bəyanatları region üçün ciddi mesaj daşıyan hadisəyə çevrildi. Bu görüş Avropanın enerji xəritəsinin və Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının necə formalaşacağına dair siyasi ipucları idi. Prezident İlham Əliyev öz nitqində iki ölkə arasında siyasi əlaqələrin pik həddə olduğunu bildirdi: “Bizim aramızda iki strateji tərəfdaşlıq sənədi var. Birinci sənəd 2015-ci ildə imzalanmışdır. İkinci sənəd – Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə 5 il bundan əvvəl imzalanmışdır. Bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir. Qeyd etdiyim kimi, biz tez-tez görüşürük”.

*(ardı 4-cü səhifədə)*

## “Qarabağ”, sən Zəfərin özüsən!

**“Qarabağ” Çempionlar Liqasına “Benfika” üzərində qələbəsi ilə başladı. Etiraf edək ki, “köhlən atların” bu qələbəsi Avropa futbolunda gözlənilməz bir nəticə idi. Çünki Lissabonda keçirilən matçın 16-cı dəqiqəsində meydan sahiblərinin 2:0 hesablı üstünlüyü ilə “Qarabağ” son üç mövsümdə avrokuboklarda yeddinci sarsıdıcı məğlubiyyətinə doğru gedirdi. Buna baxmayaraq, Azərbaycan çempionu diqqətəlayiq xarakter nümayiş etdirərək, nəinki oyunun gedişatını dəyişdi, hətta geridönüş edərək “Benfika”nı 3:2 hesabı ilə məğlub etdi. Bununla “Qarabağ” cari avrokubokda yeddi oyunda 6 qələbə qazanaraq rekordunu yenilədi. “Kopenhagen”lə görüşqabağı da Qurban Qurbanovun yetirmələrinin daxili çempionatda işləri uğurla davam edir və onlar altı turdan sonra ilk dəfə ardıcıl iki qələbə qazanıblar.**

*(ardı 15-ci səhifədə)*



# Bakıda İtaliya–Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı





*(əvvəli 1-ci səhifədə)*

Tədris korpuslarında sinif otaqları ilə yanaşı, müasir texnologiyalara əsaslanan, İtaliyanın Bolonya Universiteti və Milan Politexnik Universiteti ilə birgə qurulmuş 6 tədqiqat və 7 tədris məqsədli laboratoriya da fəaliyyət göstərəcək. Burada memarlığa aid materiallardan ibarət kitabxana, şəhərsalma, landşaft və foto-video studiyaları, müxtəlif dizayn emalatxanaları yerləşir. Yeni binalarda qurulmuş tədris emalatxanaları isə dərslərin praktiki tədrisi üçün bir məkandır. Burada müxtəlif növ materiallarla işləmək üçün texnoloji və rəqəmsal imkanlar yaradılıb. Tədris emalatxanası tələbələr və tədqiqatçıların bir yerdə işlədiyi məkandır. Onların birgə əməyinin nəticəsi isə xüsusi Dizayn və yaradıcılıq mərkəzi vasitəsilə sənaye və biznes strukturlarına çatdırılacaq. Bir sözlə, bura tədris və tədqiqatın real iş dünyası ilə birləşdiyi mərkəzdir.

Tədris korpusunda yerləşən "bazar meydanı" isə Azərbaycanın tarixi "İpək Yolu"nun bir hissəsi olduğunu əks etdirir. Universitetin tələbələri və müəllimləri ildə bir dəfə burada bir araya gələrək öz layihələri ilə yarışacaq və onları biznes mühitinə təqdim edəcəklər. Bu sərgilər yerli və beynəlxalq səviyyədə universitet-sənaye-dövlət arasında üçtərəfli əməkdaşlığa xidmət göstərəcək.

Bu layihənin icrası ölkələrimiz arasında humanitar sahədə əməkdaşlığın yüksək səviyyəsinin göstəricisi olmaqla səmimi münasibətlərimizdən xəbər verir. Bu, həmçinin İtaliya təcrübəsindən istifadə etməklə Azərbaycan təhsilinin inkişafına töhfədir.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və İtaliya Prezidenti Sercio Mattarella tədris binalarında yaradılan şəraitlə tanış olduqdan sonra ölkəmizdə səfərdə olan İtaliya universitetlərinin rəhbərləri, İtaliya-Azərbaycan Universitetinin professorları və tələbələri ilə görüşüblər.

**ADA Universitetinin rektoru Hafiz Paşayev görüşdə çıxış edərək dedi:**

– Möhtərəm cənab Prezident İlham Əliyev.

Möhtərəm Prezident Sercio Mattarella.

Möhtərəm Mehriban xanım, ölkəmizin Birinci vitse-prezidenti.

Mən sizi səmimi-qəlbdən çox həyəcanla və iftixarla bu yeni binada salamlayıram. Həmçinin mən istəyirəm Azərbaycanın və İtaliyanın rəsmilərini, bizim professor-müəllim heyətini, tələbələri salamlayım və alqışlayım. Sizin hamınıza "Xoş gəlmisiniz!" deyirəm.

Beş il bundan əvvəl İtaliyaya rəsmi səfəri zamanı Prezident İlham Əliyev təşəbbüslə çıxış etdi və İtaliya-Azərbaycan Universitetinin yaradılması haqqında təklif irəli sürdü. O zamandan işlər başladı və 2022-ci ildə artıq Roma şəhərində biz İtaliyanın beş universiteti ilə birlikdə müqavilələrə qol çəkdik və beləliklə, niyyətlər konkret işlərə keçdi. Ondan sonra, əlbəttə, cənab Prezident bizə böyük bir hədiyyə kimi yeni İtaliya-Azərbaycan Universitetinin Bakıda kampusunun yaradılması haqqında Sərəncam verdi. Bu gün görürsünüz, biz indi həmin universitetdəyik. Bu, gözəl universitetdir, artıq iki bina bu universitetə məxsusdur. Biri Kənd təsərrüfatı və qida elmləri, digəri isə Dizayn və arxitektura fakültəsi. Əlbəttə, bu günə qədər nailiyyətlərimiz təkcə bunlar deyil, biz təhsilin təşkili sahəsində də işlər görmüşük və deyə bilərəm ki, bu gün bizim 640 tələbəmiz var. Onlardan 112-si magistr, qalanı bakalavr tələbələridir. Hətta deyə bilərəm ki, bizim ilk qəbulumuz 2023-cü ildə olub və artıq onun məzunları bu il Luiss Universitetinin magistr proqramını başa vurublar.

Əlbəttə, sizin vaxtınızı çox almaq istəmirəm, amma mən bir şeyi demək istəyirəm. Bu universitetin yaranmasında həm İtaliya tərəfi, həm də İtaliyanın beş universiteti - Luiss, Milan Politexnik, Turin Politexnik, Sapienza və Bolonya mühüm rol oynayıb. O əsas bina Bolonya Universitetinə məxsusdur ki, bu da kənd təsərrüfatına aiddir. Deməyim odur ki, bu işlər artıq görülüb və bu işlərdə çox şirkətlər iştirak edib. Onların bu işə verdiyi töhfə çox dəyərlidir. Mən indi hamısını sadalamaq istəmirəm, amma deməliyəm ki, bu iş doğrudan da təhsilə həvəsin çox böyük olduğunu göstərir. Biz bu işdə əməyi olan hər kəsdən, hər bir şirkətdən çox böyük kömək görmüşük. Onu da deyim ki, bu iş çox həvəslə görülüb.

Cənab Prezident, bu imkanı bizə yaratdığınıza görə Sizə çox təşəkkür edirik. Bu, doğrudan da həyəcandoğuran bir iş idi və təbii ki, bunun davamı olacaq. Amma elə bilirəm bu günə qədər gördüyümüz işlər müəyyən təsəvvür yaradıb ki, bizim niyyətlərimiz nədir, hara gedirik. Ümumiyyətlə, biz ölkənin təhsilinə daha artıq töhfə vermək fikrindəyik. Mən bilirəm ki, hər iki ölkədə təhsillə bağlı çox işlər görülür. Hətta tərəfdaşlarımız bu işdə bizə kömək edərək öz təcrübələrini həvəslə bölüşürlər. Bu mənada mən xüsusilə ona diqqət yetirmək istəyirəm ki, hazırda 26 doktorant bu iki universitetdə - Bolonya Universitetində, sonra Polimidə təhsil alır. Həmçinin Turində də bizim mühəndislik üzrə doktorantlarımız var.

Mən hər iki Prezidentin təhsilə verdiyi diqqəti və dəstəyi xüsusi qeyd etmək istəyirəm. Həm Prezident İlham Əliyev, həm də Prezident Sercio Mattarella təsadüfi deyil ki, bu gün bizimlə bir yerdə bu binaların açılışını edirlər. Ona görə universitetimizin, tələbələrimizin və müəllimlərimizin adından hər iki Prezidentə çox böyük təşəkkür edirəm.

Çox sağ olun.

*

Sonra Azərbaycan Respublikasının Prezidenti çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, tələbələr, müəllimlər.

Xanımlar və cənablar.

Bu gün İtaliya–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür, biz İtaliya-Azərbaycan Universitetinin binalarının açılışını qeyd edirik. Mən keçən il Romada Prezident Mattarella ilə görüşərkən ona bu haqda məlumat vermişdim və onu Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Şadam ki, cənab Prezident mənim dəvətimi qəbul edib Azərbaycana ikinci dəfə rəsmi səfərə gəlib. Biz səfər çərçivəsində bu gözəl təhsil ocağının açılışını birlikdə qeyd edirik. Əslində, Prezident Mattarellanın rəsmi səfər proqramına bu tədbirin salınması onu göstərir ki, həm İtaliya, həm də Azərbaycan bu sahədəki əməkdaşlığa çox böyük əhəmiyyət verir. Əminəm ki, universitetin gələcəyi çox parlaq olacaq. Bu, nəinki Azərbaycanda, dünya miqyasında öz layiqli yerini tutacaq, universitetin məzunları isə Azərbaycanın inkişafına öz töhfələrini verəcəklər. Əminəm ki, burada oxuyan və oxuyacaq tələbələr gələcəkdə Azərbaycanın inkişafına çox böyük dəstək verəcəklər. Çünki sirr deyil ki, hər bir ölkənin inkişafı onun elmi və təhsil potensialından qaynaqlanır. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu ölkələri inkişaf etmiş ölkələr edən məhz biliklərdir, təhsildir, texnologiyalardır. Bugünkü dünyada texnoloji inkişaf hər bir ölkənin uğurunu müəyyən edir. Təbii resurslarla zəngin olan ölkələr kimi Azərbaycan, ilk növbədə, təbii resurslardan gələn gəlirləri insan kapitalına yönəltməyə çalışmışdır. Çünki biz gələcəyə baxmalıyıq. Yenə də deyirəm, neft, qaz, təbii resurslar hələ o demək deyil ki, bu ölkələr uzunmüddətli dayanıqlı inkişafa malik olacaqlar. Bu inkişaf qısamüddətli ola bilər. Uzunmüddətli dayanıqlı inkişaf məhz biliyin, texnologiyanın, təhsilin səviyyəsinin üzərində qurulur. Ona görə biz Azərbaycanda bu sahəyə böyük diqqət yetirərək artıq uzun illər ərzində bir çox önəmli proqramlar icra etmişik.

Mən Prezident vəzifəsinə seçiləndən sonra demək olar ki, dərhal göstəriş vermişdim ki, Azərbaycan vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə Azərbaycan gəncləri ezam edilsin, onların bütün xərcləri dövlət tərəfindən ödənilsin və onlar yaxşı oxuyub Vətənə yaxşı mütəxəssislər kimi qayıtsınlar. Bu günə qədər dövlət xətti ilə dünyanın aparıcı ali məktəblərində təhsil alan tələbələrin sayı minlərlə ölçülür. Ondan sonrakı mərhələdə qərara gəldik ki, eyni zamanda, Azərbaycanın daxilində təhsil sisteminin inkişafı ilə bağlı beynəlxalq əməkdaşlıq məsələlərinə də diqqətlə yanaşaq. Artıq Azərbaycanda bir neçə xarici tərəfdaşlarla birgə universitet fəaliyyət göstərir və növbəti universitet İtaliya-Azərbaycan Universitetidir. Bu universitetin özəlliyi bundan ibarətdir ki, – burada rektor Hafiz Paşayev bunu qeyd etdi, – bu universitet İtaliyanın beş aparıcı universiteti və ADA Universiteti ilə birlikdə qurulmuşdur. Əlbəttə, İtaliya-Azərbaycan strateji tərəfdaşlıq əlaqələrini nəzərə alaraq, biz əminik və ümid edirik ki, bu, Azərbaycanın aparıcı təhsil ocaqlarından birinə çevriləcəkdir.

İtaliya Azərbaycanla artıq uzun illər strateji tərəfdaşlıq əsasında münasibətlər qurmuşdur. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bizim əməkdaşlığımız strateji xarakter daşıyır, qısamüddətli deyil, uzunmüddətlidir. Eyni zamanda, bizim əməkdaşlıq çərçivələrinə ildən-ilə yeni istiqamətlər əlavə olunur. Energetikadan başlamış sənaye istehsalına qədər uzanan və bu gün təhsil sahəsini əhatə edən əməkdaşlıq, sözün əsl mənasında, strateji xarakter daşıyır.







Dünən Prezident Mattarellanın rəsmi səfəri zamanı həm rəsmi açıqlamalarda, həm apardığımız danışıqlarda biz bunu qeyd edirdik ki, İtaliya-Azərbaycan əməkdaşlığı, məsələn, energetika sahəsində böyük bir inkişafa yol açmışdır. Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsi böyük dərəcədə Prezident Mattarellanın şəxsi dəstəyi nəticəsində mümkün olmuşdur. Əgər o vaxt bu həll olunmasaydı, bu gün biz Avropa məkanına bu qədər təbii resurslar ixrac edə bilməzdik. Biz də ondan əziyyət çəkərdik, Avropa məkanı da. Bu gün Azərbaycan qazı Avropa İttifaqına səkkiz üzv ölkənin enerji təhlükəsizliyini dəstəkləyir və bu coğrafiya genişlənir və burada İtaliya-Azərbaycan əməkdaşlığı həlledici rol oynamışdır.

Qaz təchizatına görə Azərbaycan İtaliya bazarında ikinci yerdədir, neft təchizatına görə birinci yerdədir. Əminəm ki, təhsil sahəsində də İtaliya bizim üçün bir nömrəli tərəfdaş olacaq. Hər halda burada gördüklərimiz və artıq fəaliyyətə başlamış universitetin uğurları bunu deməyə əsas verir. Artıq yüzlərlə tələbə oxuyur. Biz bu gün burada rəhbər heyətlə də tanış olduq. Burada beynəlmiləl müəllim heyəti çalışır, həm İtaliyadan, həm Azərbaycandan. Xarici tələbələr də var və bu, çox gözəl bir ovqat yaradır. Əminəm ki, burada oxuyan və məzun olacaq tələbələr gələcəkdə İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Hər halda burada oxuyan Azərbaycan tələbələrinin gələcəyi İtaliya ilə bağlı olacaq. Onlar İtaliyanı, onun mədəniyyətini, onun inkişafını, onun uğurlarını daha yaxından tanıyacaqlar. Burada bir çox məqsədlər təmin ediləcək. İlk növbədə, Azərbaycan iqtisadiyyatı üçün gələcəkdə güclü kadr potensialı yaradılacaq. Bizim təhsil sahəsinin təkmilləşməsi məsələləri öz həllini tapacaq. Biz ən müasir və mütərəqqi təhsil sisteminə qoşulacağıq və eyni zamanda, Avropa İttifaqının aparıcı ölkələrindən biri olan İtaliya ilə dostluq əlaqələrimiz daha da güclənəcək. Bütün bu amilləri nəzərə alaraq bir daha görürük ki, vaxtında atılmış və düşünülmüş addımlar gözəl nəticələrə gətirib çıxarır.

Burada qeyd olundu, bu universitetin yaradılması təşəbbüsü cəmi beş il bundan əvvəl irəli sürülmüşdür. Romada, Azərbaycan səfirliyində, səfirliyin binasında yerləşən Mədəniyyət Mərkəzində sənədlər mübadiləsi olmuşdur. Ondan sonra mənim tərəfimdən Sərəncam imzalanmışdır. Daha sonra Azərbaycanın dövlət büdcəsindən bu binaların, bütün infrastrukturun yaradılmasına vəsait ayrılmışdır və bu gün 2025-ci ildə biz bu gözəl binaların açılışını qeyd edirik.

Bu, doğrudan da gözəl hadisədir. Bu təhsil ocağı İtaliya-Azərbaycan dostluq ocağı olacaq. Hər birinizi bu münasibətlə təbrik edirəm. Prezidentə bu tədbirdə bizimlə bərabər olduğu üçün bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

*

Daha sonra İtaliya Respublikasının Prezidenti çıxış etdi.

## Prezident Sercio Mattarellanın çıxışı

– Cənab Prezident. Hörmətli xanım Birinci vitse-prezident.

ADA Universitetinə və rektora söylədiyi sözlərə görə dərin təşəkkürümü bildirirəm. Onunla birgə buraya gəlmiş Luiss Universitetinin, Milan və Turin universitetlərinin, eləcə də Bolonya və Roma universitetlərinin rektorlarını, prorektorlarını salamlayıram. Cənab Prezident, mən özüm də illər öncə Roma Universitetini bitirmişəm.

İtaliya-Azərbaycan Universitetinin dosentlərini, eləcə də indicə tanış olduğumuz bu cür möhtəşəm şəhərcikdə təhsil alan və alacaq tələbə qızları və oğlanları xüsusi səmimiyyətlə alqışlayıram. Şəhərcik böyük təəssürat bağışladı, onun binasının funksionallığını və gözəlliyini yüksək dəyərləndirirəm. Mən şəxsən bu təşəbbüsdən olduqca məmnunam. Onun Azərbaycanla birgə reallaşdırılmasından İtaliya fərəh hissi duyur. Bu universitet nəinki geniş imkanları, resursları, tədqiqat və tədrisi, dosentləri, təhsil alan gənc azərbaycanlı və italyan tələbələri bir araya gətirir, o cümlədən Azərbaycan ilə İtaliya arasında yüksələn xətlə artan, intensiv və geniş dostluğu əks etdirir.

Bu təşəbbüsün həm rəmzi, nümunəvi mahiyyəti var, həm də o, əməkdaşlığımızın tacıdır və Prezident Əliyevin xatırlatdığı kimi, özünü müxtəlif formalarda və sektorlarda, yəni enerjidən tutmuş iqtisadiyyat və sənaye sahələrində büruzə verir. Həm də bu məkan ölkələrimizi, onun vətəndaşlarını sıx bağlayan mədəniyyəti, elmi tədqiqatları, təhsili təcəssüm etdirir.

Azərbaycana yenidən gəlmək məqsədilə məni nəzakətlə dəvət etdiyinə görə Prezident Əliyevə dərin təşəkkürümü bildirirəm. Bu cür möhtəşəm tələbə şəhərciyini açmaq münasibətilə mənə etdiyi dəvətdən şərəf hissi duyuram. Həqiqətən olduqca minnətdaram.

Bütün bunları diqqətini öz vətəndaşlarının rifahına yönəldən, onların həyatına qayğı ilə yanaşan, gələcəyi haqqında düşünən ölkələrimiz arasında münasibətləri nümayiş etdirmək fürsəti kimi görürəm. Bakı və Roma nəinki coğrafi baxımdan təmaslar tarixini yazıblar, hətta ticarət baxımından kəsişən yollar vasitəsilə mallar və məhsulların mübadiləsi salnaməsini yazıblar, o cümlədən öz bilikləri, perspektivləri, dostluq və əməkdaşlıq planları ilə də bölüşüblər.

Bunların İtaliya-Azərbaycan Universiteti timsalında bu cür səmərəli, konkret formada və yüksək keyfiyyətlə yenilənməsi, həmçinin bütün beynəlxalq ictimaiyyətə bir ismarışdır. Bu əməkdaşlıq bacarıqları, istedadları, resursları və perspektivləri tamamlayır. Cənab Prezidentlə birlikdə universitetin bu cür möhtəşəm binasını görməkdən çox məmnunam. Bu təhsil ocağı dosent və tələbələrə nəinki tədqiqatlar aparmaq, işləmək, öyrənmək, bilikləri fəal şəkildə artırmaq imkanını verəcək, eləcə də bu ərazidə universitet həyatını duymaq fürsətini yaradacaq. İnkişaf perspektivləri haqqında düşünərkən belə inkişaf meyillərinin Azərbaycanın bütün ərazilərində geniş vüsət almasını arzulayıram. Beynəlxalq əhəmiyyətli təşəbbüslərin burada çox olmasını istərdim. Bu cür birgə perspektivlər İtaliya-Azərbaycan Universitetimizin rolunu daha da artıracaq. Universitetin əks etdirdiyi və ifadə etdiyi mədəniyyət biliklərin daşıyıcısı kimi ismarışları daha səmərəli edəcək.

Bu münasibətlə burada təhsil alan və alacaq tələbə qızlara, oğlanlara ən böyük təbriklərimi çatdırıram. Onlar nəinki öz ölkəsinin təhsil ocağında təhsil alacaq, eləcə də bizim ölkənin digər təhsil ocaqlarındakı tələbələrlə, dosentlərlə və tədqiqatçılarla virtual deyil, real və səmərəli şəkildə əlaqə saxlamaq imkanını qazanacaqlar. Həmçinin bizim tələbələr, dosentlər və tədqiqatçılar azərbaycanlı həmkarları ilə təmas quracaqlar. Biliklər bu cür dərinləşir, imkanların miqyası artır. Bu halda həmin təcrübə və təşəbbüs inanılmaz dərəcədə dəyərli alətə çevrilir.

Bildirmək istərdim ki, Prezident Əliyevlə iştirakçı universitetlərin gördüyü iş, o cümlədən böyük əhəmiyyətli nəticələr vermiş həmin qeyri-adi təşəbbüs haqqında artıq danışdıq. Bütün bunlar həmin təhsil ocağının ərsəyə gəlməsi ilə bağlı təşəbbüsün və məramın düzgünlüyünü göstərir.

Gördüyünüz işlərə görə sizə sağ ol deyirik. İtaliya bu təşəbbüsdə Azərbaycanla birgə iştirak etməkdən fərəhlənir. Cənab Prezident, həqiqətən çox məmnunam ki, biz beynəlxalq səviyyədə bu cür əhəmiyyətli nümunə göstəririk, yəni əməkdaşlığın dərinləşməsi və inkişafı, istedadlı gənclərimizin təhsili təmin edilir. Ağır münaqişə və toqquşmalarla səciyyələnən hazırkı beynəlxalq vəziyyət fonunda biz məmnuniyyətlə əməkdaşlıq edirik, nəinki iqtisadiyyat, sənaye sahələrində, o cümlədən mədəniyyət, gənclərin təhsili, onların formalaşdırılması sahəsində çalışırıq. Bəşəriyyət isə hər zaman bu yolda olmalıdır. Bəşəriyyəti irəliyə aparan yalnız gənclər olacaq. Qlobal səviyyədə çox işlər görmüşük. Mədəniyyət, təhsil və tədqiqatların dərinləşməsi olmadan bu çağırışlar qarşısında dayanmaq mümkün olmayacaq. Bu amal İtaliya-Azərbaycan Universiteti tərəfindən dəyərləndirilir və onun üçün əməkdaşlıq aparılır.

Gördüyünüz işlərə görə təşəkkür edirəm. Rektorları, dosentləri və tələbələri təbrik edirəm!

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda yeni parkın açılışında

**Oktyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Nərimanov rayonunda salınan yeni parkın açılışında iştirak ediblər.**



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma park barədə məlumat verdi.

Bildirildi ki, yeni istirahət məkanı Əhməd bəy Ağaoğlu, Təbriz və Tələt Şıxəliyev küçələrinin kəsişməsində, İtaliya–Azərbaycan Universitetinin yaxınlığında yerləşir. Ərazisi 3,5 hektar olan parkda sakinlərin istirahəti üçün söhbətgahlar, amfiteatr, tennis meydançası, uşaqlar üçün əyləncə zonaları salınıb, müasir işıqlandırma sistemi qurulub. Burada həm sakit istirahət, həm də idmanla məşğul olmaq üçün bütün imkanlar yaradılıb.





Qeyd edək ki, son illərdə Bakının siması sürətlə dəyişir. Yeni park və xiyabanların salınması, mövcud yaşıllıq və istirahət zonalarının müasir tələblərə uyğun yenilənməsi paytaxtı daha da inkişaf etdirir, onu dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

Bakının müxtəlif yerlərində açılan yeni istirahət guşələri sakinlərin asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaqla yanaşı, ekoloji mühitin yaxşılaşmasına da xidmət edir.

Yeni park isə paytaxtın "yaşıl xəritəsi"nə əlavə olunmuş daha bir məkan kimi şəhər sakinlərinin və qonaqların ixtiyarına verildi.

# Vilayət Eyvazov Sumqayıtda vətəndaşlarla görüşüb və sıra baxışı keçirib



**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 30-da və oktyabrın 1-də Sumqayıt Şəhər Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Sumqayıt şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra şəhər polis idarəsinin inzibati binasında Sumqayıt şəhəri və digər rayonlardan gələn 367 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib. Nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Sonra general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Sumqayıt şəhərində yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda nazir polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 23 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 295 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*XQ*



# Azərbaycan Prezidenti İlham Əliyev Danimarkaya işgüzar səfərə gəlib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gəlib.**

Kopenhagen şəhərinin beynəlxalq aeroportunda Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər qarşılayıblar.

# Prezident İlham Əliyev Kopenhagendə ziyafətdə iştirak edib





**Oktyabrın 1-də Kopenhagendə Danimarka Kralı X Frederik və Kraliçası Meri Elizabetin adından ziyafət verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycana rəsmi səfəri çərçivəsində İtaliya Respublikasının Prezidenti Sercio Mattarella oktyabrın 1-də Şəhidlər xiyabanını ziyarət edib.**

Ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# Avropa üçün nümunəvi tərəfdaşlıq modeli



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin sözləri Azərbaycan diplomatiyasının çoxşaxəli siyasətinin Avropada etibarlı dayaqlar tapdığının birmənalı təsdiqi idi. İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya ikinci dəfə səfər etməsi İtaliyanın bu tərəfdaşlığı təsadüfi deyil, uzunmüddətli və strateji seçim kimi qəbul etdiyini göstərirdi. 2015-ci ildə ilk strateji tərəfdaşlıq sənədi və 2020-ci ildə dövlətimizin başçısının İtaliyaya səfəri zamanı imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan–İtaliya siyasi əlaqələrinin institusional çərçivəsini müəyyənləşdirdi. Bu sənədlər bu gün praktiki əməkdaşlıqda özünü tam doğruldub. Trans-Adriatik Qaz Kəməri (TAP) layihəsi bunun ən bariz nümunəsidir. Məhz Prezident Sercio Mattarellanın şəxsi müdaxiləsi layihənin uğurla icra olunmasına imkan yaratdı. Bu bir daha göstərdi ki, siyasi iradə iqtisadi layihələrin taleyində həlledici rol oynayır. 2020-ci ildən Azərbaycan qazı TAP vasitəsilə İtaliyaya ixrac olunmağa başladı və bu gün Cənub Qaz Dəhlizi vasitəsilə 14 ölkəyə enerji resursları çatdırılır.

İki ölkə arasında münasibətlər nümunəvi tərəfdaşlıq modelinə çevrilib. Bu əməkdaşlıq təkcə ikitərəfli çərçivədə deyil, həm də regional və qlobal miqyasda örnəkdir. Bir-birindən uzaqda yerləşən dövlətlər arasında əməkdaşlığın qurulması Azərbaycanın timsalında Avropaya bir nümunə kimi təqdim edilə bilər. İtaliyanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə verdiyi dəstək bu münasibətlərin strateji əhəmiyyətini daha da artırır. Prezident İlham Əliyevin sentyabrın 30-da birgə mətbuat konfransında dediyi kimi, Azərbaycanın nefti İtaliyanın neft balansında birinci, qazı isə ikinci yerdə qərarlaşıb. Bu isə onu deməyə əsas verir ki, Roma–Bakı əlaqələri çox uğurla inkişaf edir və iki ölkə əsl tərəfdaşlardır.

* * *

Xarici siyasət konfiqurasiyasına diqqət yetirsək, İtaliya Avropa İttifaqının üzvü və Avropanın geosiyasi mərkəzində dayanan ölkə kimi Azərbaycanın ən yaxın və etibarlı tərəfdaşlarından biri statusunu qazanıb. Roma–Bakı xəttinin mahiyyəti, sadəcə, neft və qaz kəmərləri üzərindən ölçülmür. Bu münasibətlər Azərbaycanın beynəlxalq tribunalarda etibarlılıq indeksini artırır və Bakını Avropanın "enerji donoru"ndan strateji aktora çevirir.

İkitərəfli münasibətlərdə diqqətçəkən məqam odur ki, Parisin illərdir qurduğu anti-Azərbaycan koalisiyalarına İtaliya heç vaxt qoşulmayıb. Fransanın ermənipərəst lobbi oyunları və "Cənubi Qafqaz siyasətində imperiya kompleksi" fonunda Roma daha praqmatik və konstruktiv davranaraq Azərbaycanın haqlı mövqeyinə hörmətlə yanaşıb, hətta bəzi məqamlarda bədxahlarımıza öz etirazını bildirib. Məsələn, ötən ilin aprelində İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Fransanın xarici işlər naziri Stefan Sejornenin Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə bağlı vəziyyətin yumşaldılmasına töhfə verməyən bəyanatlarını tənqid edib. Qarabağ məsələsində İtaliyanın prinsipial mövqeyi Azərbaycanın xeyrinə işləyən mühüm diplomatik kapitaldır. Bu, Romaya "Avropada balanslaşdırıcı güc" imicini qazandırıb. İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya səfəri əslində geosiyasi bəyanatdır. Avropanın əsas oyunçularından biri rəsmi şəkildə nümayiş etdirir ki, Azərbaycan regionda etibarlı tərəfdaş, Avropa üçün isə enerji təhlükəsizliyinin açar oyunçusudur. Əgər Fransa Makronun şəxsi ambisiyalarını Cənubi Qafqazın üstünə yükləyirsə, İtaliya isə əksinə, reallığı qəbul edir və Avropanın enerji xəritəsini Bakı ilə birgə yenidən cızır. Azərbaycan tərəfi də bu münasibətləri sırf ikitərəfli əməkdaşlıq kimi görmür. Bakı üçün Roma həm Avropa İttifaqının daxilində, həm də Aralıq dənizi hövzəsində "strateji dayaq nöqtəsi"dir. Bu səbəbdən Azərbaycan İtaliya ilə əlaqələrin davamlı inkişafı üçün ardıcıl təşəbbüslər ortaya qoyur. Nəticədə bugünkü reallıq aydındır: Avropa İttifaqında Azərbaycanın ən etibarlı müttəfiqlərindən biri məhz İtaliyadır. Roma ilə Bakı arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın yeni mərhələsi başlanır. Bu münasibətlər fonunda Fransa kimi dövlətlərin Azərbaycanın mövqeyini zəiflətmək cəhdləri absurd görünür. Çünki Avropa artıq Azərbaycanın enerji təhlükəsizliyi missiyasını İtaliya vasitəsilə qəbul və təsdiq edir.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Avropa İttifaqı məkanında iqtisadi çəkisi və həcminə görə Azərbaycanın ən böyük ticarət tərəfdaşı məhz İtaliyadır. Bu, sadəcə, Azərbaycanın neft və qaz ixracından ibarət deyil. İtaliya həm də əks-istiqamətdə – sənaye məhsulları, texnologiyalar, turizm və təhsil sahəsində əməkdaşlıqla Azərbaycanla dinamik ticarət dövriyyəsi formalaşdırır. Bu əlaqələr sənaye, nəqliyyat və hətta aviasiya sahələrinə qədər uzanır; təlim təyyarələrinin alınması məsələsi də gündəmdədir.

Aralıq dənizi regionunda maraqların toqquşması fonunda İtaliya çox zaman Fransa kimi iddialı dövlətlərlə uzlaşmır, əksinə, Türkiyə ilə yaxın mövqe sərgiləyir. Türkiyə isə Azərbaycanın strateji müttəfiqi və qardaş dövlət olduğundan, Roma ilə Ankaranın yaxınlaşması Bakı üçün də əlverişli siyasi konfiqurasiya yaradır.

Bu gün Avropa İttifaqında Azərbaycanın ən etibarlı tərəfdaşlarının İtaliya və Macarıstan olduğu danılmaz faktdır. Üstəlik, Avropa ailəsindən kənarda Böyük Britaniya da bu kontekstdə mühüm rol oynayır. Prezident Mattarellanın Azərbaycana səfəri Roma–Bakı münasibətlərinin strateji çəkisini nümayiş etdirən mesajdır.

Əlbəttə, Azərbaycanla İtaliya əməkdaşlığını pozmaq istəyən dairələr də var. Bu qüvvələrin önündə Fransa dayanır. Ancaq İtaliyanın siyasi elitası, xüsusilə də baş nazirləri çox vaxt Emmanuel Makronun əsassız iddialarını balanslaşdırmağı bacarır. Bu kontekstdə İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya səfəri həm də rəsmi Romadan siyasi jest kimi qiymətləndirilə bilər. Bu jest göstərir ki, Azərbaycan–İtaliya münasibətləri yeni mərhələyə qədəm qoyur və qarşıdakı illərdə daha da dərinləşəcək.

# Paşinyan sükanı möhkəm saxlaya biləcəkmi?

## *İrəvan olimpində marafonun finişində də nala-mıxa vurma*

**Prezident İlham Əliyev sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında regional bağlantıların ölkəmizin davamlı sülh baxışlarının əsasını təşkil etdiyini, Vaşinqton Sammitinin mühüm nəticələrindən birinin Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) olduğunu bildirmişdi.**

Dövlətimizin başçısı sentyabrın 1-də Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilmiş görüş zamanı isə avqustun 8-də Birləşmiş Ştatlarda Ermənistla əldə olunmuş razılığı nəzərdə tutaraq demişdi ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə anlaşma beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək: "Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək".

Bəli, Prezident İlham Əliyev özünün 44 günlük müharibədən sonra beynəlxalq siyasi terminologiyaya gətirdiyi "Zəngəzur dəhlizi" ifadəsinin dünyanın ictimai rəyində qəbul olunduğunu bilir və ona görə də dəhliz məntiqini irəli sürür. Nəzərə alaq ki, ölkəmizin liderinin nəinki hər fikri, hər sözü, hətta hər cümləsi, kifayət qədər, ölçülüb-biçilmiş məzmuna və dərin fiksasiya təbiətinə malikdir. Bunu Ermənistanda da gözəl anlayırlar. Anlayanların başında isə ölkənin hökumət rəhbəri, yəni birinci şəxsi Nikol Paşinyan dayanır.

* * *

Əlqərəz, N.Paşinyan bütün reallıqları yaxşı dərk etməsinə rəğmən, son günlər özünü, sözün əsl mənasında, güldürməklə məşğuldur. Onun Zəngəzur dəhlizi ilə bağlı həm BMT Baş Assambleyasının 80-ci sessiyasının tribunasından, ən başlıcası isə Avropa Şurası Parlament Assambleyası kluarlarında nələri bildirməsinə diqqət yetirəcək, erməni baş nazirin fikirləri xüsusunda bəzi xatırlatmalar edəcəyik.

Görünür, Paşinyanın yadına 44 günlük müharibəni, daha sonra lokal xarakterli antiterror tədbirlərini salmağa ehtiyac var. Nikol elə danışır, sanki, suveren Azərbaycan ərazisini nəzərdə tutaraq, "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verən o deyil, bir başqası idi. Paşinyan, AŞPA-da elə həyasızlıq qoparır ki, qıraqdan baxanlar onun komandasındakı şəxslərin vaxtilə "yeni ərazilər uğrunda yeni müharibələr" şüarını səsləndirdiklərini düşünməzlər. Necə deyərlər, oğru elə bağırır ki, doğrunun bağrı yarılır.

Ümumən, Paşinyanın mövqeyindən hasil olan qənaət budur ki, sanki qonşusunun ərazisinin 20 faizini işğal edən, bir milyondan çox azərbaycanlını qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum duruma salan, otuz ilə yaxın müddətdə işğalçılıqdan əl çəkməyən, yalnız "Dəmir yumruğ"un sayəsində məkrli niyyətindən daşınan hazırda rəhbərlik etdiyi ölkə deyilmiş. Beynəlxalq aləm nə qədər ədalətsiz və riyakar olsa da, bütün bunlardan çox yaxşı xəbərdardır.

O da bir faktdır ki, dünya, eyni zamanda, güclünün yanındadır və onun diktə etdiyi reallıqlarla barışır. Dünən Azərbaycan zəif idi, səsi eşidilmirdi, bu gün ölkəmiz qüdrətli və prinsiplərində qətidir. Təkcə Paşinyan və Ermənistan deyil, bütövlükdə dünya erməniliyi qulağında sırğa etsin ki, Azərbaycan açılan sabahların bütün gələcək günlərində güclü olacaq, heç bir halda təşəbbüsü əldən verməyəcək. Çünki zəifliyin cəzasını çox ağır çəkmişik...

Bəli, bütün bunlara görə N.Paşinyanın həm BMT, həm də AŞPA kürsüsündən Zəngəzur dəhlizini Ermənistana ərazi iddiası kimi qiymətləndirməsi, yumşaq desək, həyasızlıqdır. Nikol dünyanın Naxçıvana yola məhz dəhliz bucağından yanaşması reallığı ilə barışmalıdır. Axı adının nə qoyulmasından asılı olmayaraq, yekun nəticə dəyişmir. 44 günlük müharibəyə son qoyan, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda da Naxçıvana yolun maneəsizliyindən söz açılırdı, Vaşinqtonda ərsəyə gəlmiş 8 avqust 2025-ci il tarixli üçtərəfli Birgə Bəyannamədə də eyni məntiq qabardılır.

Paşinyan və erməni xalqı anlamalıdır ki, sözügedən məntiq hər şeydən əvvəl Ermənistanın illər ərzində Azərbaycan xalqının başına gətirdiyi olmazın əzab və əziyyətin, çoxsaylı məhrumiyyətlərin və faciələrin yalnız kiçik bir təzminatıdır. Bu təzminat vəlvələdən və ya zəlzələdən yaranmış Ermənistan adlı dövlətin ərazi bütövlüyünə və suverenliyinə toxunmursa, təkcə Nikol yox, dünyanın hər yerindəki ermənilər toy-bayram etməlidirlər. Çünki onlar müstəqil dövlətə layiq deyillər və bunu başqasının yox, elə Paşinyanın özünün daxili auditoriya qarşısındakı çıxışlarının məzmunundan görmək mümkündür. Yaxşı olar ki, baş nazir xaricdə də özünü daxildə psixi xəstəliklərlə mübarizə aparan həkim obrazında göstərsin. Siyasətçi kimi danışanda kənardan çox eybəcər görünür ki, eybəcər durumu



obrazlı şəkildə təsəvvürə gətirdik. Hələ başqa təsvirlərimiz də var...

* * *

N.Paşinyan Zəngəzur dəhlizi reallığına qarşı cəbhə açıb Ermənistan ərazisində bu adda inzibati ərazi vahidinin olmadığını bildirəndə də, hər bir dövlətin digər ölkənin ərazisindəki yer adlarına səlis yanaşmasının vacibliyini deyəndə də son dərəcə miskin görünür. Görəsən, o, çevrilib ölkəsinə baxmır? Ermənistanda yenə Qarabağımızı nəzərdə tutub "Artsax" hay-şivənləri qaldırılır. Bu gün də Ermənistanda Xankəndini "Stepanakert", Ağdərəni "Mardakert", Şuşanı "Şuşi", Laçını "Berdzor", Kəlbəcəri "Karvaçar", Xocalını "İvanyan", Ağdamı "Akna" adlandıran çaqqal sürüsü var və Nikol illərdir ki, o sürü ilə mübarizə aparmaq pozu verir.

Yeri gəlmişkən, hazırkı erməni iqtidarının zaman-zaman həmin sürünün direktivlərini özünün xarici siyasət prioritetinə çevirdiyini görmüşük. İndi Paşinyan AŞPA tribunasından sualları cavablandırarkən deyir ki, Qarabağ ermənilərinin geri qayıtması mümkünsüzdür və mövzu sülh prosesinə təhlükədir. Amma vaxt var idi, o və komandasının üzvləri Qarabağ erməniləri üçün beynəlxalq təminat "axtarışına" çıxmış, bu yolla ərazilərimizdəki separatçı qurumu qorumağa çalışmışdılar. "Dağlıq Qarabağın özünün seçkili hakimiyyəti var", - deyib sərsəmləyən də məhz Paşinyan olmuşdu.

2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonrakı durum da yaxşı xatirimizdədir. O zaman hakim erməni komandası istədi ki, beynəlxalq ictimaiyyət Qarabağ ermənilərinin təhlükəsiz geridönüşü məsələsinə köklənsin. Sual olunur: həmin ermənilər bölgəni nəyə görə, hansı səbəbə tərk etmişdilər? Axı Azərbaycan dövləti onların yaşamlarına ən yüksək səviyyədə təminat vermişdi. Cavab çox sadədir: Rəsmi İrəvanın və havadarlarının planına görə, Qarabağ ermənilərinin beynəlxalq təminat altındakı qayıdışı bölgə ilə bağlı avantürizmin ruhunu vurğulamalı, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirməli, konstitusion quruluşunu, faktiki olaraq, heçə saymalı idi.

Bəli, Paşinyanlı Ermənistan hakimiyyəti 2020-ci ilin müharibə rüsvayçılığından sonra məhz bunlar naminə çalışmış, istəmişdi ki, məğlubiyyətin erməni cəmiyyətində ona qazandırdığı antipatiyanı aradan qaldırsın. Yəni Nikol klassik hay düşüncə tərzinə uyğun davranmış, lakin istəyinə müvəffəq ola bilməmişdi. Hər halda, Prezident İlham Əliyev Ermənistanla real sülh danışıqlarının 2024-cü ildən başladığını təsadüfən bildirmir. Dövlətimizin başçısı vurğuladığımız məqamların dərinliklərinə çox yaxşı bələddir.

Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən cəmi 40 kilometrdən azca artıq məsafə var. Ölkəmiz istəsəydi, həmin ərazini ələ keçirə bilərdi. Bunu dövlətimizin başçısı da dəfələrlə vurğulayıb. Paşinyan gücümüzdən xəbərdardır. Ona bunu da deyək ki, Azərbaycan 44 günlük müharibədə aşkar üstünlüyə yiyələnəndə dünya ermənipərəstləri bizi işğalçı kimi qələmə vermişdilər. Axırı nə oldu? Heç nə. Zəngəzuru da ələ keçirsək, eyni durum yaranacaqdı. Beş-altı beynəlxalq siyasi dələduz boş-boş bəyanat verəcəkdi, vəssalam. Amma ölkəmiz buna getmədi və deməli, həm də erməni dövlətinin gələcək varlığına "yaşıl işıq" yandırdı. Paşinyan və digərləri durumu böyük lütf kimi qiymətləndirməlidirlər. Onlar qətiyyən unutmamalıdırlar ki, hansı adla, necə adlandırılmasından asılı olmayaraq bizim olan bizimdir.

* * *

Növbəti məqama keçid alaq. Bir qədər əvvəl AŞPA-da Nikola Qarabağ ermənilərinin geri qayıdış hüququ ilə bağlı sualın ünvanlandığını bildirdik. Sualı səsləndirən şəxs məsələnin üzərinə "Dağlıq Qarabağ" ifadəsini işlətməklə gəlmişdi. Paşinyan da cavabında "Dağlıq Qarabağ"a qayıdışın mümkünsüzlüyündən söz açmışdı. Yaxşı olar, ifadəsinə düzəliş etsin və anlasın ki, Azərbaycanda Dağlıq Qarabağ adlanan ərazi yoxdur.

Amma məqsədimiz Paşinyana və ona sual verən şəxsə nöqsan tutmaq deyil. Düşünək ki, uzun illər Dağlıq Qarabağ adlı münaqişə reallığı olub və istər-istəməz, dillərdə onunla bağlı ifadə qalıb. Həm də o səbəbdən qalıb ki, bu ifadə, mahiyyətcə, erməni işğalını leqallaşdırmaq niyyətinə söykənib. Azərbaycan 44 günlük müharibədəki Zəfəri ilə buna son qoydu.

Zəngəzur dəhlizi ifadəsi isə müharibədən sonra meydana məhz güclünün, eyni zamanda, ədalətli tərəfin haqqı timsalında çıxdı. Heç şübhəsiz, Ermənistan zamanında işğalçılıq yolu tutmasaydı və ölkəmizin Naxçıvana yolunu bağlamasaydı, indiki reallıq yaranmayacaqdı, üstəlik, Cənubi Qafqaz xalqların sülh içində dinc və birgə yaşadığı məkana çevriləcəkdi. Əlbəttə ki, qat-qat inkişaf etmiş rifah məkanına. O məkana ki, hazırkı siyasi və iqtisadi proqnozlarda onun gələcək strukturu barədə hələlik yalnız təsəvvürlər yaradılır.

* * *

Sonda onu deyək ki, Cənubi Qafqaz Ermənistanın təcavüzkar siyasətinə görə azı otuz il geri düşüb. 2020-ci ildən indiyədək isə gecikmənin səbəbi ölkənin hazırkı iqtidarıdır. Yaxşı olar, Paşinyan bunu düşünsün, əsl mahiyyətdən uzaqlaşmaq, özünü, guya, qətiyyətli və prinsipial göstərmək yerinə, Zəngəzur dəhlizinin, ona xoşdursa, "Tramp marşrutu"nun açılması istiqamətində üzərinə düşən öhdəliyi, Prezident İlham Əliyevin təbirincə desək, ev tapşırıqlarını tez bir zamanda yerinə yetirsin.

Ermənistan rəhbərliyi nəzərə alsın ki, Zəngəzur dəhlizi bir ifadə olaraq beynəlxalq ictimai rəydə özünə yer tapıbsa, deməli, dünya üçün Ermənistanın ərazi bütövlüyü və suverenliyi az maraqlıdır, nəinki dəhlizin işə düşməsi. Bu gün Zəngəzur dəhlizi ifadəsi xarici aləm tərəfindən qəbul olunursa, deməli, Naxçıvan qatarı artıq yola düşüb. Paşinyan orda-burda populist bəyanatlar verməklə, həmin qatarın çarxlarına çomaq salmağa çalışmasın və sanki məsxərə edirmiş kimi kimdənsə ona xəritədə Zəngəzur dəhlizini göstərməyi istəməsin. Nəhayət, Nikol əmin olsun ki, lazım gəlsə, ona yaşadığımız regionun daha dolğun xəritəsini böyük həvəslə göstərə bilərik. O xəritəni ki, orada Ermənistan adlı dövlət ya yoxdur, ya da indikindən qat-qat kiçikdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–İtaliya: strateji tərəfdaşlığın qlobal geosiyasi gözləntiləri

**Sentyabrın 30-da Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın mətbuata bəyanatlarla çıxış etməsi iki ölkə arasında münasibətlərin yalnız ikitərəfli deyil, həm də Avropa İttifaqı (Aİ) kontekstində yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Siyasi-analitik baxışla yanaşdıqda, bu bəyanatlar özündə həm enerji təhlükəsizliyi, həm də Avropa ilə əlaqələrin yeni məzmun qazanması baxımından mühüm siqnallar ehtiva edir.**



Azərbaycan–İtaliya münasibətləri son illər təkcə rəsmi protokollarla məhdudlaşmayan, eyni zamanda, praktiki əməkdaşlıqla dəstəklənən strateji tərəfdaşlığa çevrilib. İkitərəfli münasibətlərin institusional bazası rəsmi sənədlərdən və yüksəksəviyyəli qarşılıqlı səfərlərdən başlayaraq iqtisadi layihələrdə, enerji tədarük zəncirlərində və mədəni-humanitar sahədə müşahidə olunan gündəlik əməkdaşlığa qədər uzanır. Enerji istiqaməti, xüsusilə Azərbaycan qazının Avropaya istiqamətləndirilməsində oynadığı rol çərçivəsində, bu münasibətlərin ən aydın görünən sütunlarından biridir; TAP tranzit marşrutu vasitəsilə təmin olunan qaz axını İtaliyanın enerji təhlükəsizliyi gündəliyi ilə birbaşa bağlıdır. Eyni zamanda, ticarət və sərmayə sahəsindəki əlaqələr iqtisadi münasibətləri möhkəmləndirir və iki ölkə arasında uzunmüddətli əlaqələrin bazasını genişləndirir. Mədəni-humanitar əməkdaşlıq isə Azərbaycan mədəniyyətinin Avropada tanıdılması və qorunmasına İtaliyanın göstərdiyi dəstək kimi göstərilir.

Məhz bu kontekstdə ortaya çıxan siyasi-analitik sual belədir: Azərbaycanın İtaliya ilə tərəfdaşlığı əsasən enerji strukturlarına söykənirmi, yoxsa münasibətlər yeni sahələrə də genişlənməkdədir? Tarixi reallıq enerji faktorunun ilkin və həlledici rol oynadığını göstərsə də, son dövrdə əməkdaşlıq gündəliyi müdafiə sənayesi, "yaşıl enerji", texnologiya və təhsil kimi sahələrə doğru sürətlə diversifikasiya olunur. Prezidentlər səviyyəsində verilən bəyanatlar və qarşılıqlı niyyətlərin ifadəsi bu transformasiyanın siyasi iradəsini təsdiqləyir; yəni tərəfdaşlığa enerji ilə bağlı reallıqlar dayaq verir, lakin gələcəyə nəzərən tərəflərin məqsədi əməkdaşlığı çoxşaxəli etməkdir. Bu isə rəsmi sənədlərin və praktik mexanizmlərin həmin yeni sahələri də əhatə edəcək şəkildə yenidən tənzimlənməsini tələb edir.

* * *

Avropa İttifaqı ilə Azərbaycan münasibətlərinin inkişafında İtaliyanın oynadığı rol xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Roma bu münasibətlərdə "körpü ölkə" funksiyasını daşıyır və bu, təkcə enerji sahəsində deyil, diplomatik müstəvidə də özünü göstərir. Aİ-nin enerji təchizatını şaxələndirmək məqsədilə Cənubi Qafqaz regionuna diqqətini artırması fonunda Azərbaycanın Avropaya çıxışı üçün İtaliya ən əlverişli tərəfdaş sayılır. Brüssellə Bakı arasındakı enerji dialoqunun dərinləşməsi İtaliyanın vasitəçiliyi ilə daha institusional xarakter qazanır və bu, həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərdə sabitlik üçün zəmin yaradır.

Maraqlıdır, Aİ–Azərbaycan əlaqələrinin inkişafında İtaliyanın vasitəçi rolu gələcəkdə hansı siyasi nəticələr doğura bilər? Mövcud vəziyyət göstərir ki, İtaliyanın dəstəyi Azərbaycanın Aİ ilə daha sıx əməkdaşlığa inteqrasiyasını sürətləndirə bilər. Proses bir tərəfdən Azərbaycanın geosiyasi mövqeyini yüksəldərək onu Avropa enerji təhlükəsizliyi sisteminin mərkəzi oyunçularından birinə çevirəcək, digər tərəfdən isə Aİ üçün Rusiya və Yaxın Şərqdən asılılığın azaldılması baxımından strateji üstünlüklər təmin edəcək. Bununla yanaşı, bu əməkdaşlığın inkişafı Aİ üzvü digər ölkələrin mövqeyindən asılı olaraq müxtəlif balans dəyişiklikləri də doğura bilər. Xüsusilə, Ermənistan–Azərbaycan sülh prosesinə Avropa paytaxtlarının fərqli yanaşmaları bu inteqrasiyanın ritmini müəyyənləşdirən mühüm amillərdən biri olacaq. Beləliklə, İtaliyanın körpü rolunun davamlılığı yalnız Bakı–Roma münasibətlərinə deyil, həm də Cənubi Qafqazın siyasi sabitliyinə birbaşa təsir göstərəcək.

* * *

Azərbaycanın Avropa enerji sistemində oynadığı rol yalnız təbii qaz ixracatçısı olmaqla məhdudlaşmır, həm də regionun enerji xəritəsində strateji oyunçu statusunu möhkəmləndirir. İtaliya bu prosesdə həm istehlakçı, həm də tranzit qovşağı funksiyasını yerinə yetirərək xüsusi mövqe tutur. TAP layihəsi artıq göstərib ki, Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyində alternativ mənbə kimi əhəmiyyətlidir və xüsusən Ukrayna müharibəsindən sonra Aİ üçün Rusiya qazından asılılığı azaltmaq həyati prioritetə çevrilib. Belə bir şəraitdə Bakı–Roma enerji əməkdaşlığı strateji əhəmiyyət daşımaqla yanaşı, siyasi müstəvidə də Avropa ilə Azərbaycan arasında qarşılıqlı etimadın dərinləşməsinə xidmət edir.

Lakin enerji gündəmi təkcə karbohidrogenlərlə məhdudlaşmır. Aİ-nin "Yaşıl keçid" strategiyası fonunda Azərbaycanın Xəzər dənizindəki külək enerjisi potensialı diqqət mərkəzinə çevrilib. Bu sahədə artıq Avropanın bəzi şirkətləri ilə ilkin əməkdaşlıq müqavilələri imzalanıb və İtaliyanın da bu prosesdə maraqlı tərəf kimi çıxış etməsi təəccüblü deyil. Roma həm texnologiya, həm də investisiya baxımından Azərbaycana dəstək verə bilər. Əgər əvvəlki illərdə əsas diqqət qaz və neft kimi klassik resurslara yönəlmişdisə, indi gündəmin innovativ istiqamətləri – bərpaolunan enerji, "yaşıl hidrogen", enerji səmərəliliyi və infrastrukturun modernizasiyası – ön plana keçir. Burada sual yaranır ki, enerji əməkdaşlığının gələcəkdə əsas vektoru qaz olaraq qalacaq, yoxsa "yaşıl enerji" üstün mövqeyə sahib olacaq? Reallıq göstərir ki, qaz hələ uzun illər Avropanın enerji təhlükəsizliyinin əsas dayaqlarından biri olaraq qalacaq. Bu amil xüsusilə keçid mərhələsində vacibdir, çünki bərpaolunan mənbələr hələ tammiqyaslı, sabit enerji təminatını əvəzləyə bilmir. Bununla belə, Aİ-nin strateji məqsədləri və qlobal iqlim gündəliyi nəzərə alındıqda, Azərbaycan–İtaliya tərəfdaşlığı getdikcə daha çox "yaşıl enerji" yönümündə inkişaf edəcək. Beləliklə, əməkdaşlığın gələcəyi "ya qaz, ya da bərpaolunan enerji" dilemması ilə məhdudlaşmır; əksinə, paralel şəkildə həm klassik, həm də innovativ enerji istiqamətlərinin inkişafı nəzərdə tutulur. Bütün bu proseslər Azərbaycanın enerji ixracatçısı statusunu yalnız indiki dövr üçün deyil, həm də postkarbon dövründə Avropa üçün strateji tərəfdaşa çevrilməsinə imkan verəcək.

Əgər İtaliya bu prosesdə texnologiya və maliyyə dəstəyi ilə önə çıxarsa, Bakı–Roma əməkdaşlığı enerji təhlükəsizliyi sahəsində Avropa miqyasında nümunəvi model kimi formalaşa bilər. Həmin model həm Avropanın enerji şaxələndirilməsinə, həm də Azərbaycanın iqtisadi modernizasiyasına töhfə verəcək.

* * *

İtaliya Prezidentinin "Azərbaycan çox nüfuzlu tərəfdaşdır" fikri, sadəcə, diplomatik kompliment deyil, həm də Bakının beynəlxalq müstəvidə qəbul edilən statusunun təsdiqidir. Azərbaycan artıq təkcə enerji resursları ilə deyil, həm də regiondakı siyasi mövqeyi, tranzit imkanları və sülh təşəbbüsləri ilə diqqətçəkən güc mərkəzi kimi çıxış edir. Mövcud reallıq Cənubi Qafqazda siyasi balansın dəyişməsinə birbaşa təsir göstərir. Aİ–Azərbaycan münasibətlərinin güclənməsi isə bu təsirin çoxşaxəli xarakter almasına gətirib çıxarır.

Öncə nəzərə almaq lazımdır ki, Azərbaycan–Aİ yaxınlaşması Türkiyə–Azərbaycan tandeminə əlavə diplomatik güc qazandırır. Avropa üçün enerji və təhlükəsizlik baxımından etibarlı tərəfdaş olan Bakı ilə Ankaranın ortaq mövqeləri daha aydın görünür və bu sinerji regionda yeni geosiyasi balans yaradır. Əgər əvvəllər Aİ Cənubi Qafqaz məsələlərində daha çox neytral vasitəçi rolunu oynamağa çalışırdısa, indi Azərbaycan–Türkiyə xəttinin Brüssellə strateji əməkdaşlıq müstəvisinə çıxması Avropanın mövqeyini də dəyişdirə bilər.

Ermənistan üçün isə bu proses ciddi strateji çağırışlar doğurur. Avropa ilə münasibətlərində manevr imkanları daralır, çünki Brüsselin Bakı ilə əlaqələrinin güclənməsi İrəvanın diplomatik şəbəkəsini məhdudlaşdırır. Ermənistan Avropa institutlarında Azərbaycanla bağlı qərarların əleyhinə çıxmaqda çətinlik çəkəcək, çünki Avropanın enerji təhlükəsizliyi maraqları fonunda Bakı ilə əməkdaşlıq strateji prioritetə çevrilib. Mövcud durum Ermənistanın öz mövqelərini müdafiə edərkən balanslı siyasət yürütməsini zəruri edir. Gürcüstan



üçün isə tam əksinə, yeni imkanlar açılır. Azərbaycan–İtaliya–Aİ xətti Tbilisinin regional tranzit layihələrində mövqeyini gücləndirə bilər. Bakı–Roma əməkdaşlığının enerji və infrastruktur layihələrinə təsiri Gürcüstanı logistika və kommunikasiya baxımından mühüm tərəfdaşa çevirəcək.

Azərbaycanın Aİ ilə əməkdaşlığının güclənməsi Cənubi Qafqazda yeni siyasi balans formalaşdırır. Bu bir tərəfdən Türkiyə–Azərbaycan tandemini regiondakı əsas güc mərkəzinə çevirir, digər tərəfdən isə Ermənistanın diplomatik imkanlarını məhdudlaşdırır. Gürcüstan bu reallıqdan iqtisadi və siyasi dividendlər qazana bilər. Beləliklə, Prezident İlham Əliyev və Prezident Sercio Mattarellanın bəyanatları göstərir ki, Azərbaycan–İtaliya münasibətləri artıq yalnız ikitərəfli gündəmlə məhdudlaşmır. Strateji tərəfdaşlıq modelindən çıxış edərək Azərbaycan özünü Avropa ilə inteqrasiyada etibarlı oyunçu, İtaliya isə körpü rolunda təsdiqləyir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Enerji əməkdaşlığından təhsil layihəsinə

## *Azərbaycanın İtaliya ilə münasibətlərində humanitar istiqamət*

**Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın yeni üfüqlərini müəyyənləşdirən İtaliya–Azərbaycan Universitetinin təsis edilməsi dövlətlərarası münasibətlərin klassik çərçivələrini aşaraq intellektual və mədəni müstəvidə dərin inteqrasiyanın təməl daşına çevrildi. Prezident İlham Əliyevin bir gün əvvəl İtaliya–Azərbaycan Universitetinin açılışını qeyd edəcəklərini vurğulaması və bu hadisənin iki ölkə arasındakı səmimi münasibətlərin təzahürü olduğunu bildirməsi əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının göstəricisidir.**

Dövlət başçısının qeyd etdiyi kimi, energetika və sənaye sahələrindəki uğurlu əlaqələr humanitar sahədə əməkdaşlığa yol açmış, nəticədə yüzlərlə tələbənin təhsil aldığı möhtəşəm elm ocağının yaranmasına səbəb olmuşdur. Bu təhsil ocağında biliklərə yiyələnən gənclərin İtaliyanın Azərbaycandakı, Azərbaycanın İtaliyadakı səfirlərinə çevriləcəkləri, dostluq münasibətlərini daha da gücləndirəcəkləri fikri layihənin dərin strateji və mədəni diplomatiya hədəfləri daşıdığını ortaya qoyur.

Prezident Sercio Mattarellanın İtaliya–Azərbaycan Universitetinin tələbə kampusunun açılışının iki ölkə universitetləri arasında əməkdaşlığın bariz nümunəsi olacağını təsdiqləməsi təşəbbüsün qarşılıqlı etimad və ortaq gələcək vizyonu üzərində qurulduğunu göstərir. Beləliklə, sözügedən universitet Azərbaycanın Avropa məkanına intellektual inteqrasiyasının, qlobal elmi-təhsil şəbəkəsinin fəal iştirakçısına çevrilməsinin və dövlətlərarası münasibətlərdə insan kapitalını təməl dəyər kimi önə çəkən müasir yanaşmanın parlaq simvoludur.

İki dövlət arasında münasibətlərin tarixinə nəzər saldıqda əlaqələrin əsasən enerji sektoru üzərində formalaşdığı müşahidə olunur. Trans-Adriatik Boru Kəməri (TAP) kimi nəhəng layihələr İtaliyanı Azərbaycanın Avropadakı əsas ticarət tərəfdaşlarından və enerji təhlükəsizliyi sahəsində mühüm müttəfiqlərindən edib. Amma müasir dünya nizamı və dövlətlərarası münasibətlərin təkamülü göstərir ki, yalnız iqtisadi və enerji əlaqələrinə söykənən tərəfdaşlıqlar uzunmüddətli perspektivdə dayanıqlı olmaya bilər. Strateji tərəfdaşlığın dərinliyi və möhkəmliyi onun humanitar, mədəni, xüsusilə də elmi-təhsil sahələrini nə dərəcədə əhatə etməsi ilə ölçülür. Məhz bu kontekstdə İtaliya–Azərbaycan Universitetinin yaradılması təşəbbüsü iki ölkə liderlərinin uzaqgörən siyasətinin, münasibətləri şaxələndirmək, onların təməllərini daha da möhkəmləndirmək iradəsinin məntiqi nəticəsidir.

Universitetin təsis edilməsi ideyasının məhz Prezident İlham Əliyevin 2020-ci ildə İtaliya Respublikasına dövlət səfəri zamanı əldə olunmuş razılıq əsasında yaranması layihənin ən yüksək səviyyədə dəstəkləndiyini və onun strateji əhəmiyyətini göstərir. 2022-ci ilin aprel ayında Bakıda ADA Universiteti kampusunda təməlqoyma mərasiminin keçirilməsi layihənin reallaşdırılması istiqamətində qətiyyətli addım idi. Prezident İlham Əliyevin "energetika, sənaye sahəsindəki əməkdaşlıq humanitar sahədəki əməkdaşlığa da yol açdı" ifadəsi transformasiyanın fəlsəfəsini dəqiq ifadə edir. İqtisadi əməkdaşlığın yaratdığı maddi rifah və qarşılıqlı etimad daha ali dəyərlərin – bilik, mədəniyyət və innovasiyanın mübadiləsi üçün zəmin hazırlamışdır.

İtaliya–Azərbaycan Universitetinin fəaliyyət modeli akademik tərəfdaşlığın unikal və nümunəvi formasıdır. Bu, xarici universitetin Azərbaycanda, sadəcə, filialının açılması deyil, İtaliyanın beş aparıcı ali təhsil ocağının – Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universitetinin intellektual potensialını vahid platformada birləşdirən çoxşaxəli əməkdaşlıqdır.

* * *

Sentyabrın 1-də Romada ADA Universiteti ilə həmin ali təhsil müəssisələri arasında akademik əməkdaşlığa dair sazişlərin imzalanması əməkdaşlığın hüquqi



əsaslarını rəsmiləşdirdi. Tərəfdaş seçimi təsadüfi deyil və hər universitetin cəlb edilməsi, Azərbaycanın strateji inkişaf prioritetləri ilə birbaşa əlaqəlidir. Məsələn, Avropanın ən qədim universiteti olan və aqrar elmlər sahəsində dərin ənənəyə malik Bolonya Universitetinin təcrübəsi Azərbaycanın kənd təsərrüfatını modernləşdirmək, qida təhlükəsizliyini təmin etmək hədəflərinə tam uyğundur. Milan və Turin Politexnik universitetləri mühəndislik, memarlıq, dizayn və şəhərsalma sahələrində dünyanın liderlərindəndir. Bu universitetlərin təcrübəsinin Azərbaycana gətirilməsi, xüsusilə Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması prosesində müstəsna əhəmiyyət kəsb edir. İtaliya–Azərbaycan Universiteti məhz bu zərurətdən irəli gələn tələbatı ödəmək üçün nəzərdə tutulub. Luiss Universiteti ilə birlikdə tədris olunan "Qlobal idarəçilik və siyasət" magistr proqramı, Azərbaycanın artan beynəlxalq nüfuzuna və aktiv xarici siyasətinə cavab verən diplomatların və dövlət qulluqçularının yeni nəslinin hazırlanmasında mühüm rol oynayır. Romanın Sapienza Universitetinin humanitar və sosial elmlər sahəsindəki təcrübəsi isə təklif olunan proqramların akademik dərinliyini və fənlərarası xarakterini təmin edir.

Prezident İlham Əliyevin universitet məzunlarının iki ölkə arasında "elçilərə" çevriləcəyi barədə dərin məzmunlu fikri layihənin humanitar və mədəni diplomatiya aspektlərini ön plana çəkir. Universitet, sadəcə, bilik və texnologiya transferi platforması deyil, eyni zamanda, mədəniyyətlərin dialoqu və qarşılıqlı anlaşmanın dərinləşdiyi canlı orqanizmdir. Burada təhsil alan tələbələr italyan akademik mühitinə, tədris metodologiyasına, elmi düşüncə tərzinə bələd olmaqla yanaşı, İtaliya mədəniyyətinin, tarixinin və dəyərlərinin daşıyıcılarına çevrilirlər. Onlar Azərbaycan reallıqlarını və milli kimliyini dərindən bilən, eyni zamanda, Avropa sivilizasiyasının fundamental prinsiplərinə yiyələnmiş yeni tipli mütəxəssislər kimi formalaşırlar. Bu proses ikitərəflidir. Azərbaycanda fəaliyyət göstərən italyan professorlar və mütəxəssislər də öz növbəsində Azərbaycan mədəniyyəti, tarixi və müasir inkişafı ilə yaxından tanış olur, ölkəmiz haqqında dolğun və obyektiv bilikləri İtaliya cəmiyyətinə çatdırırlar. Nəticədə, xalqlar arasında stereotiplərdən uzaq, qarşılıqlı hörmətə və səmimi marağa əsaslanan canlı körpü yaranır.

Prezident Sercio Mattarellanın Azərbaycana səfəri çərçivəsində İtaliya–Azərbaycan Universitetinin tələbə kampusunun açılışı layihənin inkişafında mühüm mərhələnin başlanğıcıdır. Bu hadisə, təkcə rəmzi məna daşımır, həm də universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və onun tam gücü ilə fəaliyyətə başlaması üçün fiziki şəraitin yaradılması deməkdir. Müasir tələblərə cavab verən yeni binaların, laboratoriyaların, tədris otaqlarının və sosial infrastrukturun istifadəyə verilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi və tələbələrin hərtərəfli inkişafı üçün zəruri olan innovativ mühitin formalaşdırılmasına imkan verəcək. İki dövlət başçısının açılış mərasimində birgə iştirakı, bu təhsil ocağının hər iki ölkə üçün nə qədər yüksək prioritet olduğunu bütün dünyaya nümayiş etdirir. Yeni kampus iki ölkə arasında dostluğun və elmi əməkdaşlığın fiziki təcəssümüdür. Onun memarlıq həlli, funksionallığı və təchizatı gələcəyə yönəlmiş baxışın və yüksək standartlara sadiqliyin ifadəsi olacaq. Kampusun yaradılması tərəflərin layihəyə uzunmüddətli yanaşdığını və onun gələcək inkişafı üçün bütün zəruri resursları səfərbər etməyə hazır olduqlarını göstərir.

İtaliya–Azərbaycan Universitetinin təsisi iki dövlət arasında tarixi hadisə və strateji tərəfdaşlığın zirvəsi kimi qiymətləndirilməlidir. Əslində, bu, strateji iradənin, elm və dostluğun möhkəm təməli deməkdir. Prezident İlham Əliyev və Prezident Sercio Mattarellanın bu təşəbbüsə verdikləri yüksək dəyər və onun reallaşmasına göstərdikləri siyasi iradə layihənin iki ölkə üçün fundamental əhəmiyyətini ortaya qoyur. Tələbə kampusunun açılışı ilə yeni mərhələyə qədəm qoyan İtaliya–Azərbaycan Universiteti iki ölkənin ortaq dəyərlər, qarşılıqlı etimad və aydın gələcək vizyonu üzərində qurduqları hərtərəfli strateji tərəfdaşlığın ən parlaq və davamlı nümunəsi olaraq tarixə düşəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Gürcüstan bələdiyyə seçkilərinə milli maraqlara sədaqət və inamla gedir

## *Xalqın iradəsi taleyüklü seçimə legitimlik qazandıracaq*

**Gürcüstanda oktyabrın 4-də keçiriləcək yerli özünüidarəetmə seçkiləri öncəsi siyasi mühitdə iqtidarın üstünlüyü və müxalifətin zəifliyi aşkar hiss olunur. Bu seçkilərdə həm şəhər və rayon merləri, həm də yerli məclislər – sakrebulolar formalaşdırılacaq. Seçkilərə iki gün qalmasına baxmayaraq, müxalifət düşərgəsində ciddi hazırlıq və fəallıq müşahidə edilmir. Onların regionlarda, demək olar ki, görünməməsi, əsasən böyük şəhərlərə fokuslanması iqtidardakı “Gürcü arzusu”nun mövqeyini gücləndirir. Bu səbəbdən hakim partiya 64 bələdiyyənin hamısında həm mer, həm də bələdiyyə şurası seçkilərində qalib gələcəyinə inanır.**



Seçkiləri iqtidarın qazanacağını keçirilən ictimai rəy sorğuları da təsdiqləyir. “İmedi” telekanalının sifarişi ilə GORBI təşkilatının keçirdiyi sorğuya əsasən, respondentlərin 66,4 faizi “Gürcü arzusu”nu dəstəklədiyini bildirib. Digər partiyalar arasında “Lelo – güclü Gürcüstan” 10,3, “Qirchi” 9,3, “Gaxaria – Gürcüstan naminə” isə 8,7 faiz səviyyəsində dəstək qazanıb. Tbilisi üzrə nəticələr də iqtidarın açıq üstünlüyünü göstərir. Paytaxtda “Gürcü arzusu” partiyasını respondentlərin 59,1 faizi dəstəkləyib.



Onu da qeyd edək ki, builki seçkilər bir sıra səciyyəvi cəhətləri ilə əvvəlkilərdən fərqlənir. Diqqətçəkən məqam beynəlxalq və yerli müşahidə missiyalarının sayının azalmasıdır. Gürcüstan hakimiyyəti bu prosesi təsadüfi saymır və bunu ölkəyə qarşı son dövrlər artan xarici siyasi təzyiqlərlə əlaqələndirir. Hakimiyyət bildirir ki, Gürcüstan müstəqil dövlət olaraq, daxili siyasi prosesləri xarici müdaxilədən uzaq şəkildə həyata keçirmək hüququna malikdir. Bu çərçivədə qəbul edilən qanunvericilik islahatları, xüsusilə də xarici təsirin şəffaflığını artırmaq məqsədi daşıyan təşəbbüslər bəzi dairələr tərəfindən qərəzli yanaşmalarla qarşılanıb. Rəsmi Tbilisi dəfələrlə bəyan edib ki, bu addımlar beynəlxalq tərəfdaşlara qarşı deyil, məhz cəmiyyətin maraqlarını qorumağa və dövlətin suverenliyini təmin etməyə yönəlib.

Məhz bu siyasi kontekstdə bəzi beynəlxalq təşkilatların seçkilərə müşahidəçi göndərməkdən imtina etməsi və ya iştirakını məhdudlaşdırması Gürcüstan hakimiyyəti tərəfindən təəssüf hissi ilə qarşılanır. Bu, həm də Qərbin müəyyən dairələrinin obyektivlik prinsipindən uzaqlaşaraq, daxildəki müxalif qruplara üstünlük verməsi kimi qiymətləndirilir.

Gürcüstan Mərkəzi Seçki Komissiyasından (MSK) aldığımız rəsmi məlumata əsasən, bu günədək 29 beynəlxalq təşkilatdan 80, 23 yerli təşkilatdan 7 min 895 müşahidəçi qeydə alınıb. Müqayisə üçün qeyd edək ki, əvvəlki illərdə bu rəqəmlər həm say, həm də müşahidəçi təşkilatların nüfuzu baxımından çox yüksək idi. Ənənəvi olaraq Gürcüstanda seçkiləri izləyən Avropa İttifaqı ölkələrinin səfirlikləri, İsveçrə və Macarıstan istisna olmaqla, bu dəfə, ümumiyyətlə, müşahidəçi kimi qeydiyyatdan keçməkdən imtina ediblər. ABŞ səfirliyi də bu il seçkiləri müşahidə etməyəcək. Halbuki, 1990-cı illərdən bəri Gürcüstanda bütün seçkilərdə aktiv iştirak edib. Bu tendensiya təkcə diplomatik nümayəndəliklərlə məhdudlaşmır. Həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutu, Milli Demokratiya İnstitutu və Avropa Parlamenti də seçkilərə müşahidəçi göndərməkdən imtina ediblər.

* * *

Gürcüstan MSK-dan aldığımız məlumatda o da bildirilib ki, oktyabrın 4-də 3 min 61 seçki məntəqəsi fəaliyyət göstərəcək, o cümlədən Gürcüstan həbsxanalarında 10 məntəqə açılacaq.

**“Gürcü arzusu” Partiyasından deputat David Şerazadişvili** XQ-yə bildirdi ki, Gürcüstanda seçkilər hər zaman şəffaflıq, qanunçuluq və ictimai iştirakçılıq prinsipləri əsasında keçirilib



və bu dəfə də istisna olmayacaq: “Müşahidəçilərin sayının azalması seçkilərin legitimliyinə təsir göstərə bilməz, çünki legitimliyin əsas mənbəyi xalqın iradəsidir. Gürcüstan dövləti, bütün təzyiqlərə baxmayaraq, öz yolundan dönməyəcək və milli maraqlarını qətiyyətlə müdafiə edəcək.

Radikal müxalifət partiyaları çox təhlükəli oyun oynayır, Qərbin tapşırıqlarını yerinə yetirərək Gürcüstanda qarışıqlıq yaratmağa çalışırlar. Müxalifət ölkəni fəlakətə – müharibəyə sürükləyir, milli dəyərlərimizi ayaqlar altına atmaq istəyir. Biz artıq bir dəfə müharibənin acı nəticəsini yaşamışıq, LGBT kimi ailə dəyərlərimizi sarsıdan yolla gedə bilmərik. Partiyamız seçdiyi yoldan dönmək niyyətində deyil. Qərbin neqativ reaksiyasına baxmayaraq, yolumuza davam edəcəyik. Bizim haqlı olduğumuzu yerli özünüidarəetmə orqanlarına seçkilərin nəticələri göstərəcək. Qalib gələcəyimizə tamamilə əminəm”.

Gürcü deputat onu da qeyd etdi ki, bu seçkilərin əsas özəlliklərindən biri hər bir rayonda ayrıca keçirilməsi və nəticələrin lokal səviyyədə formalaşmasıdır: “Müxalifətin regionlarda fəaliyyəti nəzərə çarpmır, seçiciləri qane edəcək təbliğatı da yoxdur. Ümumiyyətlə, nə istədikləri də bəlli deyil; təbliğat aparmamaları, yerli əhali ilə əlaqələrin zəifliyi və konkret problemlərlə bağlı proqramlar təqdim etməmələri onların yerlərdə seçicilərin səslərini qazanmaq imkanlarını məhdudlaşdırır. Mən parlamentə azərbaycanların kompakt yaşadığı Bolnisi rayonundan deputat seçilmişəm. Rayonun özündə və kəndlərində sosial-iqtisadi sahədə bir çox layihələr həyata keçirmişik. Gördüyümüz işlər göz qabağındadır. Seçicilər, əlbəttə ki, bizə səs verəcəklər. İnanıram ki, 64 bələdiyyənin hamısında həm mer, həm də bələdiyyə şurası seçkilərini asanlıqla qazanacağıq. İri şəhərlərdə səsləri biz qazanacağıq. Buna heç kimin şübhəsi olmasın”.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Tutduğunu buraxmayan siyasi korafəhm Oskanyan

## *Ermənistanın keçmiş xarici işlər naziri sülh prosesinə əngəl olmaqdan əl çəkmir*

**O, artıq xeyli vaxtdır ki, sülh prosesinə etimadı sarsıdan açıqlamaları ilə revanşistlər cərgəsinin ön sırasına keçib. Diplomatik karyerası boyunca destruktiv bəyanatları ilə tanınan Vardan Oskanyan indiki çıxışları ilə də həmin dəst-xətti davam etdirir, gərginliyi alovlandırır. Onun hökumətə qarşı ittiham dolu çıxışları Ermənistan daxilində radikal mövqeləri gücləndirir və sülh gündəliyinə mane olur. Oskanyanın son bəyanatları həm Ermənistan–Azərbaycan münasibətlərinə, həm də regiondakı sülh təşəbbüslərinə kölgə salır. Onun çıxışları revanşist dairələr üçün stimul rolunu oynayaraq cəmiyyətdə etimadsızlıq mühitini dərinləşdirir.**



V.Oskanyanın təxribatçı çıxışlarını izlədikdə əmin olursan ki, bu adamın regionda yaranmış yeni reallıqlardan xəbəri yoxdur. Yaxud da onları qəbul etmək istəmir. Onun özünü hələ də xarici işlər naziri kimi aparması istehza və acı gülüş doğurur. Bu xüsusda ritorikası da diqqət çəkir. Oskanyan keçmiş münaqişə ilə bağlı 1990-cı illərin sonları, 2000-ci illərin əvvəlləri işlədilən siyasi ritorikadan istifadə edir. Bu nüans diqqətdən yayınmır.

Keçmiş nazir iki gün öncə “Facebook” sosial şəbəkəsindəki hesabında yazıb ki, ermənilərin Qarabağa qayıtması məsələsi beynəlxalq gündəmdə qalmaqdadır. O xatırladıb ki, sentyabrın 29-da konqresmen Frenk Pallone özünün “Facebook” səhifəsində ABŞ Dövlət katibi Marko Rubionun təxminən 90 Konqres üzvünün məktubuna cavab verərək Qarabağdakı ermənilərin repatriasiyası hüququ və bölgədəki “erməni xristian irsi”nin qorunması məsələsinin həllinə sadiq olduğunu bildirib: “Bu məsələlər Ermənistan və Azərbaycan arasındakı münaqişənin (?) ədalətli həllinin əsasını təşkil etməlidir. Bu dönüş nöqtəsi Amerika Erməni Milli Komitəsinin, “Qarabağ xalqı”nın (?) hüquqlarını müdafiə edən qrupun, eləcə də Amerikadakı erməni icmasının müttəfiqlərinin israrlı səylərinin nəticəsidir. Bakının inkarı və İrəvanın susqunluğu fonunda ABŞ bu prinsipi rəsmi şəkildə dilə gətirir, indi söhbət onları həyata keçirməkdən gedir”.

Eyni zamanda, o əlavə edib ki, İsveçrə parlamentinin iki üzvü – Erix Fontobel və Nikolas Valder İsveçrə sülh təşəbbüsünü (?) təşviq etmək məqsədilə BMT İnsan Hüquqları Şurasının himayəsi altında Beynəlxalq Xristian Həmrəyliyi təşkilatının təşkil etdiyi tədbirdə iştirak ediblər. Oskanyan yenə də köhnə əyyamlara qayıdaraq deyib ki, indi İsveçrə Azərbaycan və “Qarabağdan olan nümayəndələrin” (?) iştirakı ilə sülh forumu keçirməlidir ki, “məcburi köçkün” ermənilərin kollektiv və təhlükəsiz geri qayıtması ilə bağlı danışıqlar aparılsın. Keçmiş XİN başçısı əlavə edib ki, separatçı rejimin “ombudsmanı” Artak Beqlaryan və Beynəlxalq Dövlət Hüquqş və Siyasət Qrupunun sədri Pol Uilyams da bu təşəbbüsə qoşulub.

* * *

V.Oskanyanın yazdığı fikirlər sülh prosesinə xələl gətirən, regionda sabitlik və əməkdaşlıq üçün yaradılmış yeni mühitə kölgə salan bir bəyanatdır. Oskanyan hələ də özünü Ermənistan xarici siyasətinin memarı kimi aparır, halbuki o dövr çoxdan bitib, Ermənistanın siyasi kursu dəyişib və reallıqlar tamam fərqlidir.

Keçmiş nazirin ABŞ Konqresindəki bəzi ermənipərəst dairələrin açıqlamalarına söykənərək Qarabağ ermənilərinin qayıdışı məsələsini gündəmə gətirməsi həm qeyri-ciddilik, həm də məqsədli şəkildə gərginlik yaratmaq cəhdidir. Oskanyan bilməmiş deyil ki, Qarabağ münaqişəsi artıq tarixə qovuşub, müharibə çoxdan bitib və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bütün dünya, o cümlədən Ermənistan tərəfindən tanınıb. Bu səbəbdən, separatçı qüvvələrin yenidən canlandırılması və ya onların “kollektiv geridönüşü” barədə danışmaq həm hüquqi, həm də siyasi baxımdan absurddur.

Oskanyanın bəyanatında diqqəti cəlb edən digər məqam onun İsveçrənin “sülh təşəbbüsü” adı altında keçmiş separatçı qüvvələrə siyasi tribuna yaratmaq cəhdinə açıq dəstək verməsidir. Vardan bu davranışı ilə bir daha sübut edir ki, regionda yaranmış yeni əməkdaşlıq imkanlarından və sülh gündəmindən narahatdır. Onun hələ də keçmiş separatçı rejimin “ombudsmanı” və müxtəlif lobbi qruplarının nümayəndələrinə istinad etməsi faktiki olaraq sülhə qarşı yönəlmiş siyasi sabotajdır. Ən əsası isə Oskanyan keçmişdə ilişib qalıb. O, hələ də 1990–2000-ci illərin uğursuz diplomatiyasının dili ilə danışır, erməni cəmiyyətinə yanlış ümidlər aşılayır. Bu gün nə İsveçrədəki deputatların, nə də ABŞ-dakı ermənipərəst konqresmenlərin təşəbbüsləri keçmiş status-kvonu bərpa edə bilməz. Reallıq odur ki, Qarabağ Azərbaycan ərazisidir, separatçı qurum isə 2023-cü ildə tamamilə ləğv olunub. Qarabağdan köçmüş ermənilərin kütləvi şəkildə geri qayıtması nə gündəmdədir, nə də bölgənin gələcəyi üçün məqbul seçim sayılır. Oskanyanın bu həqiqətləri qəbul etməməsi hələ də siyasi revanşizm sindromundan xilas ola bilmədiyini göstərir.

Onun paylaşımındakı ən təhlükəli məqam isə beynəlxalq dairələrdə yenidən “erməni xristian irsi” kimi dini motivləri önə çəkməsidir. Bu, həm regionda mövcud olan etnik-dini harmoniyanı pozmağa yönəlmiş addımdır, həm də Ermənistanın illərlə apardığı təbliğatın köhnə ssenarisinin davamıdır. Məlum yanaşma keçmişdə qalan ritorikanın bərpasına xidmət edir və sülh prosesinə mənfi təsir göstərir.

Onu da bildirək ki, Ermənistan rəhbərliyi bu gün regionda nəqliyyat kommunikasiyalarının açılması, sülh sazişinin imzalanması və iqtisadi inteqrasiyanın vacibliyini qəbul edir. Münaqişədən sonrakı dövrdə iki ölkə arasında imzalanmış heç bir rəsmi sənəddə ermənilərin işğaldan azad edilmiş Azərbaycan ərazilərinə qayıtması barədə heç bir qeyd yoxdur. Avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə paraflanmış sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişdə də ermənilərin Qarabağa “qayıdış hüququ”ndan bəhs edilmir. Beləliklə, bu məsələdə ABŞ Dövlət Departamentinə və ya hər hansı digər ölkəyə müraciət etmək hoqqabazlıqdan başqa bir şey deyil.

Onu da qeyd etmək lazımdır ki, Oskanyan öz bəyanatları ilə həm Nikol Paşinyan hökumətinə, həm də ümumilikdə Ermənistanın gələcəyinə zərbə vurur. Paşinyan özü sentyabrın 30-da Avropa Şurası Parlament Assambleyasında çıxışı zamanı Qarabağdan könüllü köç etmiş ermənilərlə bağlı məsələyə toxunub. O, Ermənistan hökumətinin bu məsələyə yanaşmasını təqdim edib. Paşinyan bəyan edib ki, Qarabağdan getmiş şəxslər Ermənistan hakimiyyəti və beynəlxalq ictimaiyyətin dəstəyi ilə Ermənistan Respublikasına yerləşdirilməlidir: “Biz artıq onların mənzillə təmin edilməsi proqramına başlamışıq, hazırda bu proqram problemlidir, lakin əminəm ki, o, effektiv olacaq. Biz Qarabağdan olan soydaşlarımızın Ermənistan vətəndaşlığı ilə gələcəyini nəzərdə tuturuq”.

Paşinyan ermənilərin Qarabağa qayıtmasının mümkünlüyü məsələsinə də toxunub: “Açığı deyim ki, mən bunu real hesab etmirəm. Üstəlik, bunu insanlara səmimi şəkildə deməyə böyük əhəmiyyət verirəm ki, onlar öz perspektivlərini və planlarını qura bilsinlər. Bu kontekstdə “qaçqınların” geri qayıtması məsələsini sülh prosesi üçün təhlükəli hesab edirəm”.

Bu bəyanat göstərir ki, Ermənistan hökuməti regiondakı yeni reallıqları qəbul edib və praktiki həll yollarına üstünlük verir. Oskanyanın mövqeyi isə əksinə, Ermənistan hökumətinin rəsmi mövqeyi ilə tam ziddiyyət təşkil edir. Sabiq nazirin əsassız bəyanatlarla çıxış etməsi həm Paşinyan hökumətinin mövqeyini zəiflədir, həm də cəmiyyətdə çaşqınlıq yaradır. Beləliklə, Oskanyanın yanaşması sülh gündəminə və Ermənistanın gələcəyinə açıq-aşkar zərbə vurur.

**Politoloq İlqar Vəlizadə** də XQ-yə bildirdi ki, Oskanyanın açıqlamaları, əs-



lində, Ermənistan cəmiyyətini yanlış istiqamətə yönəltmək cəhdidir: “O, hələ də beynəlxalq aləmdə Qarabağ məsələsini gündəmdə saxlamağa çalışır, halbuki bunun siyasi və hüquqi əsası qalmayıb. Oskanyan keçmiş diplomatik postunun verdiyi səlahiyyətlərlə danışırmış kimi çıxış edir, lakin bugünkü reallıqlar tamam fərqlidir. Ermənistan hökumətinin özü etiraf edir ki, Qarabağdan köçənlər üçün perspektiv yalnız Ermənistan daxilindədir və onların geridönüşü mümkün deyil. Bu, Paşinyanın AŞPA-da verdiyi bəyanatla da təsdiqləndi. Oskanyanın irəli sürdüyü fikirlər həm strateji kursa ziddir, həm də sülh prosesinə mane olur”.

Ekspert bildirdi ki, üstəlik, Oskanyanın keçmiş separatçı rejimin simalarını prosesə cəlb etmək cəhdi artıq bağlanmış səhifəni yenidən açmaq cəhdidir: “Ermənistan üçün indi əsas prioritet yeni reallıqları qəbul edib iqtisadi və sosial islahatlara yönəlməkdir. Keçmişin xülyaları ilə yaşamaq nə cəmiyyətə, nə də regiona fayda verəcək. Oskanyanın bu davranışı daha çox şəxsi ambisiyalarının ifadəsidir”.

*Səxavət HƏMİD*
*XQ*

# Prezident İlham Əliyevin yeni konseptual tezisləri




## I MƏQALƏ

### Təcavüz, işğal və ədalətsizlik faciələri

Azərbaycan müstəqilliyini əldə edəndən sonra ona qarşı o dərəcədə haqsızlıq və ədalətsizlik olmuşdur ki, xüsusi tədqiq edilməlidir. Ulu öndər Heydər Əliyev və onun siyasi varisi Prezident İlham Əliyev fəaliyyətlərində daim bu məqamı ayrıca vurğulamışlar. Müxtəlif beynəlxalq tədbirlərdə rəsmi Bakı həqiqəti anlatmağa çalışmış və beynəlxalq hüququn normalarına əməl etməyə səsləmişdir.

Lakin çox təəssüf ki, uzun illər Azərbaycan rəhbərliyinin bu haqlı tələblərinə diqqət edilməmişdir. Buna görə də Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında yüksək tribunadan "uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam" fikrini bəyan etməsi heç də uğurlu bir liderin özünüifadəsi və ya nüfuzlu bir tədbirdə daha məntiqi görünmək istəyi deyildir. Bu fikir Azərbaycan Respublikasının dövlət kimi müasir müstəqillik tarixinin mühüm məqamıdır. Dövlət başçısı onu məharətli diplomatik tezislə yığcam və dərsverici tonda ifadə etmişdir. Bu tezisin məna çalarları çoxdur.

Azərbaycan Prezidenti hər şeydən öncə vurğulayır ki, fəaliyyətində həmişə təcavüzə, işğala və ədalətsizliyə qarşı mübarizəni ön sırada tutmuşdur. Təbii ki, bu kontekstdə Azərbaycan rəhbərliyi üçün ölkəmizə qarşı olan təcavüz, işğal və ədalətsizliklə mübarizə aktual olmuşdur. Lakin dövlət başçısının fəaliyyətinin bütün aspektləri göstərir ki, cənab İlham Əliyev eyni zamanda, dünyanın hansı regionunda baş verməsindən asılı olmayaraq vurğulanan neqativ hallara qarşı mübarizəsindən qalmamışdır. Bunun sübutu, məsələn, Qoşulmama Hərəkatına sədrliyi dönəmində Prezident İlham Əliyevin ksenofobiyaya, neokolonializmə, dövlətlər arasında ayrı-seçkilik salanlara qarşı səsini ucaltmaşıdır.

Ayrıca, Azərbaycan lideri BMT kürsüsündən təşkilatın tədbirləri zamanı eyni qətiyyəti nümayiş etdirmişdir.

Digər məqam bu prosesin uzun illər çəkməsinə bir işarə ilə bağlıdır. Yəni BMT faktiki olaraq həmin məsələlərə lazımi dərəcədə münasibət göstərə bilməmişdir. Belə olmasaydı, onların uzun illər gündəmə gətirilməsinə ehtiyac olmazdı.

Üçüncü, bizcə geosiyasi aspektdə olduqca vacib olan məqam Azərbaycan Prezidentinin bir müstəqil dövlətin üzərinə düşəni təkbaşına həll edə bilməsi fonunda yenə də BMT-yə yüksək sayğı ilə yanaşdığını nümayiş etdirməsi ilə bağlıdır. Çünki Azərbaycan Prezidenti dövlətlərarası münasibətlərin yalnız BMT Nizamnaməsi və beynəlxalq hüququn normaları çərçivəsində qurulması tərəfdarı olduğunu növbəti dəfə sübut etmişdir.

Bu məqamı yuxarıdakı fikrin ikinci hissəsinin məntiqi tam aydın göstərir. Prezident İlham Əliyev "bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam" cümləsindən dərhal sonra vurğulamışdır: "Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam" və "Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq".

Bu siyasi-diplomatik keçidin məntiqi və mənası dörd mühüm şəxsi özəlliyi ifadə edir – səmimiyyəti, ədaləti, humanitarlığı və hüquqa sayğını! Daha dərin və geniş siyasi, geosiyasi və tarixi qatlarda isə vurğuladığımız məqamın anlamı daha maraqlıdır. Onun bəşər miqyasında əhəmiyyəti vardır. Bunu aydın təsəvvür etmək üçün, ümumiyyətlə, dünya üçün müharibə və sülhün nə demək olduğunu və bəşər tarixində onların münasibətlərini bir daha xatırlayaq.

### Müharibə və sülh: bəşəriyyətin əbədi dilemması

Hər kəs bilir ki, nə müharibə əbədidir, nə də sülh! Onlar həmişə bir-birini əvəz edirlər. Hər bir müharibənin sonunun sülh olduğu haqqında fikir də söylənilir. Dövlətlər, hətta 100 il müharibə aparmışlar. Avropa ölkələri bir neçə əsr bir-biri ilə savaşdan sonra Vestfal Sazişində sülhü təsbit etməyə məcbur oldular, lakin alınmadı. Bu Sazişdən yüzillər sonra da Avropa dövlətləri bir-biri ilə müharibə etdilər. Müasir bəşər tarixində iki dünya müharibəsindən danışırlar ki, onların hər ikisi Avropada olmuşdur. Deməli, Vestfal Sazişi də Avropaya qalıcı sülh gətirmədi. İndi isə həm həmin Sazişin iflasa uğradığından bəhs edirik, həm də dünya yeni qlobal müharibə burulğanına düşmək riski ilə üz-üzədir.

Belə bir dolaşıq şəraitdə, hətta özünü dünyanın ən güclüləri sayan dövlətlər belə səmimi, ədalətli, humanitar və hüquqa sayğılı ola bilmirlər. Onların liderləri hansısa məqamda bu prinsiplərdən kənara çəkilirlər. Belə alınır ki, müasir tarixi mərhələdə liderin kimliyi və fəaliyyət prinsipləri yalnız milli miqyasla məhdudlaşmır, çox müxtəlif mexanizmlərlə qlobal səviyyəyə təsir edir.

Bu məntiq daxilində Azərbaycanın müharibədə qələbə əldə etməsinin başlıca nəticələrindən birinin sülhə yol açılmasının olması tarixi olaydır! Buna görədir ki, Azərbaycan Prezidentinin tam haqqı vardır ki, uzun illər ədalətsizliyə, təcavüzə və hüquqsuzluğa qarşı mübarizə aparmaq yolunu müharibədə qələbədən sülhə keçid etməyə imkan verən mübarizə prosesi ikimi qiymətləndirsin.

Beynəlxalq münasibətlər üzrə mütəxəssislər Azərbaycanın Avrasiyada nadir rast gəlinən bir nailiyyətə - müharibədə elə qələbə qazanmaq ki, bir daha geri dönüş olmasın, sülhü təmin etmək mümkün olsun və bu, davamlı olsun, imza atdığını xüsusi vurğulayırlar. Belə alınır ki, Prezident İlham Əliyevin müharibədə qələbənin sülhə aparan yolun finalı olmasına vurğusu siyasi və geosiyasi anlam kəsb edir. Həmin anlam, ümumiyyətlə, Vətən müharibəsi vasitəsilə işğala necə son qoymağın fəlsəfəsi ilə sıx bağlıdır. Şübhə yoxdur ki, bu fenomeni geniş tədqiq etmək zəruridir. Həmin istiqamətdə tədqiqatların ümumi hədəfini Prezident İlham Əliyev göstərmişdir. Bu, Azərbaycan tarixində yeni dövrün başlaması ilə bağlı irəli sürülən tezisdən ibarətdir.

### Azərbaycan tarixində yeni dövr

Tarixi, siyasi və geosiyasi anlamı dərin olan tezisdir. Burada dövlətçilik kontekstində xeyli faktorların mənaca vəhdəti ifadə edilmişdir. Böyük mənada yeni tarixi dövr əsrlərdir Azərbaycanla bağlı baş verən proseslərin istiqamətinin dəyişdirilməsini əks etdirir. Yəni müasir Azərbaycan faktiki olaraq "Vətən müharibəsi", "qələbə" və "sülh" anlayışlarının münasibətlərinə yeni geosiyasi anlam vermişdir. Konkret olaraq, hansı anlamı?

Birincisi, "Vətən müharibəsi" ifadəsi tam pozitiv mənaya malik olmuşdur. Onun əsas əlaməti ölkəni, dövləti və cəmiyyəti tam müstəqil etməkdən ibarətdir. Vətən müharibəsi hər şeydən öncə Azərbaycanı və Azərbaycan xalqını əsarətdən qurtarmışdır. Cəmiyyətin bütün sferalar üzrə birləşməsinə geniş yol açmışdır. Bu prosesin digər mühüm aspekti Vətən müharibəsinin elə qələbəyə aparmasıdır ki, kimsəyə qarşı aqressivlik yaranmamışdır. Yəni Vətən müharibəsinin tam pozitivliyi milli çərçivədə müstəqillik və suverenliyə nail olmaqdan başqa hədəfinin olmaması ilə əlaqəlidir. Dünya tarixi göstərir ki, nadir hallarda Vətən müharibəsində qalib gələn dövlətlər bu dərəcədə humanitar, barışcıl, sülhpərvər və birləşdirici ola bilir. Bu xüsusiyyətlər Azərbaycanın Vətən müharibəsini müasir tarixi mərhələdə digərlərindən kəskin surətdə fərqləndirir. Onun başlıca səbəbi Liderin əsl sülhsevər və müdrik şəxsiyyət olması ilə bağlıdır.

İkincisi, Azərbaycanın "Vətən müharibəsi" fəlsəfəsində "qələbə"nin özəl məna daşımasıdır. Bu məqam çox maraqlıdır. Doğrudan da müharibədə qələbə nəyi ifadə edir? Onun semantik və məqsəd mənası nədən ibarətdir? "Qalib gəlmək" qalib tərəfdə hansı keyfiyyətləri ön sıraya çəkir? Ümumiyyətlə, müharibədə qalibiyyət nəyi ifadə edir? İlk baxışdan sadə görünən bu suallara fəlsəfi və siyasi-nəzəri cavab axtarmaq çox vacibdir, çünki hər qələbənin öz anlamı və funksiyası, təbiəti və rolu mövcuddur.

Biri hərb meydanında qalib gəlmək üçün qarşıdakı tərəfi tamamilə yox etməyi hədəfləyir ki, özündən tam asılı olsun. Burada hətta soyqırımından belə imtina etmirlər. Hitler Almaniyası qələbə üçün böyük cinayətlər törətdi.

Birinci Qarabağ müharibəsində ermənilər olmazın vəhşiliklər və cinayətlər törətdilər. Onların "qalib olmaq" fəlsəfəsində kəndləri, şəhərləri viran qoymaq, talamaq, dağıtmaq və insanları hər imkanda məhv etmək norma kimi yer almışdır. İkinci Qarabağ müharibsi zamanı da dinc əhaliyə bombalar atmaq və raketlərlə şəhərləri vurmaq erməni hərbi düşüncəsi və deməli, qalib gəlmək anlamı üçün adi hal idi. Bu barədə Prezident İlham Əliyev dəfələrlə zərgər dəqiqliyi və məntiqi inandırıcılığı ilə bəhs etmişdir. Həmin fikirlər adi hal deyildir, böyük bir liderin hərbi olayları və qələbə anlamını konseptuallaşdırması deməkdir.

Erməni siyasi düşüncəsinin qələbə haqqında bu cür antisivil və qeyri-insani təsəvvürə malik olması təsadüfi deyildir. Çünki bu anlamın kökündə ermənilərin özlərinə aid olmayan mədəniyyətə və dövlətçiliyə zorbalıqla, hərbi təcavüzlə və qondarma ideoloji-psixoloji iddialarla nail olmaq dayanır.

Bu məqamı indi az-çox N.Paşinyan ya anlayır, ya da özünü anlayan kimi göstərir. Lakin tarixin öz hökmü var: sənin olmayanı sənə Yaradan verməz! Bu baxımdan, Azərbaycan Prezidenti müdrikcəsinə vurğulayır ki, Azərbaycan tarixi ədalət və hüquqla yanaşı, milli ləyaqətini bərpa etdi! Bu, ümumi səviyyədə xeyrin şərə, sivilliyin antisivilliyə, ədalətin ədalətsizliyə qalib gəlməsi deməkdir.

Bunlardan intiutiv olaraq Azərbaycanın Vətən müharibəsində qələbəsinin fəlsəfi məna yükünü duymaq olur. Hansı səbəbdən bu qələbənin tam pozitiv mahiyyət daşıdığını dərk etmək imkanı yaranır.

Birincisi, Azərbaycan cəmiyyətinin qədim dövlətçilik ənənəsi vardır. O ənənə hər tarixi kəsimdə sivil və ədalətli olmasaydı, davamlı ola bilməzdi. İndi ermənilər son min ildə hansı real dövlət qurduqlarını deyə bilmirlər, çünki yoxdur. Azərbaycanlılar 10-dan çox dövlət qurmuşlar və onları bir-bir vurğulaya bilirlər. Deməli, bizim qələbə fəlsəfəmizin kökündə dövlət qurmaq mədəniyyətinin qədrini bilmək dayanır. Azərbaycan xalqı dövlətin nə olduğunu Avrasiyada ən yaxşı bilən qövmlərdəndir.

İkincisi, azərbaycanlılar qalib gəlməyi mental xüsusiyyətləri, özünüyaratma üsulu, sosiallaşma özəllikləri, dünyaya baxışları, dini tərbiyələri və idarəetmə mədəniyyətləri üzərində öyrənmişlər. Onlar öz tarixlərinin subyektləridirlər. Özləri dövlət qurmuşlar və bu yolda saysız-hesabsız qələbəyə nail olmuşlar. Bu mənada "qalib gəlmək" düşüncəsi azərbaycanlılara yad deyildir – mentalitetimizin, siyasi tərbiyəmizin və sosial-mədəni həyat tərzimizin ayrılmaz parçasıdır. Bu düşüncəni özümüz tarix boyu özümüzdə tərbiyə etdik.

Üçüncüsü, azərbaycanlılar Vətəni çox sevmələri ilə yanaşı, ondan həm də "doymuşlar", başqalarının Vətən anlayışına ehtiyacları yoxdur. Həm də başqalarının vətənlərinə ehtiyacları yoxdur, baxmayaraq ki, indi "Ermənistan" adlanan ərazi də azərbacanlıların tarixi torpaqlarıdır və oranın əsl adı Qərbi Azərbaycandır!

Buradan qalib gəlmək fəlsəfəsində "üstün olmaq"la "təcavüzkar olmaq" anlamları arasındakı fərqin maraqlı siyasi-nəzəri və fəlsəfi dərkinə keçə bilərik.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb



**İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycan Respublikasına rəsmi səfəri oktyabrın 1-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarellanı Azərbaycanın Baş nazirinin müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Bakı "Rəqəmsal İpək yolu"nun da paytaxtıdır

**Sentyabrın 29-30-da Bakıda keçirilən "INMerge" İnnovasiya Sammiti başa çatıb. Sammit maraqlı çıxış və müzakirələrlə yadda qalıb. Xüsusilə də beynəlxalq rəqəmsal identifikasiya və rəqəmsal maliyyə üzrə tanınmış ekspert Devid Berçin yerli KİV-ə müsahibəsi maraqla qarşılanıb. Tanınmış ekspert bildirib ki, Azərbaycan Cənubi Qafqaz regionunda rəqəmsal maliyyə xidmətlərinin mərkəzinə çevrilmək üçün əlverişli şansa malikdir.**

"Wired" jurnalının dünyanın ən nüfuzlu informasiya mənbələrindən biri kimi dəyərləndirdiyi ekspert Devid Berç Bakıda keçirilən "INMerge" İnnovasiya Sammitində iştirak edərək Azərbaycanın texnoloji və maliyyə imkanlarını xüsusi vurğulayıb. Onun sözlərinə görə, Azərbaycanda rəqəmsal texnologiyaların tətbiqi üçün münbit mühit formalaşıb. Gənc və texnologiyaya açıq əhali, mobil telefonlara yüksək maraq, rəqəmsal infrastrukturun sürətli qurulması və güclü insan kapitalı ölkənin rəqəmsal gələcəyinə ciddi üstünlüklər qazandırır. Bu faktorlar Azərbaycanın yalnız region daxilində deyil, həm də beynəlxalq miqyasda rəqəmsal maliyyə və innovasiya mərkəzinə çevrilməsi üçün zəmin yaradır.

Ekspert rəqəmsal manat layihəsinə toxunaraq qeyd edib ki, milli rəqəmsal valyutanın uğuru yalnız mövcud maliyyə alətlərindən kənara çıxmaqla mümkündür. Əks halda, Qazaxıstanda rəqəmsal tenge nümunəsində olduğu kimi, yeni alət debet kartından ciddi fərqlənmədiyi üçün nəticə verməyə bilər. Rəqəmsal milli valyutalar isə maliyyə suverenliyini möhkəmləndirmək, xarici ödəmə sistemlərindən asılılığı azaltmaq və iqtisadi təhlükəsizliyi təmin etmək üçün strateji əhəmiyyət daşıyır. Burada ən vacib məsələ valyutanın internet və mobil rabitənin olmadığı şəraitdə də işləyə bilməsidir. Əks halda, enerji kəsintiləri və kiberhücumlar zamanı sistemin tamamilə yararsız qalma riski böyükdür. Bu baxımdan, tənzimləmə mexanizmləri uğurun əsas açarı kimi ön plana çıxır.

D.Berç süni intellekt sahəsinə sərmayənin artırılmasının zəruriliyini vurğulayaraq, yaxın 10–15 ildə maliyyə, təhsil və müdafiə sektorlarının köklü transformasiyaya uğrayacağını bildirib. ABŞ-da təhsil müəssisələrinin süni intellekti uşaqlara erkən yaşdan tətbiqi alət kimi öyrətməsini nümunə göstərən ekspert hesab edir ki, Azərbaycan da gənc kadrlarının potensialından istifadə etməklə bu sahədə öncül mövqeyə çıxa bilər.

Hərbi müstəvidə də yeni çağırışlar meydana çıxır. Ekspertin fikrincə, artıq ənənəvi hərbi güc elementləri – raketlər və aviadaşıyıcılar – əvvəlki rolunu itirir. Müasir müharibələrin taleyini dronlar, süni intellekt sistemləri, sosial şəbəkələrdən kəşfiyyat məlumatlarının toplanması və rəqəmsal bazalara müdaxilə kimi yeni texnologiyalar həll edir. Bu proses "robototexnika müharibələri erası"nın başlandığını göstərir və dövlətlər bu reallığa uyğunlaşmaq məcburiyyətindədir.

Süni intellektin əmək bazarına təsirinə gəlincə, D.Berç hesab edir ki, bu, kütləvi işsizliyə səbəb olmayacaq. Əksinə, data mərkəzlərinin tikintisi, çip istehsalı və yüksək enerji gücü tələb edən texnoloji layihələr yeni iş yerləri yaradacaq. Süni intellekt kapitala sərfəli olsa da, eyni zamanda, əmək bazarına da yeni imkanlar açacaq.

Əlbəttə, Azərbaycan üçün bu şərait həm iqtisadi, həm də geosiyasi baxımdan mühüm üstünlüklər yaradır. Ölkə bir tərəfdən rəqəmsal iqtisadiyyatın inkişafı, startap ekosisteminin genişlənməsi, elektron hökumət və "ASAN xidmət" kimi uğurlu nümunələr üzərindən qabaqcıl təcrübə toplayır. Eyni zamanda, Azərbaycanda "Rəqəmsal Ticarət Qovşağı" layihəsi reallaşdırılır ki, bu da ölkəni regionda elektron ticarətin əsas tranzit mərkəzinə çevirmək məqsədi daşıyır. Layihə çərçivəsində xarici investorlara və biznes strukturlarına elektron imza vasitəsilə ölkə ilə sürətli rəqəmsal inteqrasiya imkanları təqdim olunur. Bu addım Azərbaycanın biznes mühitinin rəqəmsal cazibədarlığını gücləndirir.



Eyni zamanda, Azərbaycanın geosiyasi mövqeyi sayəsində Qafqaz Avropa və Asiya arasında rəqəmsal körpüyə çevrilir. Region ölkələri ilə rəqəmsal əməkdaşlıq, beynəlxalq şirkətlərlə tərəfdaşlıq və hüquqi tənzimləmə mexanizmlərinin gücləndirilməsi Azərbaycanın həm iqtisadi artımını təmin edəcək, həm də qlobal rəqəmsal iqtisadiyyatda mövqelərini möhkəmləndirəcək.

Beləliklə, düzgün strateji seçim Azərbaycanın rəqəmsal manat, süni intellekt infrastrukturu və texnoloji innovasiyalar üzərindən həm regional rəqəmsal maliyyə mərkəzinə çevrilməsi, həm də beynəlxalq rəqəmsal geosiyasətində önəmli oyunçu statusunu qazanması prosesini daha da sürətləndirəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Azərbaycan–İtaliya: strateji tərəfdaşlığın yeni mərhələsi

**Sentyabrın 30-da Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella təkbətək və geniş tərkibdə görüşlər keçiriblər. Rəsmi danışıqlardan sonra dövlət başçıları mətbuat qarşısında bəyanatlarla çıxış ediblər. Bu səfər iki ölkə arasında strateji tərəfdaşlığın güclənməsini göstərməklə yanaşı, münasibətlərin iqtisadi müstəvidə dərinləşməsi üçün yeni imkanların açıldığını nümayiş etdirir.**



Azərbaycan–İtaliya əlaqələrinin mərkəzində iqtisadi əməkdaşlıq dayanır. Xüsusilə enerji sektoru ikitərəfli münasibətlərin əsas aparıcı xəttini təşkil edir. Bu gün İtaliya Azərbaycanın Avropada ən iri enerji tərəfdaşlarından biridir və bu əməkdaşlıq bütövlükdə qitənin enerji təhlükəsizliyi üçün xüsusi əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizi və onun mühüm seqmenti olan TAP yalnız Azərbaycan qazının Avropa bazarına çıxarılması üçün deyil, həm də İtaliyanın enerji təchizatının şaxələndirilməsi baxımından strateji layihədir. Hazırda İtaliyada istehlak olunan neftin təxminən 17 faizi Azərbaycan hesabına təmin edilir.

İtaliyanın aparıcı şirkətləri uzun illərdir ki, Azərbaycanın enerji bazarında möhkəmlənib. 1995-ci ildən etibarən ölkəmizlə əməkdaşlıq edən "ENI" qrupu Bakı–Tbilisi–Ceyhan kəməri konsorsiumunda 5 faiz paya sahibdir. "Saipem", "ValvItalia", "Renco", "Bonatti", "Enereco", "Max Streicher", "Honeywell SRL" və digər şirkətlər isə Cənub Qaz Dəhlizinin inşasında ümumilikdə 6 milyard avrodan artıq dəyəri olan təchizat və xidmət müqavilələrini icra ediblər. Bununla yanaşı, SOCAR və onun törəmə şirkətləri ilə İtaliyanın mühəndislik və texnologiya sahəsində ixtisaslaşmış şirkətləri arasında da irihəcmli müqavilələr imzalanıb.

İqtisadi göstəricilər əməkdaşlığın miqyasını daha aydın ortaya qoyur. Azərbaycan bu gün Cənubi Qafqaz regionunda İtaliyanın əsas ticarət tərəfdaşıdır. Təkcə 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 11 milyard 390 milyon ABŞ dollarına çatıb. Bu göstərici İtaliyanın bütün Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizini təşkil edib. Ümumilikdə, Azərbaycanın xarici ticarətində İtaliyanın payı ötən il 24 faizə bərabər olub.

Azərbaycan xüsusilə enerji məhsullarını Avropa bazarına İtaliya üzərindən çıxarır. Cənub Qaz Dəhlizi vasitəsilə mavi yanacağın İtaliya bazarına daxil olması ticarət dövriyyəsinin artımına mühüm təsir göstərib. Ötən il Azərbaycan Avropaya qaz ixracını 8,6 faiz artıraraq 12,9 milyard kubmetrə çatdırıb.

Beləliklə, Prezident Sercio Mattarellanın Bakıya səfəri bir daha təsdiqləyir ki, Azərbaycan–İtaliya münasibətləri sırf diplomatik müstəvini aşaraq iqtisadi tərəfdaşlıqda strateji məzmun kəsb edib və qarşıdakı illərdə bu əməkdaşlıq daha da genişlənəcək.

***Nurlan ABDALOV***
***XQ***

### Ekspert rəyi



**Ruslan ATAKİŞİYEV,**
**İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru**

İtaliya ilə Azərbaycan arasında iqtisadi əlaqələr son illərdə daha da dərinləşir. Azərbaycanın ixracında İtaliya aparıcı mövqelərdən birini tutur və ölkəmizin ən mühüm ticarət tərəfdaşları sırasında yer alır. İtaliya, həmçinin Azərbaycanın neft ixracında strateji rol oynayır. Hazırda Azərbaycan neftinin alınmasında 14-dən çox ölkə maraq göstərir, lakin İtaliya Avropada əsas tərəfdaş qismində ön plana çıxır.

SOCAR-ın İtaliyada fəaliyyətini genişləndirməsi də əməkdaşlığın yeni istiqamətlərindən biridir. Xatırladım ki, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) İtaliyanın enerji şirkətlərindən biri olan "Italiana Petroli" (IP) şirkətinin 99,82 faizlik səhmlərinin "API Holding"dən alınması barədə saziş imzalayıb. Əməliyyat ənənəvi bağlanış şərtləri və müvafiq tənzimləyici təsdiqlərdən asılı olaraq 2026-cı ilin birinci rübündə başa çatdırılacaq. Qeyd edək ki, sövdələşmə SOCAR-ın 2024-cü ilin dördüncü rübündən iştirak etdiyi rəqabətli "M&A" prosesinin nəticəsidir. "Italiana Petroli" İtaliyanın ən iri inteqrə olunmuş "downstream" platformalarından biridir.

Eyni zamanda, Azərbaycanda sənaye, tikinti və neft-qaz sektorunun inkişafı sahəsində İtaliya şirkətləri mühüm rol oynayır. Onlar dövlət tərəfindən elan olunan tenderlərdə fəal iştirak edir, müxtəlif infrastruktur və enerji layihələrini icra edirlər. Bu fakt göstərir ki, ikitərəfli əməkdaşlıq yalnız enerji resurslarının tədarükü ilə məhdudlaşmır, həm də qarşılıqlı investisiya və istehsal sahələrində genişlənir.

Azərbaycan–İtaliya münasibətlərinin perspektiv istiqamətlərindən biri də təhsil sahəsindədir. Bakıda açılmış İtaliya–Azərbaycan Universiteti gələcək kadr hazırlığı üçün mühüm platforma rolunu oynayır. Bu layihə iki ölkənin əməkdaşlığını insan kapitalının inkişafı müstəvisində də gücləndirir.

Bütün bu amillər onu göstərir ki, İtaliya təkcə Avropada Azərbaycanın əsas tərəfdaşı deyil, eyni zamanda, ölkəmizin Avropa İttifaqındakı mövqelərinin möhkəmlənməsində də ciddi töhfə verir. Azərbaycan–İtaliya iqtisadi tərəfdaşlığı strateji məzmun kəsb edir və qarşıdakı dövrdə daha da dərinləşəcəyi gözlənilir.

### Ekspert rəyi

**Ceyran BƏBİROVA,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin aparıcı məsləhətçisi**



Dövlət başçıları arasında 30 sentyabr 2025-ci il tarixində Bakıda keçirilən görüş Azərbaycan–İtaliya münasibətlərinin sadəcə diplomatik protokoldan ibarət olmadığını, eləcə də strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini nümayiş etdirir. Prezidentlərin bəyanatları bu əlaqələrin davamlı, qarşılıqlı etimada əsaslanan və yeni əməkdaşlıq imkanları yaradan bir xətt üzrə inkişaf etdiyini təsdiqləyir. İtaliya Prezidentinin Bakıya təkrar səfəri bu münasibətlərə verilən əhəmiyyətin bariz göstəricisidir.

Ölkələr arasında strateji əməkdaşlığın əsas institusional çərçivəsinə 2015-ci ildə imzalanmış "Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" və 2020-ci ildə imzalanmış "Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" sənədləri daxildir. Bu müddət ərzində münasibətlər siyasi müstəvidə ən yüksək səviyyəyə çatmaqla yanaşı, iqtisadi əməkdaşlıqda da inkişaf edib. Belə ki, İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin təqribən 95 faizi Azərbaycan Respublikasının payına düşür.

İtaliya və Azərbaycan energetika sahəsində yüksək səviyyəli əməkdaşlığa malikdir. Ölkələr arasında həm regional, həm də qlobal miqyasda mühüm layihələr həyata keçirilib ki, onların içərisində ən vacib yeri Trans-Adriatik Qaz Kəməri (TAP) layihəsi tutur. Azərbaycan artıq Avropa İttifaqına elektrik enerjisi ixracı istiqamətində də addımlar atır. Bu, TAP və Cənub Qaz Dəhlizi kimi layihələrin məntiqi davamı olaraq Xəzər dənizinin dibi ilə Orta Asiyadan Azərbaycana və Avropaya qədər yeni enerji körpüsünün formalaşmasına imkan verəcək. Nəticə etibarilə, tərəfdaşlıq neft-qazla yanaşı, elektrik bazarını da əhatə edəcək. Bundan əlavə, Azərbaycan–İtaliya əməkdaşlığı təkcə enerji və sənaye ilə məhdudlaşmır, artıq humanitar sahəyə də sirayət edir.

Energetika layihələrində birgə uğurlar, ticarət dövriyyəsində qarşılıqlı maraqlar, eləcə də təhsil və mədəni əməkdaşlıq istiqamətində atılan addımlar Azərbaycan–İtaliya əlaqələrinin uzunmüddətli və davamlı inkişaf potensialına malik olduğunu göstərir. Azərbaycanın Avropa üçün etibarlı enerji və iqtisadi tərəfdaş kimi rolu gücləndikcə, İtaliya ilə münasibətlər də regionun sabitliyi və inkişafı üçün mühüm strateji dayaqlardan birinə çevrilir.

---

*Bakı İqlim Həftəsi*

# Azərbaycanın "yaşıl prioriteti"

**Dünən Bakı İqlim Həftəsi öz işini davam etdirib. İqlim məsələlərinin müzakirəsinə həsr olunmuş toplantının 3-cü günündə də çoxsaylı çıxışlar dinlənilib, bir sıra təklif və mülahizələr səsləndirilib.**

## *Su və iqlim üzrə Bakı dialoqu işə başlayıb*




Toplantıda çıxış edən COP29 prezidenti, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev ölkəmizin iqlim gündəliyinin prioritetlərini açıqlayıb. Nazir qeyd edib ki, kənd təsərrüfatı iqlim dəyişiklikləri qarşısında ən həssas sahələrdən biridir və su ehtiyatları ilə Xəzərin ekoloji problemləri təcili diqqət tələb edir. Onun sözlərinə görə, Azərbaycan tərəfindən irəli sürülmüş su və iqlim fəaliyyətlərinə dair COP29 Bəyannaməsinə artıq 60-dan çox ölkə qoşulub. Bu təşəbbüs çərçivəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş Su və İqlim üzrə Bakı Dialoqu işə başlayıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov çıxış edərək bildirib ki, hazırda iqlim dəyişikliyi dünyada arzuolunmaz təhlükəsizlik, enerji, səhiyyə və sosial rifahla sıx bağlı olan ən böyük çağırışlardan biridir. Azərbaycanın 2024-cü ildə "Qida resurslarından səmərəli istifadə üzrə Milli Strategiya"nı qəbul etdiyini xatırladan ADSEA sədrinin sözlərinə görə, bu sənəd növbəti 16 il üçün ölkənin idarəetmə və infrastrukturunu BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunlaşdırmağı, innovasiyaların miqyaslandırılmasını və su ehtiyatlarının davamlı istifadəsini təmin etməyi nəzərdə tutur.

Qeyd olunub ki, 1980-ci ildən bəri ölkəmizin şirin su ehtiyatları, təxminən, 3 dəfə azalıb. Bununla yanaşı, əhalinin yalnız üçdəbiri müasir tullantı suları təmizləmə xidmətlərinə çıxış imkanına malikdir. Yeni strategiyanın bu problemlərə hərtərəfli cavab verdiyini vurğulayan Z.Mikayılov bildirib ki, bura real vaxt rejimində monitorinq, şəffaflığı və hesabatlılığı təmin edən müasir su-informasiya sisteminin qurulması, şəhərlərdə tullantı sularının azaldılması, kənd təsərrüfatında suvarma səmərəliliyinin artırılması və təmizlənmiş tullantı sularının istifadəsinin genişləndirilməsi daxildir.

ADSEA sədrinin sözlərinə görə, yeni strategiya çərçivəsində su idarəçiliyində rəqəmsal islahatlar aparılacaq. Diqqətə çatdırılıb ki, sənəd real vaxt rejimində monitorinq sistemlərinin qurulmasını, hövzə səviyyəsində idarəetməni və Elektron Su İnformasiya Sisteminin yaradılmasını nəzərdə tutur ki, bunlar da həm şəffaflığı və hesabatlılığı, həm də səmərəliliyi artıracaq.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında qeyd edib ki, hazırda innovasiya, elm və texnologiya davamlı və inklüziv aqrar sektorun əsas hərəkətverici qüvvələridir. O, Bakı İqlim Fəaliyyəti Həftəsinin 3-cü gününün kənd təsərrüfatı, su, nəqliyyat və ağıllı şəhərlər üzrə sektoral iqlim dayanıqlılığını müdafiə etməyə, eləcə də iqlim fəaliyyətində qadınların liderliyinin vacib rolunu önə çıxarmağa həsr olunmasını təqdir edib.

Yaxın illərdə ölkəmizdə aqrar sahədə süni intellektin tətbiqinə başlanılacağını diqqətə çatdıran nazir deyib ki, bu məqsədlə beynəlxalq tərəfdaşlarla birlikdə hazırlanan ikiillik rəqəmsal və süni intellekt yol xəritəsi məhsuldarlığın müxtəlifliyinin xəritələşdirilməsindən və torpağın monitorinqindən tutmuş məhsuldarlığın proqnozlaşdırılmasına və suya qənaət edən suvarmaya qədər sahələri əhatə edir. Qeyd olunub ki, artıq bu sahədə pilot layihələr həyata keçirilir ki, bu da süni intellektin yaxın zamanlarda bütün ölkə üzrə tətbiq olunmasına gətirib çıxaracaq.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa və Mərkəzi Asiya üzrə regional nümayəndəsi, baş direktorun köməkçisi Viorel Gutu çıxış edərək bildirib ki, su və ərzaq təhlükəsizliyi iqlim fəaliyyətinin əsas hədəfi olaraq qalmalıdır. Hazırda səhiyyə, su və qida məsələlərinin iqlim layihələrində mühüm yer tutduğunu diqqətə çatdıran FAO rəsmisi ölkəmizin əməkdaşlığın bu sahədə mühüm rol oynadığını vurğulayıb.

Asiya İnkişaf Bankının Azərbaycan və Türkmənistan üzrə əməliyyat rəhbəri Marina Rouz Best çıxışında təmsil etdiyi qurumun kənd təsərrüfatının da iqlim planlarına daxil etdiyini bildirib: "Bu il 2030-cu ilə qədər qida sistemlərinin transformasiyası üçün 40 milyard dollarlıq investisiya proqramını elan etdik ki, bu həm dövlət, həm də özəl sektoru əhatə edir. Bu proqramın bir hissəsi Azərbaycanla tərəfdaşlıq strategiyamızda da öz əksini tapıb və onun həyata keçirilməsinə bu yay başlanılıb".

Asiya İnkişaf Bankının Azərbaycanın özəl sektoruna investisiyaların həcmini artırmaq niyyətində olduğunu vurğulayan Marina Rouz Best deyib ki, qurum 2021-ci ildə kiçik fermerlərin mikromaliyyələşdirilməsi üçün "Bank Respublika" ASC-yə 20 milyon, aqrar təchizat zəncirləri və logistikanın dəstəklənməsinə isə 5,9 milyon ABŞ dolları ayırıb. Ötən il təchizat zəncirləri və nəqliyyat logistikasının inkişafı üçün "Veyseloğlu" şirkətinə 10 milyon, yerli fermerlərin təchizat zəncirlərinə inteqrasiyasına kömək məqsədilə isə 500 min dollar vəsait verilib.

Dünya Bankının Azərbaycan üzrə meneceri Ştefani Ştallmayater isə qeyd edib ki, iqlim dəyişikliyinin təsirləri regionda daha çox hiss olunduqca sərhədyanı sular üzrə əməkdaşlıq və hövzə əsaslı idarəetmə getdikcə əhəmiyyətli olur. Ölkəmizin artıq bu istiqamətdə müəyyən addımlar atdığını bildirən bank meneceri Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin suvarma sisteminin modernləşdirilməsi istiqamətində gördükləri işlərin suyun itkisiz istifadəsi baxımından əhəmiyyətini vurğulayıb. O, Azərbaycanda "ağıllı kənd təsərrüfatı"nın yaradılması istiqamətində də təqdirəlayiq işlərin görüldüyünü diqqətə çatdırıb.

Bakı İqlim Həftəsinin 3-cü iş günü daha sonra öz işini panel müzakirələri və "dəyirmi masa" ətrafında söhbətlərlə davam etdirib.

***Mirbağır YAQUBZADƏ,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

---

## "Qoca" avtomobillər yollardan yığışdırılır

### *Ötən 1 ildə 10 min köhnə maşın qara metala çevrilib*

**"Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olaraq ölkə ərazisində köhnəlmiş və istismara yararsız nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu davam edir.**

2024-cü ilin oktyabr ayından başlayan utilizasiya prosesinə vətəndaşların böyük maraq göstərməsinin nəticəsində cəmi 11 ay ərzində çoxsaylı köhnə nəqliyyat vasitələri utilizatorlara təhvil verilib. Utilizasiyaya verilən 10 mininci nəqliyyat vasitəsinin sahibi isə Elşən Hümbətov olub. Bununla bağlı nəqliyyat vasitəsinin təsdiqedici sənədi vətəndaşa təqdim edilib.



Ümumilikdə, bu günə qədər utilizasiya edilmiş nəqliyyat vasitələrinin təsdiqedici sənədləri əsasında vətəndaşlar 589 ədəd yerli istehsal yeni nəqliyyat vasitəsini güzəştlə əldə ediblər. Bununla yanaşı, 803 min manatadək birdəfəlik ödəniş ərizəçilərin bank hesabına köçürülüb.

Mövcud tələblərə əsasən, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qaydada əvvəlcə nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra zəruri məlumat www.nvu.gov.az portalına daxil edilərək ərizəçiyə göndərilən elektron məlumat əsasında nəqliyyat vasitəsi utilizatora təhvil verilməlidir.

Xatırladaq ki, nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunması könüllülük prinsipi əsasında aparılır və məcburi xarakter daşımır. Hazırda "Təmiz Şəhər" ASC tərəfindən reyestrdə qeydə alınmış 3 utilizator Bakı şəhəri, Abşeron rayonu və Gəncə şəhərində fəaliyyət göstərir.

***XQ***

*Bakı metropoliteni: dünəndən sabaha*

# Yeraltı dünyanın tıxacsız yolları




**Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi tapşırığa uyğun olaraq, 2030-cu ilə qədər Bakıda 10 yeni metro stansiyası tikilməlidir. Bu stansiyalar Bakı şəhərində nəqliyyat infrastrukturunun inkişafına, eləcə də şəhərdə tıxac probleminin, avtobus nəqliyyatını metro ilə uzlaşdırmaq kimi mühüm məsələlərin həllinə xidmət göstərməlidir. Ölkə rəhbəri, eyni zamanda, bildirib ki, bu ildən sözügedən sahəyə investisiyaların qoyulacağı da nəzərdə tutulur.**

Dövlətimizin başçısı yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə isə qeyd edib ki, son 30 il ərzində Azərbaycan əhalisi 10 milyon nəfəri keçib. Bakıda yeni metro stansiyaları istifadəyə verilməklə böyük layihələr icra edilsə də, şəhər yol infrastrukturu, o cümlədən metro imkanları bu artıma uyğun deyil. 2008-ci ildən metronun 7 stansiyası tikilsə də, dövrün çağırışlarına uyğun olaraq, bu istiqamətdə yeni qərarlara ehtiyac var.

Azərbaycan Respublikasının Prezidentinin yanvarın 30-da imzaladığı sərəncamla isə "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Sənəddə yeni 10 stansiyanın, "İçərişəhər" stansiyasında keçid kamerasının inşası, "Qırmızı" və "Yaşıl" xətlərin ayrılması, 2 elektrik deposunun tikintisinin tamamlanması, enerji sisteminin etibarlılığının artırılması və s. mühüm məsələlər nəzərdə tutulub. Eyni zamanda, "Bənövşəyi" xətdə 6, "Yaşıl" xətdə isə 4 stansiyanın inşa edilməsi planlaşdırılıb.



Bu işlərin tərkib hissəsində kompleks tədbirləri özündə ehtiva edən mühüm vəzifələrdən biri də xətlərin ayrılması layihəsidir.

## 10 yeni stansiya

Yerli və xarici mütəxəssislərin iştirakı ilə paytaxtın nəqliyyat layihəsi hazırlanıb. İşlərə ən qısa müddətdə başlanılacağı nəzərdə tutulub. 2030-cu ilə qədər 10 stansiyanın inşasının başa çatdırılması qarşıya əsas vəzifə kimi qoyulub. Mütəxəssislər tərəfindən metropolitenlər üçün hər xəttin müstəqil fəaliyyətinin çox vacib olduğu bildirilib. Bu stansiyaların isə Bakıda nəqliyyat sıxlığının azaldılmasına təkan verəcəyi proqnozlaşdırılıb.

Ümumiyyətlə, nəzərdə tutulan layihələrin icrası paytaxtımızda mobilliyin inkişafına mühüm təsir göstərəcək. Metro və digər ictimai nəqliyyat vasitələri inteqrasiya olunacaq. Bu, eyni zamanda, insanlar üçün ictimai nəqliyyatın daha münasib, əlçatan və rahat olmasına xidmət edəcək. Belə halda isə "Qırmızı" və "Yaşıl" xətlərin mütləq şəkildə ayrılması qarşıda duran hədəfin gerçəkləşdirilməsini şərtləndirəcək.

"Bənövşəyi" xəttin inşa ediləcək 6 stansiyasından 2-si isə "Yaşıl" xəttə ("Nizami" və "Xətai" stansiyalarında), daha 1-i "Qırmızı" xəttə ("Sahil" stansiyasında) keçid olacaq. Bu layihə sərnişin axını və hərəkət istiqamətlərinə əsaslı dəyişiklik gətirəcək. Eyni zamanda, Sumqayıt, Xırdalan, Bakı–Şamaxı yolunda yerləşən qəsəbələrdən şəhər mərkəzinə hərəkət yaxınlaşacaq. Başqa sözlə, metropolitenin tranzit rolu artacaq. Və xətt üzrə daşınan sərnişinlərin sayı əsaslı şəkildə çoxalacaq.

Stansiyalardan birinin 2026-cı ilin sonuna qədər istifadəyə veriləcəyi nəzərdə tutulub. Bənövşəyi xəttin layihə adı "B-04" olan stansiyasında inşaatın əsas mərhələsi tamamlanıb.

Hazırda keçidlərin tikintisi ilə yanaşı, daxili xidməti sahələrinin və otaqların, arakəsmələrin tikintisi aparılır. Təchizat məsələləri istiqamətində də layihələr gerçəkləşdirilir. Eyni zamanda, təchizat, quraşdırma, hərəkətin təşkili və s. işlərin də qarşıdakı müddətdə görüləcəyi nəzərdə tutulur.

Ümumiyyətlə, 10 stansiyanın inşası metropolitenin genişləndirilməsinə, mövcud infrastruktur problemlərinin mərhələli şəkildə aradan qaldırılmasına, sərnişinlərə xidmət keyfiyyətinin artırılmasına əhəmiyyətli təsir göstərəcək. Həmin stansiyaların inşası şəhərdə mobillik planının həyata keçirilməsini sürətləndirəcək və metropolitenin nəqliyyat sistemində ictimai sərnişindaşıma baxımından rolunu artıracaq. Lakin qeyd edilənlərlə yanaşı, qarşıda duran ən mühüm vəzifə xətlərin ayrılması layihəsi olacaq.



## Xətlər ayrılacaq

"28 May" stansiyasında kəsişərək birləşən "Yaşıl" və "Qırmızı" xətlərin ayrılması layihəsinin icrasına yaxın vaxtlarda başlanacaq. Bu xətlərin müstəqil fəaliyyəti hər birinin öz infrastrukturu çərçivəsində fəaliyyətinin, idarəetmə prinsiplərinin, sərnişindaşıma xidmətinin və texniki quruculuğunun daha səmərəli və keyfiyyətli təşkilinə yol açacaq.



Layihəyə "28 May" stansiyası yaxınlığında qazıntı işləri ilə başlanılacaq. Ərazinin ağır geoloji mühitə malik olması səbəbindən ərazidə ən optimal qazma üsulu ilə inşaatın texniki təhlükəsizliyi təmin ediləcək. Bu işlər "Cəfər Cabbarlı–Nizami" mənzilini birləşdirəcək 200 metrə yaxın tunelin inşası ilə tamamlanacaq. Həmin müddət ərzində geoloji təsirlər nəticəsində "Nizami" stansiyası istiqamətində tunel geyimində meydana gəlmiş və yol mənzilində qatarların sürət həddinin aşağı salınmasına səbəb olmuş texniki çatışmazlıqlar da aradan qaldırılacaq.

Tunelin qazılması ilə əlaqədar artıq ilkin hazırlıq tədbirləri görülür. Bu məqsədlə hazırda iki istiqamətdə hazırlıq layihələri reallaşdırılır. Yeni ildən isə tunel qazıntısına başlanılması planlaşdırılır.

## 2 stansiya keçidi

Layihə çərçivəsində "28 May" stansiyasından "Cəfər Cabbarlı" stansiyasına daha bir keçid tikiləcək. Bu isə sərnişin axını gur olan "28 May" stansiyasından "Cəfər Cabbarlı" stansiyasına və əksinə, sərnişin axınının parçalanmasına və hərəkətin daha intensiv tənzimlənməsinə, təhlükəsizliyin daha da artırılmasına əsaslı şəkildə təsir göstərəcək. 2026-cı ildə tamamlanması nəzərdə tutulan bu işlər zamanı əsas tunel qazıntısı müddətində "28 May–Nizami" yol mənzilində qatarların hərəkəti dayandırılacaq. Lakin layihənin icrası, sadəcə, tunelin və keçidin tikintisi ilə məhdudlaşmayacaq.

Mürəkkəb və kompleks tədbirlərin tərkib hissəsinə xətlərin fəaliyyətini və idarəetməsini təmin edən əsas infrastruktur layihələrinin həlli də daxildir. İlk növbədə, dünya praktikasında olduğu kimi, qatarlara qulluq, xidmət, təmirin təşkili və tunel, yol, hərəkətin təşkili və digər mühüm sahələrin fəaliyyətinin təşkili, texniki məsələlərin həlli baxımından hər xəttin özünün deposu olmalıdır. Hazırda Bakı metropoliteninin 3 xəttinin 2 elektrik deposu fəaliyyət göstərir. "Bənövşəyi" xəttə xidmət göstərən "Xocəsən" elektrik deposunun inşası birinci mərhələdə başa çatdırılıb. Qarşıdakı müddətdə xəttin yeni stansiyaları istifadəyə verilərkən qatarlara xidmət və təmir, eləcə də baxış-qulluq sahələri yaradılmalı və infrastrukturun tam fəaliyyəti təmin edilməlidir.

"Qırmızı" və "Yaşıl" xətlərə yalnız bir – "Nərimanov" elektrik deposu xidmət göstərir. Depo bir xətt üçün nəzərdə tutulduğundan iki xəttin əsas tələbatını ödəmir. Bununla yanaşı, xətlərdən birində yaranan texniki problem faktiki olaraq, hər iki xətt üzrə qatarların hərəkətinə təsir edir. Bütün infrastruktura xidmət göstərilməsi, əsasən, gecə saatlarında aparıldığı üçün "Nərimanov" elektrik deposunda bu işlərin görülmə səmərəsi aşağı düşür. Qeyd edilən səbəblərdən 2025-ci ildə "Yaşıl" xəttin "Dərnəgül" elektrik deposunun inşasına başlanılıb. Bu deponun infrastrukturunun tam qurulması vacibdir. Burada müxtəlif sahələrin əsas idarəetməsini özündə birləşdirən inzibati bina ilə yanaşı, texniki infrastrukturun fəaliyyətini gerçəkləşdirən xidməti sahələr də yaradılmalıdır. Qatarların gecələməsi, təmiri, xidməti, qulluğun göstərilməsi, gecə işlərini yerinə yetirmək üçün təsərrüfat qatarları, yükləmə-boşaltma və digər funksiyalar üçün zəruri infrastruktur qurulmalıdır.

"Dərnəgül" elektrik deposunun inşasına aprel ayında başlanılıb və iki mərhələdə tikiləcək. Birinci mərhələdə xətlərin ayrılması layihəsi üçün vacib olan infrastruktur qurulur. Bunun üçün lazımi tunel yolları çəkilir, qatarların dayanması və təmir sahəsində inşaat norma və qaydalarına uyğun inşaat işləri görülür.

## Enerji təhlükəsizliyi

Silsilə tədbirlər sırasında enerji təhlükəsizliyi mühüm yer tutur. Xətlərin elektrik təchizatının müasir standartlar səviyyəsində qurulması, xüsusilə qatarların hərəkətini gerçəkləşdirən dartı hissəsinin hər bir xətt üzrə təmin edilməsi məqsədilə "Nizami" və "Cəfər Cabbarlı" stansiyaları yaxınlığında yeni yarımstansiyalar inşa edilməlidir. Bu işlərin görülməsi hər bir xəttin təhlükəsiz enerji təminatına zəmin yaradacaq. Xətlər ayrıldıqdan sonra "Qırmızı" xətt üzrə ən minimal intervallar təmin olunacaq. Bu isə elektrik enerjisinin hər bir fider zonasında fasiləsizliyini və etibarlığını aktuallaşdıracaq. Həm də xətlər ayrıldıqdan sonra intervallar azaldılacağından qatarların sayının artırılması lazım gələcək. Hərəkətin intensivliyi enerji tələbatını da artıracaq.

Qatarların yenilənməsi prosesi innovasiyalar baxımından sonuncu nəsil vaqonları ilə aparılır. Yeni nəsil qatarların elektrik güc tələbatı isə əvvəlki nəsil analoqlarından 1,5 dəfədən çoxdur. Qeyd edilənlər elektrik təchizatı məsələlərinə də yeni yanaşmanı aktual edir. Buna görə "Qırmızı" xəttin 1967-ci ildən fəaliyyət göstərən və fiziki-mənəvi cəhətdən köhnəlmiş 1 saylı dartı elektrik yarımstansiyasının tamamilə yenidən qurulması zəruri və qaçılmazdır.

## Tezlik, sürət

Xətlər ayrıldıqdan sonra hər birinin səmərəli fəaliyyəti, sərnişinə nümunəvi xidmətin təşkili, daha çox sərnişindaşıma gücü və mövcud sıxlığın tənzimlənməsi optimal hərəkət cədvəlinin təşkilindən və minimal intervalların tətbiqindən asılıdır. Bu səbəbdən hərəkətin təşkili prinsiplərinə uyğun olaraq sonuncu stansiyalarda dalan infrastrukturu və ya dönmə kamerasının olması xüsusi əhəmiyyət kəsb edir. Buna görə "Qırmızı" xətdə hərəkətin mümkün ən minimal interval hədlərinə çatdırılması üçün "İçərişəhər" stansiyasının arxasından qatarların geri qaytarılması məqsədilə dönmə kamerasının inşası planlaşdırılıb. Bununla bağlı müvafiq işlərin aparılması üçün ilkin tədbirlər görülür.

Bununla yanaşı, "Yaşıl" xətdə də funksional fəaliyyət "Xətai" stansiyasından sonra xəttin inşasının davam etdirilməsidir. Nəzərdə tutulmuş 10 stansiyadan 4-ü məhz bu istiqamətdə tikiləcək. Xətlərin ayrılması layihəsi üçün mühüm olan infrastruktur şərti adı "Y-15" olan stansiyadır. Bu səbəbdən konseptual inkişaf sxemində nəzərdə tutulmuş inşaat işlərinə müvafiq dalan infrastrukturu ilə təmin edilməsi nəzərdə tutulmuş "Y-15" stansiyasından başlayaraq, "Xətai" stansiyası istiqamətində aparılacaq. Bu inşaat sahəsində 8 Noyabr prospektində Nizami Gəncəvi parkının yaxınlığında yerləşən şərti adı "Y-14" olan stansiyanın inşası da tamamlanmalıdır.

## Daha nələr olacaq?

Qeyd olunan işlərin mərhələli şəkildə tamamlanması paytaxtda nəqliyyat infrastrukturunun inkişafı, tıxacların azaldılması, ictimai sərnişindaşıma sektorunun səmərəli fəaliyyəti fərdi avtomobillərdən imtinaya gətirib çıxaracaq. Şəhər mərkəzində ictimai nəqliyyatın üstünlüyü, eyni zamanda, mikromobilliyin daha sürətli inkişafına xüsusi təkan verəcək. Mobillik proqramının uğurla tamamlanması və onun ən qənaətbəxş modelinin qurulması həm də şəhərətrafı yaşayış və sənaye sahələrinin, eləcə də aqlomerasiyaya daxil olaraq böyüyən şəhər və qəsəbələrə doğru nəqliyyat infrastrukturunun optimallaşması istiqamətində ən mühüm addımlardan biridir.

"Yaşıl" və "Qırmızı" xətlərin müstəqil infrastrukturu qurulmaqla hər birinin optimal hərəkət cədvəli olacaq. Belə də "Yaşıl" və "Qırmızı" xətlərdə daha dayanıqlı, daha təhlükəsiz hərəkət təmin ediləcək. İntervallar ən minimum həddə çatdırılacaq. Həmçinin "Yaşıl" və "Qırmızı" xətlərin hazırda birləşdiyi ("Dərnəgül–28 May" və "İçərişəhər–28 May"), lakin gələcəkdə ayrılacaq "28 May" stansiyasına qədər sahələrdə mövcud olan 4 dəqiqə və daha yuxarı interval azaldılacaq.

Bakı metropolitenində sərnişinlərin təhlükəsiz hərəkəti, rahatlığı və məmnunluğu əsas hədəfdir. Yeniləşmə tədbirləri sayəsində əldə olunacaq üstünlüklər hesabına sərnişin axınının optimallaşdırılması və daha çox sərnişin daşınması imkanları rahat tənzimlənəcək. Görüləcək işlər, bununla yanaşı, "Yaşıl" və "Qırmızı" xətlər üzrə, "28 May–Cəfər Cabbarlı" keçid qovşağında sərnişinlərin paylanmasına, bölünməsinə təsir edəcək. "28 May" stansiyasına hazırda daxil olan sərnişinlər ayrı-ayrı xətlər üzrə bölünəcək, stansiyanın sərnişin yükü normaya salınacaq. Sərnişinlərin stansiyaya axını istiqamətlər üzrə keçidlərdə bölünəcəyindən bir xətt üzrə hərəkət cədvəlində yaranan problem digərinə təsir etməyəcək.

Ümumilikdə, metropolitendə il ərzində yenidənqurma işlərinin icrasına başlanılması nəzərdə tutulub. Prezident İlham Əliyevin tapşırığına əsasən, paytaxtın yerüstü ictimai nəqliyyat və mübadilə mərkəzləri ilə əlaqəli şəkildə təşkil olunacağını nəzərə alsaq, şəhərin sərnişindaşıma dinamikası, mobillik planı sürətlənəcək.

## Yeni qatarlar da alınacaq

Hazırda Bakı metropolitenində 347 vaqon və ya 67 qatar sərnişindaşıma prosesinə cəlb edilir. "Bənövşəyi" xətdə 7 vaqonlu, "Yaşıl" və "Qırmızı" xətlərdə 5 vaqonlu qatarlar hərəkət edir. Vaqonların xətdən tam çıxarmaq üçün istismar müddəti bitməlidir. Bu müddət 30-31 ildir. 30 qatar məhz yeni nəsil qatarıdır.

Bağlanılmış müqaviləyə əsasən, 2025-ci ildə alınmış 20 yeni vaqonun Bakıya gətirilərək, xəttə buraxılması üçün son komplektləşdirmə, sazlama və sınaq işləri aparılır. Əldə olunmuş razılığa əsasən, daha 10 vaqon (2 qatar tərkibi) Bakı metrosuna bu il təhvil veriləcək. Dördüncü nəslə mənsub bu qatarların 2025-ci ildə istismar müddəti başa çatmaq üzrə olan vaqonların əvəzinə xəttə buraxılması nəzərdə tutulub. Beləliklə, 2025-ci ilin sonuna qədər yeni nəsil vaqonların sayı 180-ə (36 qatar tərkibi) çatdırılacaq.

Dövlət Proqramına uyğun olaraq, 2030-cu ilə qədər 300-ə yaxın yeni nəsil vaqonun alınaraq metropoliten xətlərinə buraxılması nəzərdə tutulub. Hazırda bu istiqamətdə planlı işlər davam etdirilir, dünyanın aparıcı istehsalçıları ilə müzakirələr davam etdirilir.

Sərnişin sıxlığının tənzimlənməsi və sərnişin məmnunluğunun artırılması baxımından qatarların hərəkətinin intensivləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Cari ilin may ayında metropolitenin fəaliyyətində mühüm yenilik edilib – son 16 ildə ilk dəfə intervalın azaldılmasına nail olunub. Qatar cütlərinin sayı 30-dan 32-yə yüksəldilərək, yeni, daha sıx hərəkət cədvəli tətbiq edilib. "Cüt qatar" anlayışı – bir saat ərzində müəyyən bir stansiyadan keçən qatar sayını bildirir və bu, infrastrukturun, xüsusən qatarların hərəkət təhlükəsizliyi sisteminin texniki imkanları ilə müəyyən olunur. Bu dəyişiklik nəticəsində pik saatlarda qatarlararası interval 1 dəqiqə 52 saniyəyə qədər azaldılıb.

Bakı metropoliteni iş günlərində orta hesabla 740 minə yaxın sərnişinə xidmət göstərir. Sentyabrın 15-dən isə payız-qış hərəkət cədvəlinə keçid dövründə bu nailiyyət bir qədər də dərinləşdirildi. Metropoliten tarixində ilk dəfə pik saatlarda qatarlar arasında interval 1 dəqiqə 45 saniyəyə endirildi. Bu göstərici 34 cüt/saat prinsipi (1 saat ərzində 1 stansiyadan hər iki istiqamətdə keçən qatarların sayı) əsasında əldə olunub və bununla da son bir il ərzində artıq ikinci dəfə rekord qeydə alınıb.

Bütün bu yeniliklər mövcud texniki imkanlar daxilində aparılmış təkmilləşmə işləri sayəsində gerçəkləşdirilib. İndi isə görülmüş əlavə tədbirlər, yeniliklər pik saatlarda qatarların hərəkətinin daha da sıxlaşdırılmasına imkan yaradıb.

Yeri gəlmişkən, yeni hərəkət cədvəlinin hazırlanması çərçivəsində:

- Qatarların hərəkətinin təşkilində istifadə edilən köhnə, kağız əsaslı cədvəldən imtina olunaraq yeni rəqəmsal proqram təminatı istifadəyə verilib;
- İşarəvermə və idarəetmə sistemləri təkmilləşdirilib, stansiyalara giriş-çıxış və dayanma rejimləri optimallaşdırılıb;
- Maşinist heyətinə təlimlər keçirilib, stansiyalarda əlavə nəzarət tədbirləri görülüb.

Beş vaqondan ibarət bir qatarın maksimal tutumunun 1600 nəfər olduğunu nəzərə alsaq, bu hesabla hər iki istiqamətdə əlavə olunan qatarların daşıma gücü eyni vaxtda 6400 sərnişinə çatır. Yeni cədvəl üzrə təşkil olunmuş 34 cüt qatarın dövriyyəsi nəticəsində pik saatların ümumi müddəti ərzində, yəni, təxminən, 4,5 saatda 28 min 800 sərnişinin daşınması mümkün olacaq. İş günlərinin ümumi həcmi ilə birlikdə bu rəqəm illik hesabla 8 milyondan artıq sərnişinin daşınmasına əlavə imkan yaradacaq.

Bakı metropoliteni bundan sonra da sərnişindaşımada xidmət keyfiyyətinin yüksəldilməsi, sərnişinlərin daha çevik və rahat hərəkətinin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirəcək.

***Vaqif BİNYATOĞLU***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 282** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

**“Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən həddin hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 iyul tarixli 164 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən həddin hesablanması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 283** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

**“Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti”nin təsdiq edilməsi haqqında**

“Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 295 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 284** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”nda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Sosial sığorta haqqında”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 332 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123 (Cild I); 2024, № 2, maddə 209; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”nın 1.1-ci bəndinin birinci abzasında “səfirliklərində,” sözü “diplomatik nümayəndəliklərində və” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 324 (Cild I); 2024, № 2, maddə 242; 2025, № 5, maddə 516) ilə təsdiq edilmiş “Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə “əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin” sözləri “orqanı əməkdaşlarının” sözləri ilə əvəz edilsin;

2.2. həmin Qaydaya 6 nömrəli əlavə — “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması” üzrə:

2.2.1. adında “əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin” sözləri “orqanı əməkdaşlarının” sözləri ilə əvəz edilsin;

2.2.2. Qeyd hissəsində “başçılarına” sözü “rəhbərlərinə” sözü ilə, “vəzifə tutan şəxslərə” sözləri “xidmət əməkdaşlarına” sözləri ilə və “xidməti həyata keçirən şəxslərə” sözləri “xidmət əməkdaşlarına” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 285** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2026-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında**

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri” və “Azərbaycan Respublikasının 2026-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri” bəyənilsin.

**2** Bu Qərarın 1-ci hissəsində qeyd olunan layihələr “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycana qarşı Ermənistanın gizli “mina müharibəsi”

**Sentyabrın 30-da Parisin mərkəzindəki Respublika meydanında Azərbaycanın mina qurbanlarına dair açıq səma altında fotosərgi təşkil edilib.**



Sərgi QHT-lərə Dövlət Dəstəyi Agentliyinin donorluğu ilə “Gilavar” Foto Klubu İctimai Birliyinin icra etdiyi “Təhlükənin kulMİNAsiya nöqtəsi” layihəsi çərçivəsində açılıb. Layihədə QHT-nin yerli tərəfdaşı Fransa–Azərbaycan Dialoqu Assosiasiyasıdır.

“Gilavar”-ın sədri Rəşad Mehdiyev bildirib ki, Almaniyanın Münhen və Nürnberq şəhərlərindən sonra bu dəfə Parisdə açılan sərgi Azərbaycanın mina qurbanlarının ədalətə çağırışıdır: “İşğal dövründə Ermənistanın hərbi-siyasi liderlərinin göstərişi ilə Azərbaycan torpaqlarında 1 milyondan çox mina basdırılıb. Biz dəqiq mina xəritələri tələb edirik ki, daha Qarabağda, Şərqi Zəngəzurda minaya düşənlər olmasın, bu şəkillərdəki iztirablar bir də yaşanmasın”.

Sərgidəki fotoların hər biri xüsusi seçilib, bu təsvirlər Azərbaycanın mina probleminin miqyasını, dərin yaralarını dərk etməyə çağırır. Məsələn, minatəmizləyən Süleyman Heydərovun hekayəsi belədir: “Minatəmizləmə fəaliyyətini icra edərkən zərərsizləşdirilməsi çox çətin olan mina ilə qarşılaşdıq. Qrupuma geri çəkilmələrini tapşırıb, tək irəlilədim. Ani bir işıq, sonra əbədi qaranlıq… Gözlərimi itirdim, ancaq dostlarımı xilas edə bildim”.

“Gilavar” Foto Klubu sərgini Avropanın digər ölkələrində də davam etdirməyi planlaşdırır.

***XQ***



# Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü qeyd olunub

**Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə Baş Prokurorluğun rəhbərliyi oktyabrın 1-də Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb. Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.**

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsini dərin ehtiramla yad edərək, məzarları üzərinə gül dəstələri düzüb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.



Daha sonra Baş Prokurorluğun inzibati binasında 1 oktyabr - Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib.

Çıxış zamanı Baş prokuror Kamran Əliyev ölkəmizin ictimai-siyasi həyatında son dövrdə baş verən mühüm hadisələrdən bəhs edib. Qeyd olunub ki, dövlətimizin başçısının Amerika Birləşmiş Ştatlarına tarixi səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin 2025-ci il avqustun 8-də Ağ Evdə paraflanması Azərbaycan Prezidentinin hərbi uğurlarından sonra növbəti siyasi nailiyyəti və qələbəsidir. Bundan başqa vurğulanıb ki, Prezident İlham Əliyevin cari il sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasında tarixi çıxışı, eləcə də ölkə başçısının



regional və qlobal əhəmiyyətli təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunun, suverenlik və ərazi bütövlüyünün tam bərqərar edilməsinin bariz göstəricisidir.

Kamran Əliyev 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsinin mühüm tarixi hadisə olduğunu vurğulayaraq, ulu öndər Heydər Əliyevin müəllifi olduğu konstitusiyanın dövlətimizin müstəqilliyinin, hüquqi və dünyəvi dövlət quruculuğunun möhkəm təməli olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, məhz bu hüquqi əsaslar üzərində prokurorluğun müasir statusu və səlahiyyətləri müəyyən edilib.



Baş prokuror Birinci vitse-prezident Mehriban Əliyevanın həyata keçirdiyi humanitar təşəbbüslərin, təhsil, mədəniyyət və sosial sahələrdə gördüyü genişmiqyaslı işlərin ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində mühüm rol oynadığını xüsusi qeyd edərək bu sahədə əldə olunmuş nailiyyətlərdən danışıb, prokurorluq orqanlarının da dünya miqyasında nüfuzlu tərəfdaşlıqlarını daha da möhkəmləndirəcəyini diqqətə çatdırıb.

Kamran Əliyev prokurorluq orqanlarında son illərdə həyata keçirilmiş struktur dəyişiklikləri, şəffaf kadr siyasəti, maddi-texniki bazanın gücləndirilməsi, “Elektron Prokurorluq” İnformasiya Sisteminin tam şəkildə bütün prokurorluq orqanlarında tətbiqi, işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin bərpası istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, prokurorluq işçilərinin 93 faizdən çoxu məhz müsabiqə yolu ilə seçilmiş gənc, peşəkar kadrlardan ibarətdir.

Daha sonra xidməti fəaliyyətlərində fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının təltif olunması, prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə ali təhsil müəssisələrinin tələbə və kursantları arasında təşkil olunmuş interaktiv istintaq kvestinin, “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” mövzusunda keçirilmiş hüquq viktorinasının, eləcə də prokurorluq əməkdaşları və veteranları arasında keçirilmiş şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Prokurorluğun veteranları Ələmdar Məmmədov və Mircavan Kazımov prokurorluq orqanlarının şərəfli inkişaf yolundan bəhs edərək, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən genişmiqyaslı islahatların prokurorluq orqanlarının fəaliyyətinə də müsbət təsir göstərdiyini vurğulayıblar.

Sonda iştirakçılar Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

***XQ***

# Azərbaycan müdafiə nazirinin italiyalı həmkarına başsağlığı

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya müdafiə naziri Quido Krosettoya başsağlığı ünvanlayıb.**



Başsağlığında deyilir: “Latsio regionundakı Çirçeo Milli Parkı yaxınlığında təlim uçuşları zamanı İtaliya Hərbi Hava Qüvvələrinin 70-ci Aviasiya alayına məxsus “T-260B” tipli təyyarənin qəzaya uğraması nəticəsində iki hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin”.

***XQ***

# Azərbaycan həqiqəti diplomatik savaşda

**Prezident, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi günlərində informasiya məkanında gedən savaşda əzmlə, dəyanətlə mübarizə apararaq respublikamızın haqlı mövqeyini dünyaya çatdırırdı. Dövlətimizin başçısı işğalçıya, eləcə də respublikamıza düşmən mövqedə dayanan xarici qüvvələrə mesajlar göndərməklə qələbəyə doğru gedən yolda bütün maneələri dəf etməyə, qarşıya qoyulan məqsədi həyata keçirməyə səy göstərirdi. Bununla da orduda və xalqda mənəvi ruh yüksəkliyi yaradırdı.**



Ölkə rəhbəri müsahibələrində Azərbaycanın daim sülhpərvər fəaliyyət nümayiş etdirdiyini, Ermənistanın isə illərdən bəri destruktiv mövqedə qalaraq danışıqlar prosesini tükəndirdiyini dəlillərlə diqqətə çatdırırdı. Eyni zamanda, işğalçının qanunsuz silahlandırılmasını, Ermənistanda və işğal olunan ərazilərdə beynəlxalq terrorizm ocaqlarının fəaliyyət göstərdiyini, tarixi irsimizə aid mədəni abidələrin erməni barbarlığı nəticəsində dağıdıldığını, hüquqi baxımdan Azərbaycana məxsus işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşma aparıldığını, bu məsələyə Qərb ölkələrinin ikili yanaşma sərgiləməsini, ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin ədalətsiz, eləcə də qeyri-adekvat mövqelərini kəskin tənqid edirdi.

Azərbaycanın 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanmasında dövlət-xalq-ordu birliyi əsas amil olmaqla bərabər, ölkə rəhbərinin apardığı informasiya savaşı da önəmli rol oynadı. Dövlət başçısının II Qarabağ müharibəsi günlərində 30-a yaxın nüfuzlu xarici kütləvi informasiya vasitəsinə saatlarla müsahibələr verərək Azərbaycanın apardığı haqq davasını, müharibənin gedişini bütün dünyaya anındaca çatdırması bunun bariz ifadəsi idi.

Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibəsi də bu baxımdan xüsusi diqqət çəkdi və Azərbaycanın informasiya müharibəsinin gedişinə önəmli təsir göstərdi. Dövlətimizin başçısı müsahibədə 20 ildən artıq davam edən Ermənistan – Azərbaycan münaqişəsinin nədən qaynaqlandığını diqqətə çatdıraraq dedi: "Ermənistanı sülh maraqlandırmır, bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyir. Bu ölkə, eyni zamanda, status-kvonu dəyişməyi də xəyalına belə gətirmir. Bu da münaqişənin bu qədər uzun çəkməsinin səbəbidir. Əgər Ermənistan iradə göstərsəydi və beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə uzun illər bundan əvvəl həll edilmiş olardı".



Xatırladaq ki, 1993-cü ildə Ermənistan ərazilərimizi işğal altına aldığı zaman BMT Təhlükəsizlik Şurası qoşunların Azərbaycanın torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr kağız üzərində qaldı. Həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu 28 il səmərəsiz fəaliyyət göstərdi. Başqa sözlə, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid və təzyiq göstərilmədi. Halbuki sözügedən müsahibədə vurğulandığı kimi, Prezident İlham Əliyev Vətən müharibəsinədək bu məsələni dəfələrlə qaldırmışdı, Ermənistanı qətnamələrin tələblərinə əməl etməyə məcbur etməyin və torpaqlarımızın boşaldılmasına başlamaq üçün işğalçıya qarşı beynəlxalq sanksiyaların tətbiqinin zəruriliyini vurğulamışdı.

Prezident İlham Əliyev sözügedən müsahibədə bildirirdi ki, Ermənistan Azərbaycana qarşı həmişə yeni müharibəyə başlamağı hədəfə alıb və bu, danışıqları tamamilə pozmaq məqsədi daşıyıb. Hətta bu hədəfi reallaşdırmaq üçün bir neçə hərbi təxribat da törədib. 2020-ci il iyulun 12-də isə işğalçı münaqişə regionundan çox uzaqda olan Tovuz rayonunda, Azərbaycanın qərbində, Ermənistan – Azərbaycan sərhədindəki kəndlərimizə və hərbi mövqelərimizə hücum edib. Azərbaycan itkilər verib, dörd hərbi qulluqçu və 76 yaşlı bir kənd sakini öldürülüb. Təbii ki, Azərbaycan cavab tədbiri görməli idi... Cavab verildi və işğalçı acı məğlubiyyətlə üzləşdikdən sonra geri çəkildi, atəşkəs üçün yalvarmağa başladı. Sentyabrın 27-də baş verənlər isə bu siyasətin məntiqi davamı idi.

Ölkə rəhbəri müsahibədə daha sonra vurğuladı ki, Ermənistanın bəyanatlarına nəzər salsaq, işğalçının Azərbaycanı müharibəyə təhrik etməsi açıq-aşkar görünür. Bu məsələdə bir il bundan əvvəl Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır" bəyan etməsi və bu bəyanatın danışıqları tamamilə pozması da xüsusi diqqət çəkir. Çünki danışıqlar masasında olan əsas məsələlərdən biri işğal edilmiş ərazilərin Azərbaycana qaytarılmasıdır. Əgər "Qarabağ Ermənistandır" deyilirsə və bu anlayış da keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bərabər bütün işğal olunmuş ərazilərə şamil olunursa, bu, danışıqların sonu deməkdir.

Yeri gəlmişkən, Ermənistan, eləcə də ATƏT-in Minsk qrupu həmsədr ölkələri tərəfindən sülh danışıqları dövründə işğalçının maraqlarının gerçəkləşdirilməsinə cəhdlər olunurdu, Azərbaycan Silahlı Qüvvələri keçmiş DQMV-yə, o cümlədən, Şuşa şəhərinə girməsi, ümumiyyətlə, yaxın buraxılmırdı. Hətta keçmiş Şaumyan, indiki Goranboy rayonunun bir hissəsinin ermənilərin nəzarətinə verilməsi tələb edilirdi. Lakin tarixi Zəfər ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yeni bir reallıq yaratdı, Şuşa şəhəri də daxil olmaqla, keçmiş Dağlıq Qarabağın böyük bir hissəsi ordumuzun nəzarətinə keçdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz canı-qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılan mifi tamamilə dağıtdı, Azərbaycanın ərazi bütövlüyünü gerçəkləşdirdi. Azərbaycanın razılığı olmadan keçmiş Dağlıq Qarabağla bağlı heç bir qərarın verilə bilməməsini sübuta yetirdi. İnzibati ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçının şəhid vermədən, qan tökülmədən geri qaytarılması da reallaşdı.

Azərbaycanın cəbhədə əldə etdiyi bu möhtəşəm Qələbənin əsası isə Vətən müharibəsinədək olan dövrdə ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin gərgin və yorulmaz fəaliyyətləri ilə qoyulub. O illərdə ordumuzun güc-qüdrətinə mühüm önəm verilib, ən müasir döyüş texnikasının alınması gerçəkləşdirilib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılıb.

Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə danışarkən, deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".

Beləliklə, döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa bir əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi. Çünki 30 il ərzində ərazilərimizdə saysız-hesabsız istehkamlar qurmuşdu. O istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi. Bu, onu göstərir ki, bütün bu dövr ərzində – 30 ilə yaxın uzun bir müddətdə düşmən, sadəcə olaraq, torpaqlarımızdan çıxacaqları ilə bağlı bizi, vasitəçiləri aldadırdı. Bu, yalan idi və döyüş meydanında mövcud olan mənzərə də bunu təsdiqləyirdi…".

Dövlətimizin başçısı çıxışlarında diqqəti, eyni zamanda, işğaldan azad edilən torpaqlarımızdakı acınacaqlı mənzərəyə yönəldərək, bildirirdi ki, belə vəziyyət düşmənin Azərbaycan xalqına nifrət hissi ilə yaşadığını göstərir. Yox, əgər belə deyilsə, onda işğal altındakı kənd və şəhərlərimizin yerlə-yeksan olunmasına, bütün binaların sökülməsinə nə ehtiyac var idi?! Yağılardan təmizlənən ərazilərimizin demək olar ki, 99 faizində yaşayış və ictimai binalar, məktəblər, xəstəxanalar, tarixi abidələr, əcdadlarımızın qəbirləri, məscidlərimiz tamamilə dağıdılıb: "İndi biz bu görüntüləri yayırıq, mətbuatda hər kəs bunu görə bilər. Bu, vəhşilikdir, vandallıqdır, bu, hərbi cinayətdir.

Dövlətimizin başçısı Vətən müharibəsi günlərində dünyanın aparıcı mediasına verdiyi müsahibələrlə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Bununla da Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi.

Burada zəruri bir məqamı da xatırlatmaq istərdim. Belə ki, Vətən müharibəsindən sonra bölgədə təhlükəli revanşizm baş qaldırmışdı. Azərbaycanın öz ərazilərində suverenliyini bütünlüklə gerçəkləşdirmək üçün erməni revanşizmi başqa seçim yolu qoymadı və dövlət rəhbərinin əmri ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində lokal xarakterli antiterror əməliyyatının keçirilməsi qərara alındı. Həmin hərbi əməliyyat 2023-cü il sentyabr ayının 19-da başladı. Müdafiə Nazirliyi bununla bağlı yaydığı məlumatda həyata keçirilən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövqeləri, eləcə də uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri ordumuzun yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldığı bildirildi. Eyni zamanda, əməliyyatın gedişində mülki əhali və infrastruktur obyektlərinin hədəfə alınmadığı, yalnız legitim hərbi hədəflərin sıradan çıxarıldığı vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun yeni bir tarixi uğuru ilə sona çatan lokal xarakterli antiterror əməliyyatının nəticələrini belə dəyərləndirdi: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik".

Beləliklə, dünya hərb tarixində Azərbaycan Ordusu daha bir bir nadir əməliyyat həyata keçirdi. Bir sutkadan da az davam edən bu əməliyyat nəticəsində bölgədəki mülki əhaliyə və obyektlərə ziyan vurulmadan erməni hərbi qüvvələri məhv edildi və Azərbaycanın bütün ərazilərində respublikanın suverenliyi gerçəkləşdirildi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası: 2 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## Zəfər marafonunun 6-cı günü

• Azərbaycan Ordusu gecə ərzində və səhər saatlarında əks-hücum əməliyyatlarını cəbhənin bütün istiqamətlərində uğurla davam etdirib. Müdafiə Nazirliyinin məlumatına görə, Ağdərə istiqamətində Madagiz ətrafındakı strateji yüksəkliklər azad olunub. Cəbrayıl–Füzuli istiqamətində qoşunlarımız erməni silahlı birləşmələrinin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib. Döyüş meydanından qaçan düşmənin silah-sursatı qənimət kimi ələ keçirilib.

• Ordumuz Murov dağı istiqamətində də əməliyyat şəraitini tam nəzarətə götürüb. Döyüşlərin gedişində düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda canlı qüvvəsi məhv edilib. Bundan başqa, dayaq məntəqəsinə silah-sursat çatdıran texnikalar bölmələrimiz tərəfindən sıradan çıxarılıb.

• Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Cəzirə" televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibəsində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları və Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı, habelə münaqişə barədə sualları cavablandırıb: "Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Mənim tələb etdiklərim tamamilə beynəlxalq hüquqa müvafiqdir, çünki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dünyanın heç bir ölkəsi "Dağlıq Qarabağ respublikası"nı tanımır. Mənim söylədiyim sözlər demək olar ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mətnidir. Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq. Ola bilsin, müəyyən müddət keçdikdən sonra Ermənistan və Azərbaycan xalqları sülh şəraitində birlikdə yaşaya biləcəklər. Bu, bizim mövqeyimizdir və o, dəyişməzdir. Bu, tarixi həqiqətə, beynəlxalq hüquqa və həmçinin düşünürəm ki, regionumuzdakı bu günün siyasi və geosiyasi reallıqlarına əsaslanır".

• Ermənistan silahlı qüvvələrinin 193-cü desant həmlə taborunun komanda birliyinin döyüş bayrağı ələ keçirilib.

• Müdafiə Nazirliyi düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsinə dair yeni görüntüləri paylaşıb.

• Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan tərəfinə yaşayış məntəqələrimizi atəşə tutmamaları barədə dəfələrlə xəbərdarlığına baxmayaraq Ağdam rayonunun Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli kəndləri düşmən tərəfindən intensiv artilleriya atəşinə tutulub.

• Azərbaycan Ordusunun qətiyyətli zərbələri qarşısında duruş gətirə bilməyən düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır. Rəşadətli ordumuzun uğurlu əməliyyat nəticəsində düşmənin ondan çox texnikasını, o cümlədən "URAL" markalı hərbi maşınlarını qənimət olaraq ələ keçirib. Avtomobillərin içərisində Ermənistan ordusuna məxsus silah-sursat, geyimlər, əsgər ləvazimatları və s. aşkarlanıb. Hərbi texnikaların istifadəyə yararlı olub.

• Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun qüvvə və vasitələrinin məhv edilməsinin videogörüntülərini yayımlayıb.

• Ermənistan ordusu ərazisindən Şəmkir rayonunun Sabirkənd, işğal olunmuş ərazilərdən isə Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutmuşdur. Həmçinin Bərdə rayonunun Əmirli və Tovuz rayonunun Ağdam kəndi raket atəşi zərbələrinə məruz qalıb.



• Ermənistan ordusunun bölmələri Ağdamın Birinci Alıbəyli qəsəbəsini, Goranboy rayonunun Səfikürd kəndini, Ağcabədi rayonunun Hacılar kəndini, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini və digər yaşayış məntəqələrini ağır silahlardan atəşə tutublar. Bu müharibə cinayətləri nəticəsində onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud zədələnib.

• Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan ərazisindən Şəmkir rayonunun Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raketlər "Toçka-U" taktiki raket kompleksindən buraxılıb.

• Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edilib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

• Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun səhra idarəetmə məntəqəsi, üzərindəki Ermənistan bayrağı və qondarma rejimin asılan əski parçasının göyə sovurulması, eləcə də tanklarının məhv edilməsinin videogörüntülərini yayımlayıb.

***Mustafa KAMAL***
***XQ***

*Vətən müharibəsi qəhrəmanları*

# İntiqamın Vətən qisası

**Söhbət Masallıda anadan olanda İntiqam adı verilən, məlum Aprel döyüşlərində şəhid olmuş qardaşı Nurlanın və digər hərbçilərin qisasını İkinci Qarabağ müharibəsində alan igidlər-igidi soydaşımızdan gedir. Bu gün onunla - Vətən Müharibəsi Qəhrəmanı İntiqam Əsgərli ilə bütün el-oba, bütün xalq fəxr edir.**



Qeyd edək ki, İntiqamla Nurlan 2016-cı ildə Lələtəpə uğrunda döyüşlərdə birgə iştirak ediblər. 20 yaşlı Nurlan o zaman igidliklə həlak olub və onun nəşini döyüş meydanından İntiqam özü çiyinində çıxarıb. Nurlan ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib. Onu itirdiyi üçün yanıb-yaxılan böyük qardaş İntiqam, nəhayət, 2020-ci ildə başlanan savaşda düşmənlərə öz sözünü sonadək deyə bilib və Xüsusi Təyinatlıların kəşfiyyatçı giziri kimi misilsiz hünər göstərərək əbədiyyətə qovuşub.

İki şəhid anası Ziba xanım İntiqamla son görüşünü bütün təfərrüatı ilə xatırlayır: "O axşam bizimlə halallaşmaq üçün kəndə gəldi. Evdə təkcə mənə müharibənin başlayacağını söylədi və sonra da əlavə etdi ki, qardaşımın qisasını almasam, rahat olmaram. Həmin gün gecə saat 1-ə qədər danışdıq. Nurlanın xatirəsinə bir guşə düzəltmişik, İntiqam səhər saat 5-ə qədər o otaqdan çıxmadı. Sübh tezdən namaz qıldı və hava açılmamış getdi. Halallıq verdim, ehtiyatlı ol, ümidimiz sənsən, – dedim balama. Axırıncı dəfə oktyabrın 18-i danışdıq. Dedim ki, anan qurban, kaş, quş olub uçaydım yanına, düşmənin birini sən vuranda, birini də mən vuraydım. Dedi ki, ana, ehtiyac yoxdur, burada elə igid oğullar var ki"...

İntiqam 2020-ci il noyabrın 8-nə qədər şərəfli döyüş yolu keçib. Xocavənddə, Kəlbəcərdə məğrur qartal kimi qıy vuranlardan, düşmən üstünə göz qırpmadan şığıyanlardan olub. Şuşada əlbəyaxa döyüşlərə və dağa dırmanma əməliyyatınadək iştirak edib. Komandiri ona geri qayıtmağı məsləhət görüb. Lakin İntiqam razı olmayıb. Deyib ki, öldü var, döndü yoxdur. Mən qarşıma qisas almağı məqsəd qoymuşam. Belə bir vaxtda geri çəkilsəm, anam məni bağışlamaz". Və o, Şuşanın alındığı gün orada həlak olub.

Bu günlərdə Masallıya getmişdim. İcra hakimiyyəti aparatının qarşısındakı Zəfər meydanında "Dəmir yumruq" abidəsini, şəhidlərin şəkilləri vurulmuş lövhələri ziyarət elədim. Ön lövhənin sol tərəfindəki siyahıda Nurlan və İntiqamın adlarına rast gəldim. Vətən Müharibəsi Qəhrəmanı olduğuna görə, digər 4 eloğlusu ilə bərabər İntiqamın əzəmətli büstü də orada qoyulub. Bir neçə gün əvvəl – Anım günündə büstlərin önünə qoyulmuş güllərin heç biri solmamışdı. Həmişə təzə-tər olan xatirələri kimi. Düşündüm ki, şəhidlər ölmədikləri kimi, onların adına dərilən güllər də solmaq bilmir.

İntiqam Əsgərlinin təltif sənədində də yazıldığı kimi, o, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlər göstərib və qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman misilsiz qəhrəmanlıq nümunəsi ilə fərqlənib.

...İndi Əsgərlilər ailəsində yenə də İntiqam deyə çağrılan bir igid böyüyür. Qəhrəman ata həlak olandan bir neçə ay sonra Nur adlı qız balasının qardaşı doğulub və ona atasının adını qoyublar.

***Ə.DOSTƏLİ***
***XQ***

# Gənc zabitin general Polad Həşimov sevgisi

**Ölkəmizin müstəqilliyi uğrunda qəhrəmanlıqla mübarizə aparan, bu yolda həyatını qurban verərək ən uca zirvəyə – şəhidlik məqamına ucalanlardan biri olan Rahib Bəxtiyar oğlu Babayev 1985-ci il iyunun 19-da Şahbuz rayonunun Külüs kəndində anadan olub. İlk təhsilini kənd, daha sonra Naxçıvan şəhər 14 nömrəli məktəbdə alıb.**

2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirən gənc Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərb sənətinin incəliklərinə yiyələnib. 2006-cı ildən leytenant rütbəsi alaraq hərbçi kimi peşəkar fəaliyyətə başlayıb. İlk iş yeri Sumqayıt şəhər Hacı Zeynalabdin qəsəbəsindəki hərbi hissə, ilk komandiri isə Polad Həşimov olub.

Şəhidin həyat yoldaşı Aygün xanım bildirir ki, Rahib həmişə Polad Həşimovla fəxr edərdi: 18 illik xidmətinin 8 ilini Murovda keçirmişdi. Qüsursuz xidmətə görə dəfələrlə fəxri fərmanlar, medallar və Ali Baş Komandanın xüsusi mükafatı ilə təltif olunmuşdu. Nədənsə Kəlbəcəri daha çox sevirdi. Bəlkə də bu rayonun azadlığını görmək onun ən böyük arzusu idi...



Rahib döyüşlərdə öz vəzifəsini layiqincə yerinə yetirib. Düşmənin strateji əhəmiyyətli "Canavar" sol döyüş mövqeyinin götürülməsində şəxsən iştirak edib. "Canavar" sağ adlanan yüksəkliyin alınmasında istiqamət komandiri kimi iştirak edib. Hər iki yüksəklik döyüşlərin ilk günündə mayor Rahib Babayevin rəhbərliyi ilə düşməndən tam təmizlənib. "Canavar" Vətən müharibəsi başlananda ermənilərdən alınan ilk post idi.

Silahdaşlarının sözlərinə görə, 2020-ci il sentyabrın 27-30-da düşmənin yuxarıda adları çəkilən strateji yüksəkliklərdə qoyub qaçdığı iri çaplı silahlardan Rahib Babayev elə onların özünə qarşı istifadə edərək bir neçə düşmən texnikasını məhv edib. Hərbçilər arasında mərd, qorxmaz, cəsarətli komandir kimi tanınıb.

Deyirlər ki, Rahib həmişə düşmən üzərinə cəsarətlə, sevinclə, gülə-gülə gedib. Döyüşdə qolundan ağır yaralansa da, döyüş meydanını tərk etməyib. Yaralı halda vuruşaraq yaralanmış əsgərlərinin həyatını xilas edib. Düşmənin xeyli sayda hərbi texnikasını və canlı qüvvəsini məhv edib. Düşmən tərəfindən atılan artilleriya mərmisindən ağır yaralanıb və şəhadətə yüksəlib. Oktyabrın 2-də Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn olunub.

"Canavar postu"nun fatehi Rahib Babayev ölümündən sonra Prezident İlham Əliyevin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Müşfiq MİRZƏ***
***XQ***

# Atanız cənnətdədir, şəhid balaları

**2021-ci il ailəsində qız övladı dünyaya gəldi. Onda Elmanın anası Lalə, bacısı Sara, həyat yoldaşı Zərifə kədər qarışıq sevinc hissi keçirirdilər – körpənin atası artıq 3 ay idi ki, həyatda yox idi, dünyaya isə onu canlı yadigarı gəlmişdi.**



Şəhid Elman Babayevin anası Lalə xanım deyir: "Xeyli götür-qoy etdim. Fikirləşdim, elə ad qoymalıyam ki, Elmanın taleyinə uyğun gəlsin, onun ruhunu yaşatsın. Bir halda ki, onun yadigarı, son nişanəsidir, dedim ki, onda qoy adı da Nişanə olsun".

Ana köks ötürərək davam edir: "O, müharibəyə gedəndə qızı olacağını bilirmiş. Evdən çıxandan sonra ağlına nə gəlibsə bir də geri qayıtdı. Üzümdən öpüb pıçıltı ilə dedi: "Qayıtmasam, qızımın adını sən qoyarsan…" Evdəkilər, qohum-əqrəbə soruşdular ki, Elman sənə nə dedi? Qəhər məni boğdu, heç nə deyə bilmədim. Bu, onun haradan ağlına gəlmişdi, deyə bilmərəm. Amma aradan bir neçə gün keçəndən sonra balamın qara xəbəri gəldi".

Elman hərbi xidmətini Murovda Polad Həşimovun rəhbərlik etdiyi hərbi hissədə keçmişdi. Onun imzası ilə çoxsaylı təşəkkürnamə almışdı. Evə qayıdandan sonra da öz komandiri haqqında tez-tez danışırdı. 2020-ci ilin yayında general-mayor Polad Həşimovun şəhid olması ona çox ağır təsir etdi.

Vətən müharibəsinin ilk günlərindən Elman Murov yüksəkliyi uğrunda döyüşlərə qoşulub. Cəbhə yoldaşları onun çox ürəklə və cəsarətlə döyüşdüyünü deyirlər. Onların dediyinə görə, sanki ölümünü gözünün önünə almışdı. Hətta əməliyyat vaxtı hamıya ürək-dirək verib, cəsarətli olmağa çağırıb. "Onsuz da nə olacaqsa olacaq. Qətiyyən xoş olmayan, pis şeyləri gözünüzün qabağına gətirməyin. Gec-tez, əvvəl-axır bu məsələ yekunlaşmalı, xalqımız bu bəladan qurtulub rahat nəfəs almalıdır. İndi onu yekunlaşdırmaq bizim üzərimizə düşüb. Ona görə bu işi yekunlaşdırmalıyıq", - deyirmiş.

Dediyi kimi də olub. Vətən müharibəsinin beşinci günü yenə həmişəki kimi çox böyük cəsarətlə, yoldaşlarına ürək-dirək verə-verə döyüşüb. Elə həmin gün Murovdağ yüksəkliyində Elmanın Vətən yolunda, torpağımızın azadlığı uğrunda hər şeyə hazır olan ürəyi sonuncu dəfə vurub…

Lalə xanım söhbətində deyib: "Çalışırdı ki, hər gün zəng etsin, məni, bacısını, həyat yoldaşını nigaran qoymasın. İlk günlər mənə təlimdə olduğunu deyirdi, qətiyyən müharibə haqqında danışmırdı. "Hər şey yaxşıdı, heç nədən narahat olma", - deyirdi. Sentyabrın 30-da qapıbir qonşumuz, Elmanın yaxın dostu Məhəbbətin şəhid olduğunu eşitdik. Həmin gün hadisəni eşidib qonşuya gedirdim, növbəti dəfə zəng elədi, mən nə qədər özümü toxtaq tutmağa çalışsam da, mümkün olmadı. Gördüm ki, o da Məhəbbətin şəhid olduğundan xəbərdardır. Artıq heç nəyi gizlətməyin yeri deyildi. "Ümidi sənə tapşırıram, ana", - dedi. Bu, Elmanla son danışığım oldu".

Yeri gəlmişkən qeyd edək ki, Elman Babayev 1994-cü il noyabrın 1-də Oğuz rayonunun Padar kəndində anadan olub. Kənddəki orta məktəbə gedib. 2007-ci ildən təhsilini Oğuz şəhər 3 nömrəli məktəb-liseydə davam etdirib. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçib. 2020-ci il sentyabrın 27-dən Murovdağ döyüşlərinin iştirakçısı olub. Oktyabrın 1-də şəhidliyə ucalıb. Onun nəşi bir gün sonra götürmək mümkün olub. Oktyabrın 4-də Oğuz rayonunda Şəhidlər xiyabanında dəfn edilib.

Ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Lalə ana sonda dedi deyir: – Hələ nə Ümid, nə də Nişanə atalarının şəhid olduğunu başa düşmürlər. Hər dəfə "atamız dağlardadır, gəlib bizi gəzməyə aparacaq" deyirlər. Oğlu Elmanı axırıncı dəfə hərbi geyimdə gördüyündən onun yadında əsgər formasında qalıb. Uşaqlar indi də hərbi geyimdə kimisə görəndə "ata, ata" deyib qışqırırlar, onda adamın ürəyi parçalanır. Hər gün atalarını soruşur, onun yolunu gözləyirlər. Onları inandırmağa çalışırıq ki, atanız cənnətdədir, oradan sizə nə lazım olsa göndərir. Bilmirəm düz edirəm, yoxsa yox? Amma həqiqəti uşaqlara necə çatdıracağımı da bilmirəm. Onların kövrək ürəklərini qırmaq mənə çox ağır gəlir.

***XQ***

**...İkinci Qarabağ müharibəsinin şəhid polkovnik-leytenantı Anar Şükürov 1977-ci ildə Sumqayıtda dünyaya göz açıb, Ağdərədə igidliklə həlak olub və Bakıdakı 2-ci Fəxri xiyabanda torpağa tapşırılıb. Qəhrəman şəhidlərimizin hamısı kimi, onun da adı ölkəmizin bütün guşələrində ehtiramla anılır.**

# "530" yüksəkliyi – igidlik zirvəsi



Vətən müharibəsindən bir neçə il əvvəl Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun sıralarından ehtiyata buraxılmış Anar daha öncə uzun illər Xüsusi Təyinatlı Qüvvələrin tərkibində qrup və tabor komandiri vəzifələrini daşımışdı. 2020-ci ilin 27 sentyabrında davanın başlanması xəbərini eşidən kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə dəfələrlə müraciət eləsə də, ona hələ gözləməli olduğu bildirilib. Amma Anar Şükürov gözləyə bilməyib, döyüşlərə atılmaq üçün səbirsizlik göstərərək, 1-ci Ordu Korpusunun rəhbərliyinə müraciət edib və istəyinə çatıb – tezliklə "Həmlə" taborunun komandiri olaraq döyüşlərə cəlb olunub.

Mayor Anar Şükürov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan torpaqlarımızın azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan uğrunda gedən döyüşlərdə mərdliklə savaşıb. Oktyabrın 16-da Ağdərə istiqamətində "530" strateji nöqtəsi istiqamətində əsgərini xilas etmək üçün sinəsini sipər edərək şəhadətə ucalıb.

Onun yenidən hərbi xidmətə cəlb olunmasına kömək etmiş zabit dostlarının dediklərinə görə, həmin gün Ağdərəyə yol açılmalı idi və buna görə şiddətli döyüşlər gedir, necə deyərlər, yer-göy dağılırdı. Bölmələrimiz artıq yüksəkliyə qalxmışdı, 2 mərtəbə deyilən yerdə savaş davam edirdi. Ermənilərin, təqribən, 350-400 nəfərlik qruplaşması Göyarx kəndi istiqamətindən yüksəkliyi qaytarmaq üçün əks-həmləyə keçirdi.

Rabitəçinin qışqırıq səsi gəlirdi: "Düşmənin Ağdərə istiqamətindən 10 maşın şəxsi heyətlə dolu kolonu, 4 tank, 4 BMP-2-si Göyarxa doğru irəliləyir, təcili vurun, təcili vurun". Artilleriya bölmələrimizin dəqiq atəşi ilə kolon yolda vuruldu, düşmənə məxsus texnikaya imkan verilmədi ki, döyüşə girsin, hamısı bir-bir sıradan çıxarıldı. Hər şey əla gedirdi, hərbçilərimiz sevincdən sanki uçurdular. Amma birdən rabitədə kimsə qışqırmağa başladı: "Kombat şəhid oldu, kombat şəhid oldu..." Beləliklə, o gün "530" yüksəkliyi alınsa da, Anar Şükürov böyük igidliklə həlak oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Anar Şükürova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Ondan 1 həftə sonra "Vətən uğrunda", daha 2 həftə sonra isə "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Bakının Binəqədi rayonu, 6-cı mikrorayondakı bir küçəyə və Sumqayıtda elə qiymətlərlə oxuduğu 25 nömrəli məktəbə onun adı verilib. Bu təhsil ocağında ötən ilin sentyabrında Anar Şükürovun büstünün və xatirə muzeyinin açılışı olub. Muzeydə şəhidin uşaqlıq və hərbi xidmət dövrünə aid eksponatlar, fotolar, sənədlərin surətləri toplanıb. Məzunu olduğu Azərbaycan Texniki Universitetində də onun xatirəsinə həsr olunan guşə yaradılıb.

Anar Şükürov İkinci Qarabağ savaşında qəhrəman adına layiq görülmüş 6 sumqayıtlıdan biridir. Onlardan öncə isə 4 sumqayıtlı ölümündən sonra Milli Qəhrəman adı ilə təltif olunub. Deməli, gənclik şəhərində vətənpərvərlik ruhu daim yüksək olub, qəhrəmanlıq ənənələri mənəvi miras kimi uca tutulub. Elə Anarın nümunəsi buna aşkar sübutdur.

***Əli NƏCƏFXANLI***
***XQ***



# Ana oğul böyütmüşdü...

**Ələkbər İsgəndər oğlu Ələsgərov 1998-ci il sentyabr ayının 3-də Bakı şəhərində anadan olub. 2015-ci ildə Mikayıl Müşfiq adına 18 saylı məktəbi bitirib. Həmin il Azərbaycan dənizçilik kollecinə daxil olduqdan sonra müddətli həqiqi hərb keçib. Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb.**



2020-ci il oktyabrın 1-də Füzulinin Alxanlı kəndi uğrunda qəhrəmancasına şəhid olub. Hökməli qəbiristanlığında dəfn edilib. Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

"Ələkbər biz evlənəndən 17 il sonra doğulub. 22 yaşında itirdik onu... Hər işində dəstək olmağa çalışırdım". Ələkbər Ələsgərovun atası İsgəndər Ələsgərov belə deyir. Ardını gətirə bilmir, "Qoy anası danışsın". Sveta Ağayeva bildirir: – Ələkbər, eləcə də qardaşı uşaqlıqdan əsgər paltarı geyinməyi xoşlayırdılar, taxtadan tapança düzəldirdilər. Ələkbər həmişə əlini kürəyimə vurub deyirdi ki, görərsən, necə oğlanlar böyütmüşən, torpaqlarımızı biz alacağıq. Nə qədər desəm də ki, torpaqlar sülh yolu ilə alınacaq, dediyindən dönmürdü. Deyirdi, şəhid olsam, Çingiz Mustafayevin "Ana, mən şəhid oldum" mahnısını qoyub qulaq asarsan. Dediyi oldu. Sanki oğlum şəhid olmaq üçün yaşamışdı.

Sveta Ağayeva danışır ki, Horadiz tərəfdəki hərbi hissədə xidmət etmiş Ələkbər general-mayor Polad Həşimov həlak olandan sonra könüllü olaraq orduya yazılıb: – Sentyabrın 21-i telefonuna zəng gəldi ki, hərbi komissarlıqda olmalısan. Mən ona nə sarıldım, nə də görüşdüm. Dedi, təlimə gedib qayıdacam. Amma son gedişi oldu... Cəmi 2 dəfə zəng vurdu, Füzulidə olduğunu dedi. Soruşurduq necəsən, bizim qorxmamağımız üçün düzünü demirdi. Amma atışma səslərini eşidirdim. Oktyabrın 1-də zəng gəldi, Ələkbərin anası olub-olmadığımı soruşdular və heç nə demədən dəstəyi asdılar. Başa düşdüm ki, pis bir şey olub. Sonra evə polis gəldi, onun arxasınca çıxanda küçədə böyük bir izdiham gördüm. Hər şey aydın idi, oğlum şəhid olmuşdu…

***Müşfiq CƏFƏROV***
***XQ***

*XQ: Əziz Əliyevin heykəli hardadır?*

# Tarixdən günümüzə boylanan əzəmətli heykəl

**Bu yaxınlarda "Xalq qəzeti"ndə bir maraqlı yazı diqqətimi cəlb etdi. Tanınmış ictimai xadim, şair, dramaturq, nasir, publisist, tərcüməçi, Əməkdar incəsənət xadimi Hidayət Orucovun "Əziz Əliyevin heykəli hardadır?" adlı məqaləsini birnəfəsə oxuyandan sonra yüksək təəssüratımı qələmə almağa, müəllifin nəcib təşəbbüsünü dəstəkləməyi və düşüncələrimi qəzetin oxucuları ilə bölüşməyi qərara aldım.**

Öncə qeyd edim ki, Hidayət Orucov gənc yaşlarından etibarən yüksək vəzifələrdə çalışıb və ona tapşırılan bütün işləri böyük məsuliyyətlə, vicdanla yerinə yetirib, xalqa, dövlətə, dövlətçiliyə ləyaqətlə xidmət edib. Hidayət müəllim 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, soydaşlarımızın deportasiyası və soyqırımı siyasəti başlayanda etiraz əlaməti olaraq Ermənistan SSR-in Əməkdar mədəniyyət xadimi fəxri adından imtina edib. Dəyərli ziyalımız həmişə vətəndaş mövqeyini ortaya qoyub, xalqı narahat edən problemlərə heç vaxt müşahidəçi, seyrçi mövqeyində qalmayıb.

Adını çəkdiyim məqaləsi də sözlərimin haqlı olduğunu bir daha sübut edir. Məqalədə irəli sürülən Əziz Əliyevə abidə qoyulması ilə bağlı təklifini mən də ürəkdən dəstəkləyirəm.

Azərbaycan tarixində nadir insanlardan, böyük şəxsiyyətlərdən biri də Əziz Əliyevdir. Müasirləri onu "cəmiyyətin təbibi" adlandırırdılar. Necə də dəqiq və yerində deyilmiş sözlərdir. Aristotel yazırdı ki, kim yüksək vəzifə tutmaq istəyirsə, üç keyfiyyətə malik olmalıdır: əvvələ, mövafiq dövlət quruluşuna ürəyi yanmalı; sonra vəzifəyə aid olan öhdəlikləri yerinə yetirmək üçün böyük qabiliyyətə malik olmalı; üçüncüsü, hər bir dövlət quruluşuna müvafiq olan yaxşılıq və ədalətliliyi ilə seçilməlidir. Qədim filosofun həmişə aktual olan kəlamları haqqında söhbət açmaq istədiyimiz Əziz Əliyevə də şamil edilə bilər.

Əziz Əliyev Azərbaycan və Dağıstan xalqlarının unudulmaz oğlu, görkəmli dövlət xadimi və ictimai xadim, alim, tədqiqatçı, XX əsr tariximizdə silinməz izlər qoyan böyük şəxsiyyətlərdən biridir.

Əziz Məmmədkərim oğlu 1 yanvar 1897-ci ildə İrəvan quberniyasında doğulub. 1917-ci ildə gimnaziyanı qızıl medalla bitirib, sonradan Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil alıb. İrəvanda erməni qırğınlarından sonra ailəsi ilə Naxçıvan və Bakı şəhərlərinə köçməli olub. 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini bitirdikdən sonra elmi-pedaqoji fəaliyyətə başlayıb, qabaqcıl tibb kadrlarının hazırlanmasına böyük töhfələr verib.

Gənc yaşlarından yüksək təşkilatçılıq və idarəetmə qabiliyyəti göstərən Əziz müəllim 1929-cu ildə Kliniki İnstitutun direktoru təyin edilib, sonradan Bakı Səhiyyə İdarəsində, Azərbaycan Tibb Universitetində rektor kimi çalışıb. Ötən əsrin 20–30-cu illərində Azərbaycan və Dağıstan ərazisində malyariya tüğyan edirdi. Yoluxucu xəstəlik nəticəsində insanlar şikəst olur, bir çoxları həyatlarını itirirdi. Əziz Əliyevin Azərbaycan SSR-in xalq səhiyyə komissarı işlədiyi illərdə respublikada və Dağıstanın onunla qonşu olan rayonlarında, xüsusən Dərbənd rayonunda qısa müddətdə malyariya əleyhinə stansiyalar və dispanserlər tikildi, avadanlıqla təchiz olundu. Samur-Dəvəçi kanalının keçdiyi yüz kilometrlik ərazidə dava-dərman və tibb işçiləri ilə təmin olunmuş 11 tibb məntəqəsi yaradıldı.

Azərbaycanda milli tibb elminin inkişafı, respublikada səhiyyənin köklü transformasiyası Əziz Əliyevin hansı vəzifədə çalışmasından asılı olmayaraq həmişə onun diqqətində olub. Bunu statistika da sübut edir: o, tibb elmi və səhiyyə sahəsində 67 elmi əsərin müəllifidir.

Əziz Əliyev 1938-ci ildə Ali Sovetin Rəyasət Heyətinin katibi, sonra xalq səhiyyə komissarı olub. Bu illərdə onun rəhbərliyi ilə respublikanın səhiyyə sistemi yenidən qurulub və xəstəliklərə qarşı mübarizə tədbirləri gücləndirilib. Səhiyyə komissarı kimi Əziz Əliyev yerlərdə problemlərin həlli istiqamətində ardıcıl işlər gördü. O, özünəməxsus əzmkarlığı ilə əhaliyə tibbi xidmətin yaxşılaşdırılması yollarının axtarılmasına böyük diqqət yetirirdi. Əziz müəllimin təşəbbüsü ilə bir çox kənd yerlərində tibb məntəqələri, xəstəxanalar açıldı. Respublika Xalq Səhiyyə Komissarlığının nümayəndələri əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin təhlili məqsədilə tez-tez regionlara səfər edir, bu zaman aşkarladıqları problemlər Komissarlığın kollegiyasında müzakirə edilir və yerli səhiyyə orqanlarının işi haqqında toplanmış məlumatlar əsasında müvafiq qərarlar qəbul edilirdi.

1941-ci ilin avqustunda Əziz Məmmədkərim oğlu polkovnik rütbəsində siyasi rəhbər kimi İranın Təbriz şəhərinə – cənub sərhədlərini qorumaq məqsədilə, SSRİ ilə İran arasındakı müqaviləyə uyğun olaraq, oraya yeridilmiş sovet qoşunlarının qərargahına ezam olunur. Əziz Əliyevin rəhbərlik etdiyi siyasi şöbə sərhədyanı rayonların əhalisi arasında böyük təşviqat-təbliğat işi aparır, sovet qoşunlarının İranda müvəqqəti yerləşməsinin məqsəd və vəzifələrini izah edirdi, bu da əhali ilə döyüşçülər və komandirlər arasında sıx dostluq münasibətlərinin yaranmasına səbəb oldu.

Ə.Əliyevin işgüzarlığı, peşəkarlığı, vətənpərvərliyi, insanlarla ünsiyyət qurma bacarığı və bütün sahələrdə yüksək məharət göstərməsi həmin vaxtlar İ.Stalinin diqqətindən kənarda qalmır. SSRİ rəhbərinin təqdimatı ilə faşist Almaniyası ilə şiddətli döyüşlər zamanı – 16 sentyabr 1942-ci ildə Əziz Əliyev Dağıstan MSSR-in Vilayət Partiya Komitəsinin birinci katibi seçilir. 1942-ci ilin avqustuna qədər Şimali Qafqazda olduqca çətin vəziyyət yaranmışdı.



Mahaçqala ön cəbhəyə yaxın şəhər kimi gərgin və narahat həyat yaşayırdı. Bəzi müəssisələr təxliyə olunmuş, respublikada qalanlar isə fəaliyyətini dayandırmışdı. Ordudan yayınma, banditizm və xidmətdən boyunqaçırma hallarına rast gəlinirdi, Dağıstan ərazisində düşmən hücumunun gerçəkləşməsi ehtimalı böyük idi.

1942-ci ilin sentyabrında bu vəziyyət SSRİ Dövlət Müdafiə Komitəsinin iclasında müzakirə olundu və nəticədə Əziz Əliyev Mahaçqala Müdafiə Komitəsinin də sədri seçildi.

Əziz Əliyev rəhbərliyə gəldikdən sonra Dağıstanın siyasi, təsərrüfat və mənəvi həyatında köklü dəyişikliklər baş verdi. O, ilk növbədə, rayonlara səlahiyyətli nümayəndələr göndərdi, yerlərdə mövcud vəziyyətin dərindən öyrənilməsi və lazımi tədbirlərin görülməsi üçün konkret tapşırıqlar verdi. Birinci katib özü də tez-tez bölgələrə səfər edir, yerlərdə vəziyyəti şəxsən yoxlayır, əhali ilə birbaşa ünsiyyətə girirdi.

Yeni rəhbər dərhal vəziyyətə dair ətraflı hesabat hazırladı. Bu sənəddə həm ümumi ölkənin durumu, həm də müharibə şəraitində məhz Qafqazın vəziyyəti təhlil olunmuşdu. Dağıstan cəbhə bölgəsi kimi qiymətləndirilirdi – çünki alman-faşist ordusu artıq Stalinqrad divarları önündə idi və cənuba – Qroznı və Bakı neft yataqlarına doğru irəliləməyə çalışırdı.

Əziz Əliyev respublikadakı partiya və sovet kadrlarının fəaliyyətini qiymətləndirərkən məsuliyyətin olmaması, laqeydlik və arxayınlıq hallarını sərt şəkildə tənqid etdi. Respublikada antisovet elementlər fəallaşmışdı, faşist kəşfiyyatının agentləri regionlara göndərilirdi, bəzi rayonlarda əhalinin siyasi-mənəvi durumu qənaətbəxş deyildi. Dezertirlik, banditizm halları artır, müəssisə rəhbərlərinə, kolxoz fəallarına qarşı terror aktları törədilirdi. Bəzi bölgələrdə banditlər kolxozları qarət edir, müdafiə qurğularının tikintisinə gedən insanlara hücum edir, rabitə xətlərini sıradan çıxarır, məktəbləri yandırırdılar.

Bu mürəkkəb şəraitdə respublikanın partiya və sovet təşkilatlarından sənaye və nəqliyyat resurslarının cəbhənin ehtiyaclarına yönəldilməsi üçün təxirəsalınmaz və effektiv tədbirlərin görülməsi tələb olunurdu. Ərzaq istehsalı artırılmalı, əməkçi xalq müdafiə qurğularının inşasına səfərbər edilməli, Dağıstanda formalaşdırılan hərbi hissələr hərtərəfli təmin olunmalı idi. Xəstəxanaların şəbəkəsinin genişləndirilməsi, ağır yaralıların yerləşdirilməsi, işğal olunmuş ərazilərdən köçürülən insanlara yardım göstərilməsi də prioritet məsələlər sırasında idi.

Əziz Əliyevin rəhbərliyi ilə Dağıstanın bütün potensialı cəbhənin və arxa cəbhənin təminatına yönəldildi. Əkin sahələri genişləndirildi, kənd təsərrüfatı məhsullarının plan üzrə yığılması təmin edildi, ərzaq və geyim məhsulları cəbhəyə göndərildi. Onun təşəbbüsü ilə qadınlar və gənclər arasında xüsusi hərəkata başlanıldı – qadınlar arxa cəbhədə kişiləri əvəz edir, gənclər isə təlimlərə cəlb olunurdular.

İnsanları mənəvi baxımdan yaxşı tanıyan, onlara obyektiv qiymət verməyi bacaran ümummilli lider Heydər Əliyev Əziz Əliyevin həyat və fəaliyyətinə yüksək dəyər verərək demişdir: "Açığını deyək ki, o vaxtlar Əziz Əliyev Azərbaycan dövlət xadimləri arasında ali təhsili olan, ziyalılığı, zəngin elmi biliyi ilə fərqlənən bir neçə adamdan biri, bəlkə də yeganə adam idi. Bütün bu keyfiyyətlər qısa müddətdə Dağıstanda vəziyyəti sabitləşdirməkdə, bu respublikanın xalqını Qafqazın müdafiəsi üçün birləşdirməkdə ona kömək etdi. Dağıstanlılar Əziz Əliyev başda olmaqla və bizim ordumuzla, ovaxtkı sovet ordusu ilə birlikdə çox böyük vəzifəni yerinə yetirdilər. Onlar Qafqazı müdafiə etdilər, faşist qoşunlarını irəliləməyə qoymadılar, Bakı neftini xilas etdilər".

Bir neçə fakta da müraciət edək. Əziz Əliyev 1942-ci ildə Mahaçqala Müdafiə Komitəsinə rəhbərlik etmiş, 13 partizan dəstəsi, bir neçə istehkam batalyonu və 700 xalq müqavimət birliyi yaratmışdı. Bu fəaliyyətlərdə təxminən 10 min nəfər insan iştirak etmişdir. 150 mindən çox dağıstanlı müdafiə tikintilərində – Sulak və Terek çaylarının sahillərində, Mahaçqala və Dərbənd ətrafında fəal iştirak etmişdir. Bu əməyə görə 30 min insana orden və medallar təqdim edilmişdi. Əziz Əliyev burada işlədiyi müddətdə Dağıstanın cəbhədən təxliyə edilmiş əhalisinə dəstək vermiş, yüz minlərlə insan üçün yemək, geyim, tibbi xidmət təşkil etmişdi. Qadınlara, uşaqlara, uşaqlı ailələrə xüsusi qayğı göstərilirdi.

Birinci katib hərbi qulluqçuların və cəbhədə olanların ailələrinə daim diqqət göstərirdi. Hərbi qulluqçuların ailələrinin 5 mindən çox üzvü işlə təmin olunmuşdu. 2 minədək ailəyə fərdi bostan yeri verilmiş, 30 min ailəyə maddi kömək göstərilmişdi.

Əziz Əliyevin təşəbbüsü ilə 1943-cü ilin dekabrında Dağıstan Dövlət Filarmoniyası yaradıldı və 1944-cü ilin yanvarından fəaliyyətə başladı. 1945-ci ildə SSRİ Elmlər Akademiyasının Dağıstan bazasının yaradılması respublikanın həyatında mühüm hadisə oldu. İndi o, iri elmi ocağa - Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinə çevrilmişdir. Dağıstanda qadınlardan milli kadrlar hazırlamaq üçün Əziz Əliyevin bilavasitə iştirakı ilə Qadın Müəllimlər İnstitutu və Qadın Pedaqoji Məktəbi, habelə Məktəblər İnstitutu, Uşaq Kitab Nəşriyyatı açılmışdı. Müharibə illərində dağıstanlıların göstərdikləri əmək rəşadətinə görə respublikaya ilk dəfə Dövlət Müdafiə Komitəsinin Keçici Qırmızı Bayrağı verilmişdi.

Tanınmış səhiyyə təşkilatçısı kimi o, özünün zəngin təcrübəsini Dağıstanda da tətbiq edərək, təxliyə-hospital sisteminin fəaliyyətini yaxşılaşdırmağa nail oldu. Onun tövsiyəsi ilə partiya komitələri hospital sistemində növbətçilik təşkil etdi, onların qida, dərman və yanacaqla fasiləsiz təminatına nəzarət gücləndirildi. Respublika ərazisində 15-dən artıq belə hospital fəaliyyət göstərirdi. Müharibə illərində bu hospitallarda 135 min yaralı müalicə olunmuşdu, onlardan 100 mini sağalıb döyüşə qayıtmışdı.

Əziz Əliyevin təşəbbüsü ilə respublikada, həmçinin düşməndən azad olunmuş şəhər və rayonlara yardım Fondu yaradılmışdı. Bu fond vasitəsilə Şimali Qafqaz və Ukrayna SSR-in müxtəlif bölgələrinə ərzaq, geyim və sənaye malları göndərilirdi. Dövlət Müdafiə Komitəsinin 1943-cü il 16 fevral tarixli qərarına əsasən, Dağıstanda yerləşən müəssisələrin avadanlıqları Donbasdakı metallurgiya müəssisələrinin bərpası üçün göndərilməli idi və bu işi şəxsən Əziz Əliyevin rəhbərlik etdiyi xüsusi komissiya həyata keçirirdi.

Həmin dövrdə Dağıstanın sənaye və kənd təsərrüfatı potensialının artırılması istiqamətində də ciddi addımlar atıldı. Müharibə şəraitində bütün SSRİ üzrə olduğu kimi, Dağıstanda da əsas prioritet arxa cəbhənin gücləndirilməsi idi. Əziz Əliyev bu prosesi hərtərəfli şəkildə təşkil edərək, sənaye müəssisələrinin, xüsusən də qida və yüngül sənaye sahələrinin fəaliyyətinin fasiləsiz davam etməsini təmin etdi. Onun təşəbbüsü ilə Dağıstanda konserv zavodları, tikiş fabrikləri, çörəkbişirmə müəssisələri yaradıldı. Müəssisələrə qadınlar və yeniyetmələr cəlb olunurdu, əmək bölgüsü yenidən qurulurdu.

Kənd təsərrüfatında isə əsas diqqət ərzaq istehsalının artırılmasına yönəldilmişdi. Həmin dövrdə Dağıstanın çətin təbii-coğrafi şəraitinə baxmayaraq, əkin sahələri genişləndirilmiş, yeni suvarma sistemləri qurulmuşdu. Əziz Əliyevin göstərişi ilə kolxoz və sovxozlar arasında təşəbbüskarlığı və əmək məhsuldarlığını artırmaq üçün sosialist yarışları təşkil olunurdu. Nəticədə, Dağıstan müharibə illərində SSRİ üzrə taxıl, tərəvəz və meyvə məhsullarının əsas təchizatçılarından birinə çevrilmişdi.

Əziz Əliyevin fəaliyyətinin mühüm bir sahəsi də milli kadrların hazırlanması və respublikada təhsilin inkişaf etdirilməsi olmuşdur. Onun təşəbbüsü ilə Dağıstan Pedaqoji İnstitutunun fəaliyyəti genişləndirildi, müəllim hazırlığı sahəsində yeni ixtisaslar açıldı. Məktəblərdə tədrisin fasiləsizliyi təmin olundu. İbtidai və orta məktəblərdə tədris dili kimi yerli xalqların dilləri ilə yanaşı, rus dilinin tədrisi də təkmilləşdirildi. Əziz Əliyev yerli ziyalıların, alimlərin və müəllimlərin fəaliyyətinə böyük önəm verir, onların təşviqi və qorunması üçün tədbirlər görürdü.

Xalq yaradıcılığına, mədəniyyətə və ədəbiyyata olan münasibət də onun siyasətində mühüm yer tuturdu. 1943-cü ildə Dağıstanın bir sıra yazıçı və şairlə-



12 BAXIŞ BUCAĞI Xalq qəzeti

Əziz Əliyevin heykəli hardadır?

Hidayət,
Əməkdar incəsənət xadimi

rinin Moskvada, Leninqradda və digər şəhərlərdə çıxış etməsi, onların əsərlərinin çap olunması və təbliği məhz Əziz Əliyevin dəstəyi ilə həyata keçirilmişdi. O, çoxmillətli Dağıstanın mədəni birliyinin qorunmasına və inkişafına çalışır, etnik qruplar arasında qarşılıqlı anlaşmanı təşviq edirdi.

Əziz Əliyev həm də antifaşist ideologiyanın təbliğində fəal rol oynayırdı. O, müntəzəm olaraq partiya təşkilatlarında, sovet idarələrində və kütləvi tədbirlərdə çıxış edir, müharibə dövründə əhalini səfərbər edən, vətənpərvərlik ruhunu gücləndirən nitqlər söyləyirdi. O, Dağıstan xalqlarının Sovet dövlətinə və onun rəhbərliyinə sədaqətini dəstəkləyir, ölkədəki milli həmrəyliyin nümunəsini bu respublikada formalaşdırmağa çalışırdı.

1942-ci ildə Krım tatarlarının deportasiyasından sonra müharibənin qızğın vaxtında, Moskvadakı müəyyən qüvvələr Qafqaz xalqlarının Orta Asiyaya köçürülməsi məsələsini SSRİ Dövlət Müdafiə Şurası qarşısında qoymağa hazırlaşırdılar və ilk seçim Dağıstan xalqlarının üzərinə düşürdü. Əziz Əliyevin fədakarlığı sayəsində müharibə illərində və sonra bu respublikada heç bir neqativ fakt meydana çıxmadı. Beləliklə, Dağıstan xalqlarının köçürülməsi məsələsi bir daha qaldırılmadı.

1944-cü ilin sonlarına yaxın Əziz Əliyev artıq bütün SSRİ rəhbərliyi tərəfindən tanınan və hörmət edilən bir dövlət və partiya xadiminə çevrilmişdi. Onun rəhbərliyi ilə Dağıstan yalnız müharibə sınağından çıxmadı, eyni zamanda, gələcək inkişaf üçün möhkəm bünövrə qazandı. Artıq Dağıstan həm müharibədən qorunmuş, həm də inkişaf etmiş bir regiona çevrilmişdi. Onun modeli yalnız o dövr üçün deyil, bu gün də nümunəvi olaraq qiymətləndirilir.

Dağıstanın Xalq şairi Rəsul Həmzətov şahidi olduğu bir hadisədən bəhs edirdi. O, uzaq Qunibdə ezamiyyətdə olanda Mahaçqalaya qayıtmaq vaxtı çatır. Həmin səfərdə onunla birgə bir dağlı qadın da xidməti ezamiyyətdən qayıdırmış. Çətin illərin sərt qış günü imiş. Yük maşınının kuzovuna xeyli adam doluşur. Bir-birilərinə sığınıb maşının tərpənməsini gözləyirlər. Dağlı qadını isə hörmət əlaməti olaraq kuzova deyil, kabinəyə mindirirlər.

Bu vaxt məsul vəzifəli bir şəxs də onlarla Mahaçqalaya gedir. Həmin şəxs məmura yaraşmayan kobud ədа ilə qadından kabinədən düşməyi tələb edir. Qadın etiraz edərək düşməyəcəyini bildirir. Məmur maşını saxlatdırıb, gözlənilmədən qadının paltosunu və çamadanını kənara atır. Çünki kuzovda getməyi özü üçün aşağılıq sayır. Hamı bu vəziyyətdən pərt olur. Maşın artıq yola düşür. Rəsul Həmzətov öz paltosunu çıxarıb qadına verir. Onlar Mahaçqalaya çatırlar.

Qadının yazdığı məktub əsasında Əziz Əliyev əhvalatdan xəbər tutur. O, Rəsul Həmzətovu yanına çağırtdırıb, bərk danlayır: "Öz paltonu qadına verdiyinə görə çox sağ ol! Amma bir şair və dağlı kimi nə üçün o şəxsin qabalığının qarşısını vaxtında almamısan! Bu biabırçılıqdır!".

Şair isə özünə haqq qazandırmağa çalışır ki, gəncəm, üstəlik də... o, məsul vəzifəli şəxsdir...

Əziz Əliyev zəng edib prokuroru yanına çağırtdıraraq əmr edir:

– Cəzalandırın!!!

– Axı, o... prokuror kəkələyir...

– Onun üçün daha pis! Bu, lovğalıq və vicdansızlıqdır! Əgər məsul vəzifəlilər dağlı qadınlara bu cür yanaşsalar, işimiz irəli getməz!

Bu əhvalat Rəsul Həmzətovun yaddaşına həmişəlik həkk olundu. Əziz Əliyevin bu hərəkəti ibrətamiz idi və onun yüksək insani keyfiyyətlərindən, prinsipiallığından xəbər verirdi.

Əziz Əliyev dəfələrlə SSRİ, Azərbaycan SSR və Dağıstan MSSR ali sovetlərinin deputatı seçilmiş, ölkənin ən yüksək mükafatları ilə təltif edilmişdir. Amma onun qazandığı ən böyük mükafat xalqın dərin hörməti və məhəbbəti oldu. Əziz Əliyev harada olursa-olsun, hansı vəzifəni tutursa-tutsun, onun bir məqsədi, bir amalı vardı - Vətənə, xalqa sədaqətlə xidmət göstərmək, öz yüksək vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirmək. Əziz müəllim həyatının sonuna qədər bu amalına, bu məsləkinə sadiq qaldı, heç bir çətinlik, heç bir repressiya onu saf niyyətindən, işgüzar fəaliyyətindən, doğru yoldan sapdıra bilmədi.

14 may 1998-ci ildə Bakıda Azərbaycanın görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir: "Bugünkü təntənə, Əziz Əliyevin 100 illiyinə həsr olunmuş, Dağıstanda və Azərbaycanda keçirilmiş yubiley tədbirləri xalqlarımız, ölkələrimiz, dövlətlərimiz arasında, insanlar arasında olan səmimi, dostluq münasibətlərini bir daha nümayiş etdirir. Əziz Əliyev özünün çoxcəhətli fəaliyyəti, humanizmi və qayğıkeşliyi sayəsində Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvollarından birinə çevrilmişdir".

Bütün bunlar Əziz Əliyevin tarixdən bugünümüzə boylanan əzəmətli heykəli deyilmi? Dağıstanda bu heykəl ürəklərdən meydana köçüb. Bəs onun öz vətənində belə bir heykəlini niyə görmürük?

Sonda bir daha hörmətli Hidayət Orucovun "Xalq qəzeti"ndə çap olunmuş "Əziz Əliyevin heykəli hardadır?" məqaləsinə öz münasibətimi bildirərək, Bakı şəhərində Əziz Əliyevin abidəsinin ucaldılması təklifini dəstəklədiyimi bildirirəm. Bu görkəmli dövlət və ictimai xadimin, xalqın sevimlisinin, ürəklərdə, qəlblərdə və xatirələrdə özünə şərəfli yer tutmuş soydaşımızın abidəsinin paytaxtımızda ucaldılması bütün ziyalılarımızın arzusudur.

İnanırıq ki, məqalədə irəli sürülən, zamanın tələbini ifadə edən həmin təklif Azərbaycan ictimaiyyətinin ümumi dəstəyi və ölkə rəhbərliyinin xoş məramı ilə tezliklə gerçəkləşəcək!

***İradə HÜSEYNOVA,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor, Əməkdar müəllim***

# Ağrıdan süzülən işıq

## *Mahirə Nağıqızının yaradıcılığı poeziya və nəsrin qovşağında*

**Azərbaycan ədəbiyyatı özünün zəngin lirika ənənələri ilə yanaşı, sosial-tarixi proseslərin poetik inikasına da xüsusi həssaslıqla yanaşır.**



Xüsusilə XX əsrin sonu və XXI əsrin əvvəllərində baş verən hadisələr – müharibələr, məcburi köçkünlük, milli azadlıq hərəkatı – ədəbiyyatımızın əsas bədii istiqamətlərindən birinə çevrilmişdir.

Bu kontekstdən yanaşanda şairə Mahirə Nağıqızının yaradıcılığı xüsusilə diqqət çəkir. Onun şeirləri və hekayələri milli yaddaşla fərdi psixologiyanın sintezini yaradır, ictimai dərdlə şəxsi ağrının poetik paralelini qurur.

Müəllif lirikanın emosional gücünü, nəsrin realist təsvir imkanlarını birləşdirərək həm bədii-estetik, həm də psixoloji dəyəri yüksək mətnlər ortaya qoyur.

İş masamın üzərində Mahirə Nağıqızının üç kitabı var: "Salam olsun", "Onun daş nağılı" və "Lövbər adam". Bu kitabların hər birində milli ruh və fərdi duyğuların vəhdəti poeziya və nəsrin qovşağında yüksək bədii sənətkarlıqla təqdim edilib.

Mahirə Nağıqızının şeirlərində Vətən yalnız coğrafi məkan deyil, millətin ürəyində yaşayan ana obrazı, qəhrəman oğulların qanı ilə suvarılan müqəddəs bir məkandır. Onun poeziyasında zəfər səsləri sanki xalqın yaddaşından boylanan dastan kimi dirilir, hər misrada qürurla qovuşan milli birlik duyulur.

Şairin söz dünyasında ağrı ilə qələbə, göz yaşı ilə fəxarət qovuşur və bu qovuşma




hər bir azərbaycanlının qəlbində ölməz bir zəfər poetikası yaradır.

Mahirə Nağıqızının "Azərbaycanım", "Salam olsun", "Tarix yazan əsgər" şeirləri vətənpərvərlik lirikasının parlaq nümunələridir. Bu mətnlərdə şairin istifadə etdiyi poetik simvol, epitet və metaforalar, həmçinin intonasiya ritmikliyi milli qəhrəmanlıq ovqatını gücləndirir. İdeya-məzmun səviyyəsində bu şeirlər xalqın milli həmrəyliyini, zəfərə aparan iradəsini bədii kodlara çevirir:

***Hərə bir ərə döndü,***
***Sana, Azərbaycanım!***
***Millət əsgərə döndü,***
***Ana Azərbaycanım!***
***Füzuliyə çatmışam,***
***Canına can qatmışam.***
***Düşmanı boyatmışam,***
***Qana, Azərbaycanım!***

Bu bəndlərdə xalqın bütöv şəkildə mübarizəyə qoşulması və qələbənin poetik simvolikası ifadə olunmuşdur.

"Salam olsun" şeirində isə qəhrəmanlara yönələn ehtiram diqqət çəkir:

***Ey tarixi sətir-sətir yaradanlar,***
***Nə şanlısız, şanınıza salam olsun!***
***Otuz ildən sonra güldü növrağımız,***
***Dalğalandı Şuşada al bayrağımız,***
***Qurban olum hamınıza, salam olsun!***

Burada tarixi yaddaş motivi və "salam" arxetipi milli qürurun poetik ifadəsinə çevrilir. Burada həm tarixi dəqiqlik, həm də poetik rəmz vardır: Bayraq xalqın azadlıq rəmzi, milli qürurunun təcəssümüdür.

Son misra – "Qurban olum hamınıza, salam olsun!" – xalq dilinin səmimiyyətini, içdən gələn minnətdarlığı ifadə edir. Bu sözlər yazılı ədəbiyyatla xalq danışıq üslubunun qaynayıb-qarışdığı yerdir.

"Tarix yazan əsgər" şeirində isə əsgərin simvolik obrazı yaradılır:

***Azərbaycan sərhədçisi, gözlə səddi,***
***Qoru onu gözün kimi, dayağı ol!***
***Bu gün sənsən, mənəm, odur – tarix yazan,***
***Bu da olsun o kitabdan bircə varaq.***

Əsgərin fəaliyyəti Vətən kitabının səhifəsinə çevrilir. Bu parçada Azərbaycan sərhədçisinin vətənpərvərliyi və müqəddəs vəzifəsi bənzərsiz poetik dillə ifadə olunub.

"Gözlə səddi" və "qoru onu gözün kimi" kimi metaforalar sərhədçini sadəcə fiziki qoruyucu yox, vətənin canlı gözü, dayağı və əzəmətli simvolu kimi təqdim edir.

Müəllif obraz vasitəsilə oxucuda vətənə bağlılıq və məsuliyyət hissini oyadır, hər bir fərdi bu müqəddəs vəzifənin dəyərini dərk etməyə çağırır. Parçada həmçinin tarix və qəhrəmanlıq motivi də işlənmişdir: "Bu gün sənsən, mənəm, odur – tarix yazan" misrası göstərir ki, sərhədçilərin fəaliyyəti Vətən tarixində əbədiləşir, onların qəhrəmanlığı unudulmazdır. Ümumilikdə, bu parça poetik dil, güclü metaforalar və vətənpərvərlik ideyası ilə oxucuda dərin emosional təəssürat yaradır və milli şüuru gücləndirir.

"Buludların gətirdiyi qınaq" və "İsmarlanan dua" isə fərdi və psixoloji lirikanın nümunəsi kimi bədii zövqümü oxşadı:

***Alıb havasını Alagöllərin,***
***Laçını, Şuşanı dolanıb gəlib.***
***Nəyə tələsirsən, hara yağırsan,***
***Kimə qəzəblisən, payız yağışı...***

Bu parçada təbiət obrazları vasitəsilə insan duyğularının və mövsümlərin poetik təsviri təqdim olunur. İlk misralarda həm təbiətin gözəlliyini, həm də fərqli coğrafi zonaların xarakterini göstərir; oxucuda vizual təsir yaradır.

"Nəyə tələsirsən, hara yağırsan, Kimə qəzəblisən, payız yağışı…" misralarında isə müəllif insan emosiyalarını təbiətlə paralel şəkildə təqdim edir. Payız yağışı tələsik və qəzəbli bir obraz kimi canlandırılır, bu da oxucuda həm təbiətin həm də insanın duyğu dünyasının sürətlə dəyişdiyini hiss etdirir.

Ümumilikdə, parça poetik dil, canlı metaforalar və personifikasiyalar vasitəsilə təbiətin gözəlliyi və insan hisslərinin əlaqəsini göstərir. Müəllif oxucunu həm vizual, həm də emosional səviyyədə təsirləndirir, təbiət ilə insan arasındakı harmoniyanı, eyni zamanda onun dinamizmini poetik üslubda təqdim edir.

***Dolanıb haradan, gəlib hayandan,***
***Bir bulud ömrüynən yorğun, qaralmış?***
***Keçib Xocalıdan, Kərkicahandan,***
***Yaralar görübdü qaysaqlanmamış.***

Bu bəndlərdə isə təbiət hadisələri tarixi faciələrin metaforik daşıyıcısına çevrilir.

"İsmarlanan dua" şeirində sevginin gizli etirafı dua forması ilə təqdim olunur:

***Yuxudan durdumu, hər səhər erkən,***
***Sənə ismarlayır dualarını.***
***Allahdan aşağı, bəndədən uca –***
***Adını bir nəfər ucadan çəkir.***

Bu nümunələr poeziyada sevginin ali məqama yüksəldilməsini göstərir.

"Millətin bağrında bitən il" və "Şəhid anasına məktub" isə tarixi-poetik lirikanın bariz örnəkləri kimi diqqəti cəlb edir.

***Bu ili sən yazdın əbədiyyətə,***
***Silinməz, qopsa da tufanlar əgər.***
***Millətin bağrında əbədi, əsgər.***

Bu misralar 2020-ci ilin tarixi əhəmiyyətini "əbədiyyətə yazılan il" obrazı ilə ifadə edir.

"Şəhid anasına məktub" isə güclü lirik-epik təsir gücünə malikdir:

***Bir ana qəlbinə əkilənləri,***
***Ancaq qəlbin bilər, danışar sənə.***
***Oturar məclisdə, yuxarı başda,***
***O balan, əynində şəhid libası.***

Burada ana qəlbinin psixoloji faciəsi bədii-estetik təsir gücü ilə oxucunun emosional dünyasına hopdurulur. Bu parça ana sevgisi və şəhid övladın itkisi mövzusunu poetik dillə ifadə edir. "Bir ana qəlbinə əkilənləri, ancaq qəlbin bilər" misrası duyğuların dərinliyini göstərir; burada müəllif ana hisslərinin sirlərini və onların yalnız ana tərəfindən tam dərk edilə biləcəyini vurğulayır. Ana qəlbi obrazı həm şəfqət, həm də kədər simvolu kimi təqdim olunur.

"Oturar məclisdə, yuxarı başda" misrası isə sosial və rituallarla bağlı mədəni kodları əks etdirir. Şəhid övladın yeri məclisdə simvolik olaraq yüksək tutulur, bu, həm hörmət, həm də itkini ön plana çıxarır. Burada məclis sadəcə fiziki məkan deyil, eyni zamanda milli və emosional yaddaşın ifadəsidir.

Bu şeirdə müəllif oxucuda həm emosional, həm də fəlsəfi düşüncə oyadır, ana qəlbinin sirlərini və şəhid övladın müqəddəsliyini poetik üslubda ön plana çıxarır.

Mahirə Nağıqızının bayatıları haqqında ayrıca söz açmaq istərdim. Onun bayatılarında lirizm əsas yer tutur; o, şəxsi duyğu və hissləri sadə, eyni zamanda dərin poetik ifadələrlə çatdırır, oxucuda həm duyğulu, həm də estetik təəssürat yaradır.

Bayatılarda xəlqilik motivi də diqqəti cəlb edir; xalqın adi həyatından, gündəlik düşüncələrindən və milli dəyərlərindən ilhamlanan obrazlar müəllifin poetik dilində son dərəcə səmimi şəkildə təqdim olunur.



Mahirə Nağıqızı təkcə şair deyil, həm də istedadlı nasirdir. Onun "Mələk", "Canavar" və "Daş" hekayələri nəsr yaradıcılığının ideya və forma baxımından poetik lirika ilə səsləşdiyini göstərir.

"Mələk" hekayəsi realizmlə lirizmin sintezidir. Burada müəllif uşaq psixologiyasının bədii rekonstruksiyasını açır. Mələyin anasına bağlanma jestləri – gecəköynəklərin sancaqla birləşdirilməsi, anasının ayaqlarına sarılması – yazıçının psixoloji detallarla obrazları xarakterizə etməsinin parlaq nümunələridir. Hekayənin kulminasiyasında ana obrazının övladını tərk etməsi insanın fərdi ehtirası ilə valideyn məsuliyyəti arasında faciəvi məqamı açır.

"Canavar" hekayəsində isə müəllif təbiət obrazını (canavarı) simvolik-alleqorik məna ilə yükləyir. Canavar bir tərəfdən real kənd həyatının gerçək təhlükəsidir, digər tərəfdən isə insan taleyində qəfil zərbələrin metaforasıdır.

Müəllifin "Daş" hekayəsi isə simvolik realizm nümunəsi kimi diqqət çəkir. Burada "qızıl" və "daş" antitezası insan tamahı ilə həyat həqiqətləri arasındakı ziddiyyəti açır. Əzim obrazı psixoloji portret kimi işlənir: onun illərlə qızıllara bağlanması və son anda "daş"la qarşılaşması daxili faciəni ortaya çıxarır. Əsmərin sakit reaksiyası isə qadın müdrikliyi motivinin ifadəsidir.

Mahirə Nağıqızının yaradıcılığı Azərbaycan ədəbiyyatında milli ruhun və fərdi psixologiyanın bədii sintezini təşkil edir. Onun poeziyasında xalqın tarixi mübarizələri ilə insanın şəxsi duyğuları bir-birinə qarışır; hekayələrində isə realist həyat hadisələri simvolik-fəlsəfi qatlarla zənginləşir.

Mahirə Nağıqızının şeirləri ağrını poetik işığa, hekayələri isə gündəlik həyat hadisələrini fəlsəfi düşüncəyə çevirir.

Mahirə Nağıqızının şeirləri yalnız sözlərin ritmi və musiqisi ilə deyil, həm də duyğuların dərin qatlarını işıqlandırmaq gücünə malikdir; o, ağrını, kədəri və həyatın ziddiyyətlərini incə poetik işığa çevirir, oxucunu həm hiss etməyə, həm də düşünməyə dəvət edir.

Onun hekayələrində isə gündəlik həyat hadisələri sadəcə baş verənlər kimi təqdim olunmur, əksinə, müəllif onları fəlsəfi düşüncənin prizmasından keçirərək insan ruhunun mürəkkəb qatlarını, seçimlərin çətinliyini və əxlaqi dilemmaları aydın şəkildə göstərir.

Mahirə Nağıqızı öz əsərlərində yalnız milli poeziyanın ənənəsini davam etdirmir, həm də bu ənənəyə fərdi və səmimi nəfəs gətirərək onu yeni estetika ilə zənginləşdirir; onun dili həm zərif, həm emosional, həm də dərin mənalıdır.

Müəllif həm poeziyanın incə poetik dili, həm də hekayələrinin fəlsəfi dərinliyi ilə müasir ədəbiyyatımızın parlaq simalarından birinə çevrilmişdir; onun əsərləri oxucunu düşündürür, qəlbini titrədir və hər birimizi həyatın, duyğuların və milli kimliyimizin mürəkkəb mənzərəsi ilə üz-üzə qoyur.

Mahirə Nağıqızı hazırda öz yaradıcılığı ilə həm milli poeziyanın ənənəsini davam etdirir, həm də bu ənənəyə yeni, özünəməxsus, fərdi və səmimi nəfəs gətirir.

***Hüseynbala MİRƏLƏMOV***

*XI Bakı Beynəlxalq Kitab Sərgisi*

**Dünən kitabsevərlərlə növbəti görüşə gələn 11-ci Bakı Beynəlxalq Kitab Sərgisi miqyası və xarici iştirakçıların çoxluğu ilə seçilir. "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr edilən builki sərgidə 23 dövlətdən 68 xarici təşkilat və xarici nümayəndə heyəti təmsil olunur. İspaniya, Küveyt və İndoneziya kimi ölkələrin rəsmiləri ilk dəfə olaraq sərgidə iştirak etməklə tədbirin coğrafiyasını daha da genişləndirib.**

# Dünya kitabı Azərbaycan paytaxtında

Açılış mərasimində Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu bildirdi ki, beynəlxalq miqyasda keçirilən sərgi mədəni potensialımızı, nəşriyyat işinin inkişafını və dünya ədəbiyyatı ilə əlaqələrin möhkəmlənməsini göstərir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli qeyd etdi ki, belə sərgilər mədəni həyatımızda mühüm hadisədir. Kitab sərgisi oxu mədəniyyətinin inkişafına, mütaliə vərdişlərinin güclənməsinə, elmi və ədəbi fikir mübadiləsinə geniş imkanlar yaradır. Sərgi yalnız kitab təqdimatları ilə məhdudlaşmır. Burada uşaqlar və böyüklər üçün maraqlı ustad dərsləri, yazıçı və şairlərlə imza günləri, eləcə də konfrans, simpozium və müsabiqələr keçirilir. Ənənəvi kitab müzakirələri ilə yanaşı, inklüziya, təhsil, müasir ədəbiyyat tendensiyaları kimi aktual mövzular da diqqət mərkəzinə çıxarılır.

**30 ildən çoxdur xəttatlıqla məşğul olan Tahir Ələkbərovun təmsil etdiyi "Azgallery" sərgidə maraqlı stendlərdəndir.** Sənətkar qeyd etdi ki, xəttatlıq, yaxud xoşnəvislik, sadəcə, yazı texnikası deyil, bir sənət fəlsəfəsidir: – "Onu həm "nəfis məktub incəsənəti", həm də təsviri sənətin bir qolu adlandırmaq olar. Əsas mahiyyəti isə işarələrin ekspressiv, harmonik və zövqlə tərtibatıdır. Bu sənətə gənclik illərimdən vurğun olmuşam. Hər bir xəttin öz ruhu, öz melodiyası var. Bu, məni hər zaman cəlb edib. Xəttatlıq kitab mədəniyyəti ilə sıx bağlı olduğuna görə bu sərgiyə qoşuldum.

Xəttatlığın ən mükəmməl növlərindən olan Nəsx xətti XII əsrdə ibn Muğla Şirazi tərəfindən kufi xəttinin təkmilləşdirilməsi nəticəsində meydana gəlib. Maraqlısı budur ki, "nəsx" sözü də kufi xəttini sıradan çıxardığı üçün verilib. Onun əsas üstünlüyü sadəliyi, rahat oxunuşu və asan yazılışıdır. Bu səbəbdən də əsrlər boyu bədii və elmi əsərlərin, əlyazmaların köçürülməsində geniş istifadə olunub. Hətta Naxçıvan ərazisindəki daş kitabələrdə və qədim əlyazmalarda bu xəttə tez-tez rast gəlinir.

"Süls" xəttindəki süls sözünün isə lüğəvi mənası "üçdə bir" deməkdir. Bu klassik xətt növü X əsrdə məşhur ərəb xəttatı Əbu Əli Məhəmməd ibn Muğla tərəfindən yaradılıb. Süls xətti vizual baxımdan daha monumental və estetikdir.

Həmin dövrdə kitab sənəti təkcə dini deyil, həm də elmi-mədəni həyatın mühüm hissəsi idi. Marağa, Təbriz, Sultaniyə və Şamaxı şəhərlərində kitab tərtibatı ilə məşğul olan sənətkarlar fəaliyyət göstərirdilər. Bu mərkəzlərdə kitabxanaçılıq, əlyazma köçürmə və xəttatlıq bir növ intibah dövrünü yaşayırdı. Azərbaycan bu baxımdan zəngin mədəni ənənəyə malikdir.

**Xəttat sonda dedi:**

– Bu gün də texnologiyanın inkişafı əl yazısını kölgədə qoyub. Amma xəttatlıq heç vaxt dəyərini itirmir. Əksinə, sənət kimi qiyməti daha da artır. Çünki burada həm estetik gözəllik, həm də mənəvi dərinlik var. Gənclər arasında maraq az olsa da, inanıram ki, bu sənəti sevənlər onu davam etdirəcəklər.'

Son illərdə Bakı Beynəlxalq Kitab Sərgisi təkcə yerli oxucular deyil, həm də dünya kitab sənayesinin oyunçuları üçün önəmli görüş nöqtəsinə çevrilib. Bu il iştirakçı ölkələrin və tədbirlərin sayının artması isə Azərbaycanın mədəniyyətlərarası dialoq və ədəbiyyat mübadiləsində rolunu daha da gücləndirir.

**"East China Normal University Press" stendində isə Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Dinq Tao ilə söhbət etdik:**

– Sərgidə ailə və milli-mənəvi dəyərləri əks etdirən kitabların gənclərin diqqətini çəkməsi vacibdir. Ailə və ənənələr haqqında kitablar gənclərə köklərini xatırladır, milli-mədəni dəyərləri anlamağa yardım edir. Ölkəmin Azərbaycanla sosial sahədə fikirlərinin üst-üstə düşdüyü məsələlərdən biri də ailə və milli dəyərlər mövzusudur.

Azərbyacan Prezidenti İlham Əliyev tez-tez Çin mediasına müsahibə verəndə, eləcə də çinli rəsmilərlə görüşəndə bildirir ki, Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu, bizim ən böyük sərvətlərimizdən biridir. Azərbaycan cəmiyyəti ənənəvi dəyərlər, ailə dəyərləri üzərində qurulub. Bizim ölkədə, Çində də belədir. Bizdə "Ailə təhsili" haqqında qanun var ki, bu qanun ailə dəyərlərinin qorunmasını, uşaqların tərbiyəsini və nəsillərarası əlaqələrin gücləndirilməsini nəzərdə tutur.

Düşünürəm ki, gənclərin kitaba marağını artırmaqla, eyni zamanda mədəniyyətimizi və ənənələrimizi gələcək nəsillərə ötürə bilərik. Bu sərgi maarifləndirici və milli ruhu gücləndirici platformadır. Gənclərin oxumağa həvəsi bizim mədəni irsimizin davamı üçün ümidvericidir.

Sərgi həm də kitab sənayesinin müxtəlif sahələrini təmsil edən nəşriyyatçılar, agentliklər, yazıçılar və tərcüməçilər üçün beynəlxalq əməkdaşlıq platforması rolunu oynayır. Bu isə yerli kitab bazarının inkişafına, yeni layihələrin yaranmasına və Azərbaycan ədəbiyyatının dünyada daha geniş tanıdılmasına şərait yaradır.

VI sinif şagirdi Süleyman Hidayətov dedi ki, sərgidə dünyanın başqa ölkələrindən gətirilmiş kitabları görmək çox maraqlı idi. Hər kitabın üz qabığı məni başqa dünyaya aparırdı. Ən çox xoşuma gələn macəra kitabları oldu. Kitabların çoxluğu məni həm sevindirdi, həm də seçim etməkdə çətinlik yaratdı. Başa düşdüm ki, kitab oxumaq insanı daha ağıllı edir. Sərgidən çıxanda özümə söz verdim ki, hər gün kitab oxuyacağam. Mənim üçün bu gün ən gözəl günlərdən biri oldu.



**Burada könüllü satıcılarla da həmsöhbət olduq. "Qanun" Nəşriyyatının stendində Tahirə Məmmədova fikirlərini bizimlə bölüşdü:**

– Sərgiyə əsasən gənc nəsil gəlir, qocalar isə çox azdır. Uşaqlar və yeniyetmələr kitabları seçir, üz qabıqlarına heyran qalırlar. Ən çox macəra və fantaziya kitablarına maraq göstərirlər. Sərgidə 200-ə yaxın yerli və xarici nəşriyyat iştirak edir. Mən iştirakçılara "Qanun" nəşrinin kitablarını təqdim edirəm. Onlar hansı kitabın daha maraqlı olduğunu soruşur, bəziləri müəlliflərin imzasını almağa çalışırlar. Sərgi onların kitaba marağını artırır, bu,çox sevindirici haldır.

Son illər gənclərin fəlsəfi və psixoloji kitablara marağı da artıb. İnsanlar özlərini daha yaxşı tanımaq, həyatlarını dəyişmək üçün ədəbiyyata müraciət edirlər. Digər tərəfdən, uşaqlar üçün nağıllara və maarifləndirici kitablara da böyük tələbat var. Mənə görə ən xoşbəxt an, valideynin övladına kitab almasıdır. Çünki uşaqlar kitabla böyüsə, gələcək daha işıqlı olar.

Sərginin xüsusi məqamlarından biri də fəxri qonaq ölkənin Qətər dövləti olmasıdır. Qətər sərgiyə dövlət rəsmiləri, elm və ədəbiyyat xadimləri, həmçinin incəsənət ustalarından ibarət geniş nümayəndə heyəti ilə qatılıb. Bu, yalnız iki ölkə arasında mədəni əməkdaşlığın təzahürü deyil, eyni zamanda Azərbaycan oxucuları üçün Qətər mədəniyyətini daha yaxından tanımaq imkanıdır.

Sərginin Beynəlxalq salonunda təşkil olunan Qətər ekspozisiyası həm ənənəvi mədəni irsi, həm də müasir ədəbiyyat nümunələrini əks etdirir. Burada ziyarətçilər Qətərin zəngin tarixi köklərini, ədəbiyyat və incəsənət sahəsində əldə etdiyi nailiyyətləri, eləcə də çağdaş yazıçıların bədii əsərlərini kəşf edirlər.

Qətərin fəxri qonaq kimi iştirakı Bakı Beynəlxalq Kitab Sərgisinin miqyasını daha da genişləndirir, sərgini yalnız kitab mübadiləsi meydanına deyil, həm də mədəniyyətlərarası dialoq və dostluq platformasına çevirir.

Bir həftə davam edəcək sərgi həm oxucular, həm müəlliflər, həm də kitab sənayesinin nümayəndələri üçün yaddaqalan anlar və yeni imkanlar vəd edir.

***Ləman TƏHMƏZ***
***XQ***

# “Qarabağ”, sən Zəfərin özüsən!





(əvvəli 1-ci səhifədə)

“Qarabağ”ın doğma meydan amilindən, əksər hallarda istifadə etmək ehtimalının az olması tamaşaçılarda bir narahatlıq yaradırdı. Bu narahatlıq əbəs deyildi. Futbol dünyası Bakıya uzun səfərlərə uyğunlaşmasına baxmayaraq, son zamanlar “Qarabağ” səfərdə olduğundan daha çox evdə uduzur. Nəticələr göstərir ki, avrokuboklarda keçirilən son doqquz ev oyunundan yeddisi Azərbaycanın adlı-sanlı komandasının məğlubiyyəti ilə başa çatıb. Qurban Qurbanovun yetirmələri bu oyunlardan beşində ən azı üç qol buraxıblar. Bu müddət ərzində doğma azarkeşləri qarşısında yeganə qələbə İrlandiyanın “Şelburn” və Makedoniya təmsilçisi “Şkendiya” ilə son seçmə oyunlarda olub. Bununla belə, bir gümüş astar var: “Qarabağ” evində keçirdiyi son dörd Avropa matçında on qol vurub.

“Kopenhagen”in Almaniya Bundesliqanın ikincisi ilə 2:2 hesablı heç-heçə oyunaması da Danimarka təmsilçisi üçün Çempionlar Liqasının ilk dövrəsinin müsbət nəticəsi hesab olunurdu. Lakin azarkeşlər komandanın öz səhvləri üzündən son dəqiqələrdə əldən verdikləri qələbədən indiyə qədər heyrət içindədirlər. “Kopenhagen”in müdafiəçisi Pantelis Çatzidiakos matçın 91-ci dəqiqəsində öz qapılarına vurduğu avtoqolla “Bayer”i xilas etmişdi. “Kopenhagen” ölkə çempionatının son beş turunda da yalnız iki qələbə və iki heç-heçə əldə edib ki, bu da Danimarka Super Liqasında titullu bir namizəd üçün qəbuledilməz xal itkisidir.

Şərhçilər yazırdılar ki, “Bayer” Leverkuzenlə oyun üçün danimarkalıların heyəti optimal deyildi. Zədələrə görə iki əsas oyunçu yox idi: Kopenhagenin ovaxtkı ən yaxşı bombardiri Maqnus Mattsson və əvvəllər yalnız Avrokubok matçlarında meydana çıxan və iki qol vurub, iki məhsuldar ötürmə verən mərkəz hücumçusu Andreas Kornelius. “Bayerlə” oyundan sonra Danimarka liqasında 5 matçda 3 qol vuran digər hücumameyilli oyunçu, cinah yarımmüdafiəçisi Elias Acouri da zədə alıb. Bununla belə, Danimarka Superliqasında keçirdiyi son 4 oyunda 3 qol və 3 məhsuldar ötürmə edən yarımmüdafiəçi Mohamed Elyounussi yaxşı formadadır.

"Qarabağ"ın ev matçlarında vurduğu qolların sayının artması da "Kopenhagen" üçün xoş xəbər ola bilməzdi. Onlar onsuz da son vaxtlar səfərdə çox nadir hallarda qalib gəlirlər. Avropada keçirdiyi son 17 səfər oyununda "Kopenhagen" yalnız üç qələbə qazanıb - Cəbəllütariq, Heidenheym və Priştinada.

“Qarabağ” bugünkü ev oyununa çox hazırlıqlı çıxmışdı və ən azından 35 min tamaşaçı qarşısında nəyə qadir olduğunu göstərməli idi. Elə isinmə hərəkətlərində uğuldayan tribunalar köhlən atlara verilən qələbə istəyi mesajı idi. Beləliklə, oyun başladı və ilk dəqiqələrdən Ağdam təmsilçisi rəqibini öz qapısına doğru sıxışdırmağa məcbur etdi. İlk dəqiqələrdən “Kopenhagen”in qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaratmaq mümkün olsa da danimarkalıların qapıçısı çox əla oyun nümayiş etdirərək komandasını bir neçə təhlükəli vəziyyətdən xilas etməyi bacardı.

Ancaq danimarkalı qapıçıya yalnız 28-ci dəqiqəyə qədər qapısını möhürdə saxlamaq müəssər oldu. 28-ci dəqiqədə “Qarabağ”ın oyunçusu Bikalio cərimə meydançasından kənarda, sağ küncdən qapıya güclü zərbə endirdi. Top Katarskinin qoruduğu qapının sol dirəyinə dəyib “Qarabağ”ın kapitanı Zubirin qarşısına düşdü. Bu dəfə kapitan fürsəti fotə vermədi və T.Bəhramov adına stadiona toplaşmış minlərlə azarkeşin “qoool” deyə hayqırtısı ilə ayağa qalxmasına səbəb oldu. 1:0 “Qarabağ” irəlidədir.

Birinci hissənin 38-ci dəqiqəsində Zubir yenidən fərqlənməyə və komandasının hesabda irəli çıxarmağa yaxın oldu. Pressinq sayəsində ağdamlılar rəqib meydançasında topu ələ keçirdilər. Mateus Silva sağdan qapı önünə Zubirin başla zərbəsinə əla ötürmə etdi. Kapita bu dəfə qapı çərçivəsinə gözəl zərbə endirdi. Lakin Katarski bu dəfə də sayıq tərpənib əla sıçrayışla topu qapı tirinin üstündən kənara çıxardı.

Hissənin sonunda “köhlən at”lar daha bir qol vəziyyəti yaratdılar. Bu dəfə Elvin Cəfərquliyev cərimə meydançasının mərkəzinə doğru güclü zərbə ilə komanda yoldaşı Andradeyə əla ötürmə etdi. Amma Andradenin qapı çərçivəsinə vurduğu zərbə rəqibin oyunçusuna dəyib qapıdan yayındı.

İkinci hissənin əvvəlində Qurban Qurbanovun yetirmələri topa sahibolmada üstünlüyü saxlasalar da birinci hissədəki təzyiq yox idi. Oyun bir qədər bərabərləşmişdi və hətta rəqib bir neçə hücum təşkil etməyə müvəffəq oldu. Lakin bu hücumlar elə də təhlükəli görünmürdü.

Ağdamlılar oyunun tempini aşağa salmağa çalışdıqları bir vaxtda, danimarkalılar elə güclü təzyiq və pressinq nümayiş etdirmirdilər. Onlar əsasən sol cinahdan qarabağlıların qapısına hücum təşkil etməyə çalışırdılar.

70-ci dəqiqədə Qurban Qurbanov ötən oyunun qəhrəmanlarından biri Aleksey Kaşuku Emmanuel Addayla əvəzlədi. Buna qədər isə “Kopenhagen”in məşqçisi heyətində 4 əvəzetmədən istifadə etmişdi. Rəqib təzyiqini getdikcə artırmağa səy göstərirdi. 80-ci dəqiqədə Yakob Nestrup son dəyişikliyə əl atdı. Lakin bu da onun komandasının 84-cü dəqiqədə “Qarabağ”ın ikinci qolundan xilas edə bilmədi.

83-cü Katarski qapıdan topu zərbə ilə oyuna daxil etdi. Axundzadə topu ələ keçirib Kaşukun əvəzinə meydana çıxan Addaya ötürdü. “Qarabağ”ın hücumçusu topla bir-iki fənd işlədikdən sonra 22 metrdən onu rəqibin qapısının aşağa sol küncünə vurdu. Yox, yox Katarski bunu dəf edə bilmədi: Qoool! 2:0. “Qarabağ” yenə tarix yazdı. Çünki oyun elə bu hesabla da başa çatdı. Əhsən “Qarabağ”, əhsən Qurban Qurbanov, Əhsən Azərbaycan!

*İlqar RÜSTƏMOV*
*XQ*

# Hakimliyə namizədlərlə görüş



**Oktyabrın 1-də Milli Məclisdə hakimliyə namizədlərlə görüş keçirilib.**

Görüşdə çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli hakim kadrların yüksək nəzəri bilik və peşə hazırlığından söz açıb. O, Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarına toxunaraq hakimlərin fəaliyyətində qanunçuluğa, insan hüquqlarının qorunmasına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dönmədən əməl olunması ilə bağlı düşüncələrini söyləyib.

Görüşdə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri - Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov, Erkin Qədirli, Kamal Cəfərov çıxış ediblər.

Söhbət məhkəmə sisteminin inkişafı, məhkəmə qərarlarının təkmilləşdirilməsi, onların ədalətin təminində və hüquq sistemindəki rolu barədə fikir mübadiləsi ilə davam etdirilib.

*XQ*

# NDU-da Naxçıvan İnnovasiya Mərkəzi yaradılıb

**Dünən Naxçıvan Dövlət Universitetində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyini ilə birgə yaradılmış Naxçıvan İnnovasiya Mərkəzinin açılışı olub. Mərasimdə rəsmi qurumların, ali təhsil müəssisələrinin, Türkiyə universitetlərinin təmsilçiləri, ziyalılar, iştirak ediblər.**

NDU-nun rektoru Elbrus İsayev Naxçıvan İnnovasiya Mərkəzini təhsilalanların yenilikçi ideyalarının reallaşdırılmasında, müasir texnologiyaların və tədris metodlarının tətbiqində önəmli rol oynayacağını qeyd edib. Rektor son 4 ildə ali təhsil ocağının startap uğurlarını xatırladaraq bildirib ki, bir çox layihələrdə, proqramlarda iştirak, ardıcıl qazanılan qalibliklər regional ekosistemdə NDU-nun rolunu gücləndirib.

Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri Fərid Osmanov ekosistemi sürətlə inkişaf edən ölkələrdə innovasiya məkanlarının aparıcı rol oynadığındabn söz açaraq söyləyib ki, bu mərkəz Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfədir ki, Naxçıvan Dövlət Universitetində fəaliyyətə başlayır. Naxçıvan MR Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini, Azər Məmmədrəhimov, Ərzurum Texnik Universitetinin prorektoru Ceren Sultan Elmalı, Bakı Mühəndislik Universitetinin prorektoru Ağası Məlikov, Rəqəmsal İnkişaf Agentliyinin şöbə müdiri Elvin Hacıyev, İstanbul Cerrahpaşa Universitetinin professoru Aysel Ersoy, NDU-nun informasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli, Azərbaycan–Britaniya Peşəkarları Assosiasiyasının sədri İlhamə Cəfərli innovasiya məkanlarının yaradılmasının innovativ təfəkkürlü yeni nəsil yetişdirmək yönündə mühüm və özünəməxsus önəm daşıdığını qeyd ediblər.



Çıxışlar dinlənildikdən sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan–Britaniya Peşəkarları Assosiasiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Mərasimdən sonra “İnnovasiya və davamlı inkişaf yeni ideyalar və həllər” mövzusunda ikigünlük beynəlxalq konfrans başlayıb.

*Səbuhi HƏSƏNOV*
*XQ*

# Aşıqların Qərbi Azərbaycan salnaməsi



**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Ozan dünyası” Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyinin hazırladığı “Aşıqlar Qərbi Azərbaycanı tərənnüm edirlər” kitabının təqdimatı olub.**

Mərasimi giriş sözü ilə açan ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova yeni nəşrin Qərbi Azərbaycana qayıdış hərkatına mənəvi dəstək olaraq ərsəyə gəlməsindən söz açaraq bildirib ki, kitabda XVII əsrdə yaşamış Dərdli Nəsibdən üzübəri günümüzədək ustad aşıqların poetik yaradıcılığından seçmələr –toplanıb. Qədim türk diyarındakı yer-yurd adlarını, burada yaşamış soydaşlarımıza qarşı zaman-zaman ermənilərin törətdikləri vəhşilikləri əks etdirən şeirlər dövrün ictimai-siyasi mənzərəsinin, erməni zülmünün, bu basqılara qarşı xalqımızın mübarizəsinin poetik salnaməsini təşkil edir. Toplu Qərbi Azərbaycan aşıq mühitlərini araşdıran tədqiqatçılar, tələbələr, eləcə də aşıq sənətini sevən oxucular üçün dəyərli mənbədir.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi Məhərrəm Qasımlı “Ozan dünyası”nın yarandığı gündən aşıq sənətinin təbliği istiqamətində gördüyü işlərdən danışıb, təqdim olunan kitabın bu istiqamətdə növbəti uğurlu addımolduğunu söyləyib. Akademik Muxtar İmanov təqdim olunan kitabın bədii-ictimai dəyərindən söz açıb, birliyə peşəkar fəaliyyətlə bağlı tövsiyələrini bildirib.

Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı, ADPU-nun ədəbiyyat kafedrasının müdiri, dosent Razim Məmmədli, ustad aşıq Altay Məmmədli və digər çıxış edənlər yeni aşıq antologiyasının "Ozan dünyası" ictimai birliyinin Qərbi Azərbaycana qayıdış hərəkatına layiqli töhfəsi olduğunu vurğulayıblar.

Sonda"Ozan dünyası"nın sədri, Əməkdar mədəniyyət işçsi Musa Nəbioğlu layihənin həyata keçirilməsinə maliyyə dəstəyinə, kitabın nəşrinə və təqdimata görə hamıya təşəkkür edib.

Mərasim ustad aşıqlar Cahangir Quliyev, Faxfur Ağbabalı və Altay Məmmədlinin çıxışları ilədavam edib.

*T.RÜSTƏMLİ*
*XQ*

# İtaliya Qazaxıstanla da strateji tərəfdaşdır



**İtaliya Prezidenti Sercio Mattarella sentyabrın 30-da Mərkəzi Asiyanın ən böyük innovasiya mərkəzi olan “Astana Hub” IT-parkına səfər edib. Bu ziyarət onun Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə danışıqlar proqramının kulminasiya nöqtəsi olub və Astananın informasiya texnologiyaları sahəsində əldə etdiyi uğurların yüksək qiymətləndirilməsi ilə yadda qalıb. Bəs İtaliyanın Qazaxıstan və ümumilikdə Mərkəzi Asiyaya artan marağı nə ilə bağlıdır?**

Prezident Tokayev italyalı həmkarının səfərini ikitərəfli münasibətlərdə “yeni bir mərhələ” adlandırıb və qeyd edib ki, bu, İtaliyanın bölgədə uzunmüddətli strategiyasının davamıdır. Son 20 ildə Roma Qazaxıstan iqtisadiyyatına 7 milyard dollara yaxın investisiya yatırıb və hazırda ölkədə 250-dən çox italyan şirkəti fəaliyyət göstərir. Doğrudur, ticari-iqtisadi əməkdaşlıq kontekstində ilin ilk 8 ayında ticarət dövriyyəsi bir qədər azalaraq 11,3 milyard dollar təşkil etsə də (Qazaxıstanın ixrac payı 9,4 milyard dollar), ötən il iki ölkə arasında ümumi ticarət dövriyyəsi 20 milyard dollara çatıb. Bununla yanaşı, neft hələ də əsas ixrac məhsulu olaraq qalır. Hər iki tərəf gələcəkdə nəqliyyat əlaqələri və yüksək texnologiyalar kimi perspektivli sahələrdə böyük potensial görür.

Qazaxıstan IT-sahəsinə xüsusi maraq göstərir və prezident Tokayevin sözlərinə görə, “genişmiqyaslı rəqəmsallaşma və süni intellektin tətbiqi Astananın milli strateji prioritetidir”. O, inanır ki, bu istiqamət vətəndaşların həyat keyfiyyətini artıracaq, iqtisadiyyatın modernləşdirilməsinə imkan verəcək və ölkəni qabaqcıl dövlətlər sırasına çıxaracaq. Qazax lideri, həmçinin bildirib ki, İtaliya bu strateji sahədə Qazaxıstan üçün dəyərli tərəfdaş ola bilər.

Prezidentlər rəqəmsal texnologiyalar, süni intellekt və böyük məlumat bazaları sahəsində təcrübə mübadiləsi aparmağa qərar veriblər. Prezident Tokayev italyalı həmkarına bildirib ki, Qazaxıstan maliyyə və turizm sahələrində innovativ layihələrdə birgə işləməyə hazırdır və İtaliya şirkətləri üçün əlverişli şərait yaradılacaq.

Ekspertlər Qazaxıstan və İtaliya arasında əməkdaşlığın atom enerjisi sahəsi də daxil olmaqla geniş potensiala malik olduğunu vurğulayırlar. Belə fikirlər irəli sürülür ki, İtaliya nüvə elektrik stansiyalarının tikintisi sahəsində təcrübəyə malikdir və texnologiya mübadiləsi mümkündür. Eyni zamanda, İtaliyanın qabaqcıl texnologiyaları və zəngin mədəni irsi, Qazaxıstanın isə inkişaf etmiş tranzit infrastrukturu, resursları və regional nüfuzu birləşdirilərək uzunmüddətli tərəfdaşlıq strategiyası qurula bilər.

Xatırladaq ki, bu ilin may ayında İtaliya Baş naziri Corcia Meloninin Astanaya səfəri geniş razılaşmalar paketinin imzalanması ilə yadda qalıb. Ən ambisiyalı layihələrdən biri mühəndislik-sənaye qovşağının yaradılmasıdır ki, bu, yalnız Mərkəzi Asiyaya deyil, həm də Qafqaza xidmət göstərəcək. Bundan başqa, xanım Meloninin səfəri zamanı keçirilən “Mərkəzi Asiya – İtaliya” yüksək səviyyəli sammitdə qəbul edilən birgə deklorasiyada Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas koridor kimi strateji əhəmiyyəti vurğulanıb. Sənəddə region liderləri İtaliya şirkətlərini nəqliyyat, infrastruktur və konsaltinq sahələrində fəal iştirak etməyə çağırıblar. Eyni zamanda, deklorasiyada İtaliyanın Mərkəzi Asiya ölkələrinin regional əməkdaşlığı gücləndirmək siyasəti dəstəklənib.

İtaliya prezidenti iö görüşdə prezident Tokayev bildirib ki, “Mərkəzi Asiya – İtaliya” dialoq platforması regional əməkdaşlığa təkan verəcək. Cənab Mattarella isə İtaliyanın Aralıq dənizindəki üstün mövqeyini istifadə edərək, Mərkəzi Asiya məhsullarını Avropa və Afrika bazarlarına çıxaracaq əsas nəqliyyat zənciri rolunu oynamağa hazır olduğunu bildirib.

Ekspertlər vurğulayırlar ki, Avropanın Mərkəzi Asiyaya marağı artır. Növbəti “Mərkəzi Asiya – İtaliya” sammiti 2027-ci ildə Bişkekdə, IV Xarici İşlər Nazirləri Konfransı isə 2026-cı ildə İtaliyada keçiriləcək. Bütün bunlar bir daha təsdiqləyir ki, İtaliya beynəlxalq rəqabət şəraitində Mərkəzi Asiya regionunda siyasi, iqtisadi və mədəni əlaqələrini gücləndirmək istəyir və Roma bu istiqamətdə yürütdüyü siyasəti daha da intensivləşdirəcək.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 211 (30905) 2 oktyabr 2025-ci il, cümə axşamı

## İDMAN

### Şahmatçılara ustad dərsi



**Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, qurumun təşkilatçılığı ilə növbəti "ustad dərsi" keçirilib. 14, 16 və 18 yaşlılar arasında dünya çempionatında iştirak edəcək şahmatçılar üçqat Avropa çempionu, milli komandanın üzvü Rauf Məmmədovla görüşüblər.**

Yarışlara hazırlıq barədə danışan R.Məmmədov müxtəlif partiyaları təhlil edərək, sonda şahmatçıların suallarına cavab verib.

Kişi şahmatçılardan ibarət Azərbaycan yığması Gürcüstanda keçiriləcək komandalar arasında Avropa çempionatında iştirak edəcək.

### Avropa çempionatında qələbə




**Çexiyanın Ostrava şəhərində 19 yaşadək boksçular arasında Avropa çempionatına start verilib. Yarışın ilk günündə rinqə çıxan Azərbaycan millisinin iki idmançısı döyüşünü qələbə ilə başa vurub. 70 kiloqramda təmsilçimiz Rza Rzayev 1/16 final çərçivəsində Qleb Herdtlə (İsrail) qarşılaşıb və 5:0 hesabı ilə qalib gəlib. O, növbəti görüşdə ilk mərhələdən azad olan Akaki Basariya (Gürcüstan) ilə üz-üzə gələcək.**

75 kiloqramdakı boksçumuz Abbasqulu Şadlinski 1/16 finalda Gerasimos Tzavarosa (Yunanıstan) qalib gəlib – 5:0. Şadlinski ikinci döyüşündə ilk mərhələdən azad olan Ahmed Koçin i (Albaniya) qarşılaşacaq.

Hər iki boksçumuz 1/8 final döyüşünə bu gün çıxacaq.

Qeyd edək ki, Avropa çempionatına oktyabrın 9-da yekun vurulacaq.

### Şəhriyar FIDE reytinqində 2 pillə irəliləyib



**Şəhriyar Məmmədyarov (2742) Beynəlxalq Şahmat Federasiyasının (FIDE) yeni reytinqində iki pillə irəliləyib. FIDE-nin rəsmi saytına istinadən xəbər verir ki, təcrübəli qrossmeyster hazırda 14-cü pillədə qərarlaşıb.**

Teymur Rəcəbov (2692) 38-ci, Rauf Məmmədov (2655) 62-ci, Eltac Səfərli (2630) 100-cü yerdədir.

Kişilərin siyahısına norveçli Maqnus Karlsen (2839) başçılıq edir.

Qadınlardan Ülviyyə Fətəliyeva (2410) 35-ci pilləyədək irəliləyib. Günay Məmmədzadə (2390) 51-ci, Gövhər Beydullayeva (2362) 73-cü, Xanım Balacayeva (2351) 87-ci yerdədir.

Qadın şahmatçıların sıralamasında isə çinli Hou İfan (2617) liderdir.

***Qabil YUSİFOĞLU***
***XQ***

*14 aprel 1992-ci il təvəllüdlü Əlizadə Elvin Vüqar oğlu Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən nostifikasıyadan keçmiş- Türkiyə Respublikasının Hacettepe Universiteti 050404 iqtisadiyyat-bakalavriat peşə hüququ verən 012764 nömrəli şəhadətnaməni, təhsili növbəti pillədə davam etdirmək hüququ verən 011058 nömrəli şəhadətnaməni, həmçinin Birləşmiş Krallığın Çester Universiteti 060403 maliyyə magistratura peşə hüququ verən 014937 nömrəli şəhadətnaməni, təhsili növbəti pillədə davam etmək hüququ verən 014342 nömrəli şəhadətnamələri itirdiyi üçün etibarsız sayılır.*

# Mingəçevirdə III MDB oyunları



**Sentyabrın 28-də yeni istifadəyə verilmiş Gəncə Stadionunda III MDB Oyunlarının rəsmi açılış mərasiminin keçirilməsi və bu mötəbər tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı, sözün həqiqi mənasında, böyük bayrama çevrildi.**



İdman oyunları ölkəmizin 7 şəhər və rayonunda keçirilir. Oktyabrın 8-də keçiriləcək yarışlara 23 idman növü üzrə keçiriləcək yarışlara Azərbaycanla yanaşı, Pakistan, Rusiya, Özbəkistan, Belarus, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Türkiyə, Küveyt, Oman ölkələrindən gələn idmançılar da qatılıblar. Mingəçevirdə isə 4 idman növü üzrə yarışlar keçirilir.

Artıq yarışların ilk günündə Azərbaycan III MDB Oyunlarında ilk qızıl medalını qazanıb. Mingəçevirdə yerləşən "Kür" Olimpiya Tədris-İdman Mərkəzində keçirilən taekvondo yarışlarında idmançımız Ziya Həsənli (63 kq) qızıl medal əldə edib. Həmçinin idmançılarımızdan Humay Dadaşova (46 kq) və Məryəm Məmmədova (53 kq) qızıl, Ümid Rəhimzadə (54 kq) gümüş medal qazanıblar. Rəqiblərinə qalib gəlmək əzmi ilə yarışan Elcan Əliyev (74 kq) gümüş, Səlimə Quliyeva (46 kq), Nilufər Borji (53 kq), Tamerlan Yaqubov (54 kq), Nərgiz Kazımova (62 kq), Allahverdi Məmmədov və Zeynal Əliyev (hər ikisi 87 kq) bürünc medal qazanıblar.





Taekvondo yarışlarından sonra iştirakçılardan bir qrupu ilə görüşdük, onlardan müsahibə aldıq. Hamısı həvəslə danışdı. Qırğızıstan Respublikasının İdman Nazirliyində işləyən Azamat Kenzheshen bildirdi ki, yarışlara 126 nəfər idmançı cəlb olunub. Onlar Gəncə şəhərində qalır, Mingəçevirdəki idman bazasında yarışlarını davam etdirirlər. Azərbaycanda ilk dəfə olmasından söhbət açan Azamat respublikamızın inkişafından, Mingəçevirin, Gəncənin səliqə-sahmanlı şəhər olduğundan danışdı, buranın insanlarından razılıqlarını bildirdi. Yarışların təşkilatçılarına minnətdarlığını ifadə etdi. Eyni fikirləri Rusiyadan olan taekvondoçu Maksim Mironov da diqqətə çatdırdı: Mingəçevir gözəl şəhərdir,– dedi, təşkilatçılar burada hər cür şərait yaradıblar. Şəhərdə ilk dəfə olmağıma baxmayaraq insanların münasibəti diqqətimi cəlb etdi. Taekvondoçular Viktoriya Tatarenko və Aziza Qüseynova da söhbətə müdaxilə edərək yarşların təşkilindən razılıqlarını bildirdilər. III MDB Oyunlarının yüksək səviyyədə keçirildiyini diqqətə çatdırdılar. Bu cür yarışlar insanlar arasında mehribançılığı, səmimiyyəti artırır, dedilər, yenidən Mingəçevirə qayıtmaq arzusunda olduqlarını bildirdilər.

Qeyd etmək yerinə düşər ki, yarışın təşkilatçıları arasında könüllülər də çoxluq təşkil edir. Onlardan Orxan Əhmədov bildirdi ki, 60 nəfərdən çox könüllü ilə birlikdə yarışların təşkilinə nəzarət edirlər. Orxan həvəslə danışır. Bildirir ki, yarışlar yüksək əhval-ruhiyyə ilə keçir.

Mingəçevirlilər, tələbə-gənclər ilk gündən yarışları maraqla izləyir, idmançılarımıza dəstək verir, onlarda rüh yüksəkliyi yaradırlar.

Bildirmək yerinə düşər ki, Mingəçevir "Kür" Olimpiya Tədris-İdman Mərkəzində oktyabr ayının 5-6-da davam edəcək yarışlarda kayak üzrə 12, kanoe üzrə 2, akademik avarçəkmə üzrə isə 6 nəfər idmançımız qələbə uğrunda mübarizə aparacaqlar. Yəni, III MDB Oyunlarında iştirak edəcək avarçəkənlərimizin sayı 20 nəfərdir. Həmin mübarizəyə Rusiya, Belarusiya, Özbəkistan, Qazaxıstan və Qırğızıstandan gələn idmançılar da qoşulacaqlar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Mingəçevir**

## HAVA

### Bakıda, əsasən, yağmursuz, rayonlarda yağış, dağlarda qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 14-16, gündüz 18-21 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-16, gündüz 17-21, dağlarda gecə 4-8, gündüz 10-15 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

### "Məktəbli və Tələbə İaşə" ATSC səhmdarlarının nəzərinə!

4 noyabr 2025-ci il saat 15.00-da "Məktəbli və Tələbə İaşə" ATSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyindəki məsələlər:

1. Səhmdar cəmiyyətin müşahidə şurasının üzvlərinin və sədrinin seçilməsi.
2.Səhmdar cəmiyyətin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

İclasda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə nömrəsi** – 050-361-55-64.

**Ünvan** – Bakı şəhəri,7-ci mikrorayon, "Büllur Saray" şadlıq evi.

***İdarə heyəti***

### ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Dövlət əhəmiyyətli tədbirlərin təşkili şöbəsinin baş məsləhətçisi Erol Musalıya anası

**RƏNA MUSAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3518**
**SİFARİŞ 1946**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**İmran BƏDİRXANLI**
**Çapa imzalanmışdır 00:00**